Hər kəs ədalətli olacaq

ƏDALƏT

## Azərbaycan-Türkiyə birgə təlimində iştirak edən hərbçilər mükafatlandırıldı



**”Mustafa Kamal Atatürk - 2023” birgə taktiki təliminin ”Yüksək səviyyəli müşahidəçi günü”ndə Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Güler digər qonaqlarla birgə təlimdə iştirak edən bir qrup hərbi qulluqçu ilə görüşüblər.**

Müdafiə Nazirliyindən Adalet.az-a verilən məlumata görə, ümumilikdə təlimin gedişatını yüksək qiymətləndirən müdafiə nazirləri hər iki qardaş ölkənin təlimdə fərqlənən hərbi qulluqçularına qiymətli hədiyyələr təqdim ediblər.

Qeyd edək ki, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında bağlanmış hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən, Türkiyə Respublikasının yaradılmasının 100-cü ildönümünə həsr olunmuş ”Mustafa Kamal Atatürk - 2023” birgə taktiki təlimi 25 oktyabr tarixində başa çatacaq.

## Milli Məclisdə yeni qrup yaradıldı



**Korsika xalqının öz milli kimliyinin bərpa edilməsi, fundamental hüquq və azadlıqlarının təmin olunması istiqamətində mübarizəsinə dəstək məqsədilə Azərbaycan Respublikası Milli Məclisində yeni qrup yaradılıb.**

Adalet.az xəbər verir ki, bu barədə Milli Məclisdən məlumat verilib. Bildirilib ki, dəstək qrupunun məqsədi Korsika xalqının haqlı tələblərinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması, Fransa müstəmləkəçiliyinin dağıdıcı təsirlərinə qarşı mübarizəsi uğrunda beynəlxalq səylərin birləşdirilməsidir.

Qrupa Milli Məclisin deputatları Tural Gəncəliyev, Cavanşir Feyziyev, Şahin İsmayılov və Azər Kərimli daxildir.

## Antiterror şəhidlərinin ailələrinə Prezident təqaüdü təyin edilib

**Lokal antiterror tədbirləri zamanı həyatını itirən şəhidlərimizin ailələrinə Prezident təqaüdü təyin edilib.**

Adalet.az xəbər verir ki, bu barədə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deyib.

”Onlar üçün pensiya təyinatı üzrə sənədləşmə işləri aparılır. Təxminən 40 faizdən çoxunun pensiyaları təyin edilib. Həmçinin, İcbari tibbi sığorta çərçivəsində ödəmələr təmin edilib. Qısa müddət ərzində bütün ödəmələr tam şəkildə icra olunacaq”,- deyə nazir əlavə edib.

## Ərdoğan Stoltenberqlə danışdı: Qərbi tənqid etdi



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan NATO Baş katibi Yens Stoltenberqlə danışıb.**

Adalet.az xəbər verir ki, məlumatı Türkiyə mediası yayıb.

Telefon danışığı zamanı Qəzzada son vəziyyət, insan hüquqlarının pozulmasının qarşısını almaq üçün görüləcək işlər və humanitar yardımların insanlara fasiləsiz çatdırılması müzakirə edilib. Ərdoğan eyni zamanda bildirib ki, Qərb ölkələrinin Qəzzada baş verənlərə ciddi formada yanaşmaması, İsraili dayandırmaq üçün səy göstərməmələri gələcəkdə çox böyük problemlərə yol açacaq.

Türkiyə lideri vurğulayıb ki, Qərb bölgədə baş verən gərginliyi dayandırmaq üçün bir an əvvəl hərəkətə keçməlidir.

## Xankəndi Şəhər Polis Şöbəsi yaradıldı




**Azərbaycan Daxili İşlər Nazirliyinin (DİN) Xankəndi şəhərində polis şöbəsi yaradılıb.**

Adalet.az xəbər verir ki, sosial şəbəkələrdə paylaşılan foto buna dələlət edir.

Belə ki, fotoda sözügedən şöbənin lövhəsi əks olunub.

Lövhədə yazılıb: ”Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Xankəndi Şəhər Polis Şöbəsi”.

## Bu ay Əliyev-Paşinyan görüşü baş tutmayacaq



**Azərbaycan və Ermənistan liderləri bu ay Brüsseldə görüşməyəcək.**

Adalet.az xəbər verir ki, bunu Avropa İttifaqının Gürcüstan böhranı və Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar bildirib. Toivo Klaarın sözlərinə görə, Ermənistan Baş naziri Nikol Paşinyan və Azərbaycan Prezidenti İlham Əliyev vaxt azlığı ilə əlaqədar olaraq oktyabr ayının sonunda Brüsseldə görüşməyəcəklər.

Qeyd edək ki, bu ayın əvvəlində Qranadada keçirilən 3-cü Avropa Siyasi Sammitində iştirak edən Aİ Şurasının Prezidenti Şarl Mişel ”France-Presse”ə açıqlamasında deyib ki, oktyabrın sonunda Avropa İttifaqının (Aİ) ev sahibliyi ilə Azərbaycan və Ermənistan liderləri arasında görüş keçiriləcək. O bildirib ki, Brüsseldə baş tutacaq görüşlə bağlı tərəflər artıq məlumatlandırılıb.

”Mən hər iki lideri oktyabrın sonunadək Brüsselə dəvət edəcəyim barədə məlumatlandırmışam”, - Mişel bildirib.

Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 41 (6034) 27 oktyabr 2023-cü il | Qiymәti 40 qәpik

## DİN-dən vətəndaşlara müraciət



**Daxili İşlər Nazirliyi vətəndaşlara müraciət edib. DİN-in Mətbuat xidmətindən Adalet.az-a daxil olan müraciətdə deyilir:**

”Son vaxtlar ayrı-ayrı şəxslərə SMS, elektron poçt və veb səhifələr vasitəsilə bildirişlər göndərilərək onların uşaq pornoqrafiyası və kibercinayətlərdə iştirakı, yaxud belə əməllərin qurbanı olması, bununla əlaqədar fərdi məlumatlarını təqdim etməsi, ödəniş həyata keçirməsi kimi dələduzluq hərəkətləri qeydə alınır.

Əsasən reklam xarakterli bildirişlərə toxunan internet istifadəçisi müxtəlif elektron ünvanlara, yaxud hər hansı ”e-mail” xidmətinin oxşar versiyasına yönəldilir.

Xarici dövlətlərə aid mənbələrdən, eləcə də Europol və başqa polis təşkilatlarının adından istifadə edilməklə törədilən bu cür dələduzluq əməlləri insanların pul vəsaitinin və ya bank kartlarının ələ keçirilməsinə hesablanmışdır.

Göstərilən hallarla rastlaşdıqda şübhəli linklərə daxil olmamaq, yönləndirilən saxta veb səhifələri açmamaq, orada ödəniş etməmək, dərhal DİN-in ”102” Xidmətinə və onun sosial şəbəkə hesablarına müraciət etməniz tövsiyə olunur”.

# CÜMHURİYYƏT - 100



## "Zəngəzur dəhlizi bizim üçün cəlbediciliyini itirib"



**”Gündəliyimiz yalnız ikitərəfli əməkdaşlıq çərçivəsində nəqliyyat əlaqələrinin qurulmasından ibarətdir”.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ”Politico” nəşrinə müsahibəsində deyib.

Hikmət Hacıyev həmçinin qeyd edib ki, Azərbaycanın Zəngəzuru ələ keçirmək kimi planı yoxdur: ”Tərəflər Zəngəzur dəhlizinin açılması ilə bağlı razılığa gələ bilmədikdən sonra, layihə bizim üçün cəlbediciliyini itirib. Biz bunu İranla yerinə yetirə bilərik. Bu məsələ hələ də masanın üstündədir, lakin Ermənistan tərəfi bununla həqiqətən maraqlandıqlarını göstərmək üçün bunu tələb edəcək.

Bu ayın əvvəlində Tehranla razılaşma çərçivəsində Azərbaycan qonşu ölkədən keçən yeni yol xəttinin təməlini qoydu. Bununla belə, ümidlər var ki, nəqliyyat əlaqəsi sülh müqaviləsi üzrə irəliləyişin bir hissəsi kimi bərpa oluna bilər, lakin Azərbaycana ”ekstraritorial” güzəştlər olmadan Ermənistanın sərhəd nəzarətindən yan keçməyə imkan verəcək. Hazırda sərhədlər bağlıdır”.

## Baş prokuror: "Azərbaycanın 9 şəhəri və yüzlərlə kəndi dağıdılıb"



**Azərbaycanın 9 şəhəri və yüzlərlə kəndi Ermənistan tərəfindən vəhşicəsinə dağıdılıb.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycanın Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin Baş Prokurorları Şurasının 2-ci iclasında bildirib.

Kamran Əliyev üç il əvvəl Azərbaycan torpaqlarının otuz illik işğalına son qoyulduğunu, tarixi ədalətin və beynəlxalq hüququn bərpa edildiyini vurğulayıb. Baş prokuror işğal bitsə də, onun ağır fəsadlarının hələ də qalmaqda olduğunu bildirib. İkinci Qarabağ müharibəsi başa çatandan sonra bu günə qədər 300-dən çox Azərbaycan vətəndaşının mina terrorunun qurbanı olduğu və ya ağır yaralandığı bildirilib.

Həmçinin, Baş prokuror Azərbaycan Ordusu tərəfindən 1 ay öncə lokal xarakterli antiterror tədbirlərinə başlanıldığı və qarşıda duran bütün vəzifələrin cəmi bir gün ərzində yerinə yetirilərək ölkəmizin ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğunu xüsusi vurğulayıb.

Bu ilin 15 oktyabr tarixində isə Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən ölkəmizin üçrəngli bayrağının əzəli torpaqlarımız olan Ağdərə, Xocavənd, Xocalı, Əsgəran və nəhayət Xankəndidə qaldırıldığı qeyd olunub.

Ermənistan tərəfindən Azərbaycanın Qarabağ bölgəsində iqtisadi və sosial infrastrukturun tamamilə dağıdıldığını, bugün həmin ərazilərdə ölkə rəhbərliyinin diqqət və qayğısı ilə sürətli yenidənqurma işlərinin uğurla aparıldığı vurğulanıb.

## AZAL qiymətləri endirəcək



**AZAL rəhbərliyi Natiq Cəfərlini aviaşirkəti tənqid etməsi ilə bağlı qəbul edib.**

Adalet.az xəbər verir ki, bu barədə N.Cəfərli ”Facebook” səhifəsində məlumat verib.

N.Cəfərli qeyd edib ki, görüşdə bu günə kimi AZAL-ın ünvanına səsləndirdiyi tənqidlər və bununla bağlı formalaşan ictimai rəy barədə S.Rzayevə məlumat verib:

”Ən vacib məsələ, qiymətlərin baha olması ilə bağlı tənqidləri də normal qarşıladı, bu yöndə ciddi işlər apardıqlarını dedi, bəzi aksilayaların, məsələn, Türkiyədə oxuyan tələbələrə güzəştli biletlər satılmasının artıq həll olunduğunu, bu yanaşmanın başqa ölkələrdə oxuyan tələbələrə də şamil olunması üçün işlər görüldüyünü dedi. Qiymətlərin aşağı düşməsi üçün xərclərin azaldılması proqramı olduğunu söylədi, artıq keçən illə müqaisədə xərclərin 15% aşağı salınmasına nail olduqlarını, bunun da qiymətlərə təsir etdiyini dedi. Yaxın zamanlarda yeni qiymət endirimlərinin olacağını da söylədi”.

## BQXK Ermənistanda əsir saxlanılan əsgərlərimizə baş çəkdi



**Oktyabr ayında BQXK əməkdaşları Azərbaycan tərəfinin haqqında məlumat verdiyi erməni əsilli şəxslərlə və Ermənistanda saxlanılan azərbaycanlılara baş çəkiblər.**

Bu barədə Adalet.az-a BQXK-nın Bakı nümayəndəliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova məlumat verilib. O bildirilib ki, saxlanılan şəxslərlə təkbətək görüşlər keçirilib və onların ailələri ilə əlaqə yaratmaları üçün şərait yaradılıb.

”Mandatına uyğun olaraq BQXK, bu cür başçəkmələr zamanı saxlanılan şəxslərlə rəftarı və saxlanma şəraitini qiymətləndirir. Həmçinin, şəxslərin ailələri ilə əlaqələrini bərpa etmək və ya davam etdirmək üçün şərait yaradır. BQXK-nın prosedurlarına uyğun olaraq, başçəkmələrlə bağlı müşahidələr və tövsiyələr yalnız saxlayan tərəflə paylaşılır və müzakirə edilir”, - deyə məlumatda qeyd olunub.

## Cənubi Qafqazda müharibə bitdi: bunun vaxtıdır

**Cənubi Qafqazda müharibə başa çatıb və regionda sülhün, əməkdaşlığın və tərəqqinin vaxtı çatıb.**

Adalet.az xəbər verir ki, bu sözləri İran xarici işlər naziri Hüseyn Əmir Abdullahian Tehranda bu gün keçirilən ”3+3” formatlı görüşdə deyib. ”XİN rəhbərlərinin Tehranda keçirilən ”3+3” formatında görüşü Cənubi Qafqazda sülhün bərqərar olması yolunda təməl daşı ola bilər. Ümid edirik ki, bu görüşlərdə dost Gürcüstanın konstruktiv və səmərəli iştirakının şahidi olacağıq”, - o bildirib.

## HƏMAS-dan ərəb və müsəlman ölkələrinə çağırış



**İsrailin Qəzzaya hücumlarında baş verən böyük qırğından sonra açıqlama verən Həmas Siyasi Bürosunun üzvü Usamə Həmdan ərəb və müsəlman ölkələrini İsraillə əlaqələri kəsməyə və səfirlərini geri çəkməyə çağırıb.**

Adalet.az xəbər verir ki, HƏMAS Siyasi Bürosunun üzvü Usamə Həmdandan ərəb və müsəlman ölkələrinə diqqətçəkən bir çağırış edib. Həmdan, ”Ərəb və İslam ölkələrini və Birləşmiş Millətləri İsrailin təcavüzünü dayandırmaq üçün mənəvi məsuliyyətlərini üzərinə götürməyə çağırırıq”-deyə bildirib.

## Türkiyənin 77 vilayətində FETÖ-yə qarşı əməliyyat keçirildi




**Türkiyənin 77 vilayətində FETÖ-yə qarşı ”Kıskaç” əməliyyatı keçirilib.**

Adalet.az xəbər verir ki, bu barədə Türkiyə daxili işlər naziri Ali Yerlikaya bildirib.

**O qeyd edib ki, əməliyyat nəticəsində 611 şübhəli saxlanılıb.**

## Azərbaycanda bu dərmanlar bahalaşdı



**Gürcüstan 2022-ci ilin yanvar-sentyabr ayları ərzində Azərbaycana 17,8 milyon ABŞ dolları dəyərində 417,26 ton dərman ixrac edib.**

Adalet.az Gürcüstanın Milli Statistika İdarəsinə istinadən xəbər verir ki, hesabat dövründə Azərbaycana ixrac edilən məhsulun dəyəri illik ifadədə 2,9 milyon və ya 19,4% artıb, həcmi isə 83,12 ton və ya 16,6% azalıb. Belə ki, 2022-ci ilin ilk 9 ayı ərzində Gürcüstan Azərbaycana 14,9 milyon dollar dəyərində 500,38 ton dərman ixrac edib.

Cari ilin ilk 9 ayı ərzində Gürcüstan ümumilikdə 82,1 milyon dollar dəyərində dərman ixrac edib ki, bu da illik müqayisədə 7,4% çoxdur.

## “Qəzza zolağında 1400-dən çox insan dağıntılar altındadır”

**İsrail Müdafiə Qüvvələri (IDF) tərəfindən Qəzza zolağının atəşə tutulmasından sonra 800-dən çoxu uşaq olmaqla 1400-dən çox insan dağıntılar altında qalıb.**

Adalet.az xəbər verir ki, bunu BMT-nin İnsan Haqları üzrə Ali Komissarı Volker Türk deyib.

”Hər iki tərəfdən çoxlu sayda mülki şəxs, o cümlədən uşaqlar münaqişənin qurbanı olub.

Və heç nə dəyişməsə, yaxın günlərdə davam edən bombardmanlar səbəbindən daha çox dinc sakin ölüm astanasında olacaq. İnsanlıq hər şeydən əvvəl olmalıdır”, - rəsmi vurğulayıb.

O xatırladıb ki, son məlumatlara görə, oktyabrın 7-dən sonra münaqişə qızışandan sonra Qəzzada beş mindən çox insan həlak olub, onlardan iki mini uşaq olub. Öz növbəsində, HƏMAS-ın qurbanı olan israillilərin sayı 1300 nəfəri ötüb.

**Türk ayrı-ayrılıqda münaqişənin hər iki tərəfinin beynəlxalq hüququ pozduğunu vurğulayıb.**

## «Azərbaycanla Ermənistan arasında münaqişə böyük ölçüdə həll olunub»



**Azərbaycan və Ermənistan arasında münaqişə böyük ölçüdə həll olunub, tərəflər üçün gələcək praktiki addımlar qalır.**

Adalet.az xəbər verir ki, bu barədə Rusiyanın xarici işlər naziri Sergey Lavrov Tehranda ”3+3” formatında (Azərbaycan, Ermənistan, Gürcüstan, İran, Rusiya, Türkiyə) keçirilən xarici işlər nazirlərinin görüşündən sonra bildirib. ”Rusiya Azərbaycanla Ermənistan arasında delimitasiya prosesinin başlanmasına faktiki yardım etməyə hazırdır”, - Lavrov qeyd edib.

# Prezident BƏƏ-nin sənaye və qabaqcıl texnologiyalar nazirini qəbul etdi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabirin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Adalet.az xəbər verir ki, nümayəndə heyətinə Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur naziri Süheyl bin Məhəmməd Əl-Məzrui, investisiya naziri Məhəmməd Həssən Əl-Suveydi, Xarici İşlər Nazirliyinin iqtisadi məsələlər üzrə dövlət naziri Əhməd Əli Əl-Sayeğ, Əbu-Dabi İnkişaf Fondunun baş direktoru Məhəmməd Saif Əl-Suveydi, ”Masdar” şirkətinin baş icraçı direktoru Məhəmməd Cəmil Əl-Ramahi daxildir.

## “Qaradağ Günəş Elektrik Stansiyasının açılışı əlamətdar hadisədir”

**Azərbaycan Prezidenti İlham Əliyev 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının açılışını əlamətdar hadisə adlandırıb.**

”Bu gün biz nisbətən qısa zamanda, təxminən il yarımdan bir qədər çox müddət ərzində Abşeron yarımadasının bu boş hissəsinin yaşıl enerji mənbəyinə çevrildiyini görəndə çox qürur duyuruq. Bu, əlamətdar nailiyyətdir”, - deyə dövlətimizin başçısı Stansiyanın rəsmi açılış mərasimində çıxışı zamanı bildirib.

Adalet.az xəbər verir ki, dövlətimizin başçısı Azərbaycanın inkişafına verdiyi bu möhtəşəm töhfəyə görə, həmçinin yaşıl enerjiyə keçidlə bağlı ölkəmizə sadiqliyinə görə ”Masdar”ı, onun rəhbərliyini təbrik edib. Bu gün qonaqlar arasında Birləşmiş Ərəb Əmirlikləri hökumətinin üç nazirinin yer aldığını vurğulayan Azərbaycan Prezidenti bunun tərəfdaşlığın və dostluğun yaxşı nümunəsi olduğunu, eləcə də hər iki ölkənin bugünkü mərasimə böyük əhəmiyyət verdiyini nümayiş etdirdiyini bildirib.

## “Azərbaycanın BƏƏ ilə böyük planları var”

**”Azərbaycanın Birləşmiş Ərəb Əmirlikləri ilə bərpaolunan enerji mənbələri sahəsində əməkdaşlıq üçün böyük planları var”.**

Adalet.az xəbər verir ki, bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimində çıxışı zamanı söyləyib.

”Bizim böyük planlarımız var və əminəm ki, Birləşmiş Ərəb Əmirlikləri və Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri uğurla inkişaf etməyə davam edəcək. Əminəm ki, daha çox layihələr olacaq. Faktiki olaraq bu gün biz çox qısa zamanda 1 giqavat bərpaolunan enerji istehsalına yol açacaq üç investisiya sazişinin imzalanma mərasiminin şahidi olacağıq”, - deyə dövlətimizin başçısı əlavə edib.

## “Biz yaşıl gündəliyə doğru irəliləyirik”

**”Bugünkü layihə gələcəkdə həyata keçiriləcək çoxsaylı layihələrin birincisidir. Qeyd etdiyim kimi, bu gün üç investisiya sazişi imzalanacaq, lakin bizim planlarımız daha genişdir. Biz mərhələlərlə 10 qiqavata qədər bərpaolunan enerji istehsal etmək üçün birgə işləməyi planlaşdırırıq”.**

Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimində çıxışı zamanı səsləndirib. Bunun regionun enerji inkişafında tam bir inqilab olacağını diqqətə çatdıran dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan dünyada ilk dəfə 19-cu əsrin ortalarında neftin istehsal olunduğu ölkədir. ”İndi bizim zəngin yanacaq ehtiyatlarımızın olduğunu nəzərə alaraq, biz yaşıl gündəliyə doğru irəliləyirik. Bu, məqsədli seçimdir. Bu, bizim təkcə Azərbaycanın gələcək inkişafına deyil, həm də iqlim dəyişikliyi ilə bağlı məsələlərə töhfəmizdir”, - deyə Azərbaycan Prezidenti bildirib.

## Azərbaycan Hökuməti ilə “Masdar” arasında sənədlər imzalandı

**Oktyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Azərbaycan Hökuməti ilə Birləşmiş Ərəb Əmirliklərinin ”Masdar” şirkəti arasında sənədlərin imzalanması mərasimi olub.**

Adalet.az xəbər verir ki, Azərbaycan Hökuməti tərəfindən energetika naziri Pərviz Şahbazov, SOCAR tərəfindən iqtisadiyyat naziri, SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov və Birləşmiş Ərəb Əmirliklərinin ”Masdar” şirkətinin baş icraçı direktoru Məhəmməd Cəmil Əl-Ramahi ”Azərbaycan Respublikası Hökuməti ilə ”Abu Dhabi Future Energy Company - Masdar” şirkəti arasında Azərbaycan Respublikasının Neftçala rayonunun Bankə qəsəbəsində Günəş elektrik stansiyası layihəsi ilə bağlı İnvestisiya müqaviləsi”ni, ”Azərbaycan Respublikası Hökuməti ilə ”Abu Dhabi Future Energy Company - Masdar” şirkəti arasında Azərbaycan Respublikasının Biləsuvar rayonunda Günəş elektrik stansiyası layihəsi ilə bağlı İnvestisiya müqaviləsi”ni və ”Azərbaycan Respublikası Hökuməti ilə ”Abu Dhabi Future Energy Company - Masdar” şirkəti arasında Azərbaycan Respublikasının Abşeron-Qaradağ rayonunda quruda külək enerjisi layihəsi ilə bağlı İnvestisiya müqaviləsi”ni imzaladılar.

## XİN: “Ermənistan siyasi manipulyasiya ilə məşğuldur”

**Ermənistan xarici işlər naziri sülh prosesinin irəlilədilməsi üçün yaranmış şansdan bəhrələnmək əvəzinə, növbəti dəfə siyasi manipulyasiya ilə məşğul olur.**

Adalet.az xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın və Kanadanın xarici işlər naziri Melani Jolinin bəyanatlarına dair şərhində bildirilib. Qeyd olunub ki, Azərbaycana qarşı hərbi təcavüz zamanı kütləvi qırğınlar və insanlıq əleyhinə cinayətlər törədən və 30 ilə yaxın müddətdə Azərbaycan ərazilərini işğal altında saxlayan və cəzasızlıqdan sui-istifadə edən bir ölkənin xarici işlər nazirinin Azərbaycanın öz suveren ərazilərində heç bir mülki əhalini hədəf almadan həyata keçirdiyi anti-terror tədbirini ”təcavüz” və ”etnik təmizləmə” əməli adlandırması yalan və saxta iddia kimi qəbuledilməzdir. Ermənistan nazirinin bu məsələdə Beynəlxalq Ədalət Məhkəməsinin qərarına yersiz istinadı isə, məhkəmə qərarlarının təhrif edilməsi cəhdidir.

# Əcnəbilərin Cənubi Qafqazda iştirakı heç bir problemi həll etməyəcək

**İranın paytaxtı Tehranda ”3+3” formatında Azərbaycan, Ermənistan, Rusiya, Türkiyə və İran xarici işlər nazirlərinin iştirakı ilə iclas baş tutub. İclasda Cənubi Qafqaz üzrə məsələlərin araşdırılması, regional əməkdaşlığın (siyasi, iqtisadi, təhlükəsizlik, tranzit, enerji və sairə) inkişaf etdirilməsi müzakirə olunub.**

İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahian tədbirdə çıxış edərək bildirib ki, əcnəbilərin Cənubi Qafqazda iştirakı heç bir problemi həll etməyəcək: ”əcnəbilərin bölgədə iştirakı olarsa, vəziyyəti daha da mürəkkəbləşdirəcək. ”3+3” formatının ən əsas məqsədi regiondaxili problemlərin həlli üçün region ölkələrinin iştirakı və birgə əməkdaşlığın gücləndirilməsidir.Artıq Cənubi Qafqazda gərginlik başa çatıb. Region ölkələri üçün böyük fürsət yaranıb. Növbə sülh, əməkdaşlıq və inkişafındır. Ümid edirik ki, növbəti iclaslarda dost Gürcüstanın da aktiv və konstruktuv iştirakının şahidi olacağıq”.

Hüseyn Əmir Abdullahian bildirib ki, İran bütün region ölkələrinin mənafeyinə əsaslanan əhatəli regional nəqliyyat yol xəritəsinin tənzimlənməsini təklif edir. İranlı nazirin sözlərinə görə, önəmli əməkdaşlıq sahələrindən biri nəqliyyat və kommunikasiyadır: ”Hazırkı Qafqaz yol və dəmiryol nəqliyyat şəbəkələrinin yaradılması üçün lazımi şəraitə sahibdir. Şimal-Cənub və Şərq Qərb dəhlizlərinin reallaşması sülh və stabilliyi ilə özündə məna tapır. İran təklif edir ki, bu istiqamətdə region ölkələrinin nəqliyyat nazirlərinin iclası keçirilsin. İran bu iclasa ev sahibliyi etməyə hazırdır”.

Nazir bildirib ki, İran region ölkələri arasında elektrik enerjisi təminatı üzrə şəbəkənin yaradılmasını maraqla qarşılayır. Bölgə ölkələrinin imkanlarından istifadə etmək məqsədilə region ölkələrinin elektrik şəbəkələrinin birləşdirilməsi və sinxronlaşdırılması müsbət addımlardan biridir.

Əmir Abdullahian əlavə edib ki, regional əməkdaşlıqları gömrük, ticarət, kənd təsərrüfatı, texnologiya, mədəni əlaqələr və sairəyə genişləndirmək olar: ”Bölgəni əlavə həmrəylik, rifah səviyyəsini yüksəltmək, inkişaf və dirçəlişə doğru istiqamətləndirə bilərik. Region ölkələri arasında ictimai əlaqələri sadələşdirəcək mexanizmlərin yaradılması sülh və həmrəyliyin inkişaf etdirilməsində xüsusi əhəmiyyətə malikdir”.

İranlı nazirin sözlərinə görə, regiondan kənar mexanizmlər 30 ilə yaxın region xalqlarını sülh və mənafedən məhrum ediblər. İranlı nazir bildirib ki, biz Azərbaycan və Ermənistan arasında sülh müzakirələrini dəstəkləyirik: ”Ermənistan və Azərbaycan arasında sülh razılaşması prosesini sadələşdirmək üçün region ölkələrinin iştirakı bu cəhətdən əhəmiyyətlidir. Regiondan kənar mexanizmlər 30 ilə yaxın region xalqlarını sülh və mənafedən məhrum ediblər. Artıq zamanı çatıb ki, region dövlətləri yeni təcrübəni başlasın və regional imkanlardan öz xalqlarının mənafeyini təmin etmək istiqamətində istifadə etsinlər”.



XİN rəhbəri qeyd edib ki, Ermənistanın Qarabağı Azərbaycanın tərkib hissəsini tanıması, Azərbaycanın bu bölgəyə suverenliyini bərpa etməsi, Azərbaycanın bölgə sakinlərinin təhlükəsizliyi və hüququnun təmin olunmasını vurğulamasını sülh müzakirələrində önəmli irəliləyişlər hesab edirik: ”Dövlətlərin qarşılıqlı olaraq dövlət suverenliyi, bir-birinin ərazi bütövlüyü və müstəqilliyinə hörmətlə yanaşması. Xüsusilə də digərinə qarşı ərazi iddiasını ehtifa edən məzmunlardan və mexanizmlərdən çəkinmək lazımdır”.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov isə çıxışında qeyd olunan formatın regional problemlərə region ölkələri tərəfindən həll yollarını nəzərdən keçirmək məqsədilə yaradıldığını qeyd edib. Platformanın mövcud ikitərəfli və digər əməkdaşlıq formatlarını tamamlamaq, regionda təhlükəsizliyi və sabitliyi gücləndirmək, iqtisadi artım və tərəqqi naminə istifadə edilməmiş potensialı üzə çıxarmaq üçün əhəmiyyətli potensiala malik olduğunu bildirib. Region ölkələrinin qarşılıqlı fəaliyyət və əməkdaşlığının təməl daşı kimi suverenliyə, ərazi bütövlüyünə və bir-birilərinin sərhədlərinin toxunulmazlığına hörmətin, daxili işlərə qarışmamağın vacibliyini vurğulayıb.

Nazir çıxışında Azərbaycan, Gürcüstan və Türkiyənin iştirakı ilə Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin, Rusiya, Azərbaycan və İranın iştirakı ilə Şimal-Cənub dəhlizinin və Azərbaycan-İran-Türkiyə üçtərəfli formatının yalnız bir dövlətin xeyrinə deyil, hər kəsin ortaq mənfəəti olduğunu əyani şəkildə nümayiş etdirdiyini, bu layihələrin və formatların müsbət təsirinin region ölkələri ilə məhdudlaşmadığını və daha geniş coğrafiyada tərəfdaşlarımızı əhatə etdiyini diqqətə çatdırıb.

Regional bağlantıların təşviqinin yalnız tranzit və nəqliyyat sahələrində deyil, enerji təhlükəsizliyi və energetika kimi sahələrdə istifadə olunmamış geniş potensialdan faydalanmaq üçün də vacib olduğunu diqqətə çatdırıb.

Region ölkələri arasında bağlantıların iqtisadi faydaları ilə yanaşı, müsbət qarşılıqlı asılılığa təkan vermək və beləliklə, sülh və sabitliyə töhfə vermək baxımından da eyni dərəcədə əhəmiyyətli olduğunu qeyd edib.

Nazir çıxışında Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında İran İslam Respublikasının ərazisindən keçməklə nəqliyyat əlaqələrinin yaradılması istiqamətində son inkişafların xüsusi əhəmiyyət kəsb etdiyini, infrastruktur layihələrinin tezliklə yekunlaşdırılması və bu marşrutun istismara verilməsinin regionumuzda bu iki dövlət arasında qarşılıqlı faydalı əməkdaşlığa xidmət edəcəyini, həmçinin Avrasiyada nəqliyyat və tranzit potensialının artırılması üçün yeni bağlantı arteriyasını yaradacağını vurğulayıb.

Nazir çıxışında Azərbaycan ərazilərinin işğalına son qoyulması və suverenliyimizin tam bərpasının Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması üçün yeni perspektiv açdığını diqqətə çatdırıb.

Azərbaycanla Ermənistan arasında münasibətlərin bir-birinin suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının qarşılıqlı tanınması və hörmət əsasında normallaşmasının təkcə bu ölkələrin xeyrinə olmayacağını, həm də əməkdaşlıq və tərəqqi üçün istifadə edilməmiş potensialdan faydalanmağa imkan yaradacağını bildirib.

Nazir Azərbaycanın Ermənistanla bir-birinin legitim maraqlarına qarşılıqlı hörmət əsasında ədalətli və bərabərhüquqlu sülh təklifini bir daha diqqətə çatdırıb və sülh müqaviləsi çərçivəsində məsələlərin tezliklə yekunlaşması məqsədilə Ermənistan tərəfindən qarşılıqlı addımlar və konstruktiv yanaşma gözlədiyimizi, tam regional normallaşma üçün bu unikal şansın bir daha əldən verilməyəcəyinə ümidvar olduğumuzu diqqətə çatdırıb.

Cənubi Qafqaz regionunda sabitliyin təmin edilməsi Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bağlanması ilə mümkündür. Bunu qeyd edən Türkiyənin xarici işlər naziri Hakan Fidan regional kommunikasiyaların açılmasının normallaşma və sülh prosesini sürətləndirəcəyini vurğulayıb.

Tədbirin sonunda birgə bəyanat imzalanıb. Bəyanatda bildirilir ki, ölkələr arasında qarşılıqlı maraqlara və mehriban qonşuluğa əsaslanan dostluq münasibətlərinin inkişaf etdirilməsi vacibdir. Qeyd olunub ki, bu xüsusda mübahisələrin sülh yolu ilə həllinin, suverenliyə, siyasi müstəqilliyə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığına, dövlətlərarası münasibətlər və daxili işlərə qarışmamanın, güc tətbiq etməyin qadağan edilməsi və Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin bütün prinsiplərinə əsaslanan insan hüquqlarına hörmət edilməsi vacibdir.

”3+3” formatında görüşdə sonra jurnalistlərə açıqlama verən Rusiyanın xarici işlər naziri Sergey Lavrov bildirib ki, ”Azərbaycan və Ermənistan arasında münaqişə böyük ölçüdə həll olunub. İndi tərəflərə münasibətlərin tam şəkildə normallaşması üçün növbəti əməli addımlar atılmalıdır. Heç bir maneə olmadan sülh müqaviləsi bağlanmalı, sərhədlər delimitasiya olunmalı və nəqliyyat əlaqələri qurulmalıdır”.

Lavrov onu da bildirib ki, Moskva Azərbaycanla Ermənistan arasında sərhədin delimitasiyası prosesinin başlanmasına faktiki yardım etməyə hazırdır:

”Bütün ekspertlər yaxşı bilirlər ki, delimitasiya ilə bağlı müzakirə və razılıq əldə etmək üçün lazım olan hər şey, o cümlədən, ilk növbədə, sovet dövründən qalan xəritələr Rusiyanın əlindədir.

Tərəfdaşlar bunu başa düşürlər. Biz bundan böyük nəticə çıxarmağa çalışmırıq. İstəsələr, Brüsseldə şanslarını sınasınlar, amma biz real delimitasiyaya başlamaqda həqiqətən kömək etməyə həmişə hazırıq”.

**Qeyd edək ki, xarici işlər nazirlərinin ”3+3” (Azərbaycan, Ermənistan, İran, Rusiya, Türkiyə) formatı çərçivəsində növbəti görüşü 2024-cü ilin birinci yarısında Türkiyədə keçiriləcəyi nəzərdə tutulur.**

**Nicat Novruzoğlu**

# *Qərbin kəskinləşən anti-Azərbaycan münasibəti və Azərbaycanın buna reaksiyası*

**Davamlı olaraq Azərbaycan əleyhinə mövqe sərgiləyən, Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləməsinə və onların öz evlərinə qayıtmasına imkan verməməsinə göz yuman beynəlxalq aləm son 3 ildir gözlərini geniş açaraq Ermənistanı izləyir.**




Məsələn, 4 oktyabrda Avropa Parlamenti Azərbaycana qarşı sanksiyaların tətbiq edilməsini tələb edən qətnamə qəbul etdib.

Qətnamə 473 səslə qəbul edilib, 46 deputat əleyhinə səs verib, 16 deputat bitərəf qalıb.

Avropa Parlamenti AB icra hakimiyyəti orqanlarını, eləcə də ona üzv olan ölkələri Azərbaycan hökumətinin nümayəndələrinə qarşı məqsədyönlü sanksiyalar tətbiq etməyə çağırıb.

Daha sonra Avropa Şurası Parlament Assambleyası (AŞPA) 2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağda hərbi əməliyyatlarını pisləyən ”Dağlıq Qarabağda humanitar vəziyyət” adlı qətnamə qəbul etdi. Bu sənədlərə görə guya Qarabağın erməni əhalisi fiziki ”məhv olmaq” təhlükəsi və Azərbaycanın hakimiyyətinin ”ermənifobiya siyasəti” səbəbindən öz vətənini tərk etdiyi göstərilir. Qətnamə Azərbaycan öz öhdəliklərini yerinə yetirə bilməsə, Assambleyanın Azərbaycan nümayəndə heyətinin mandatına etiraz etməkdən başqa yolu qalmayacaq (bu o demək olacaq ki, Azərbaycan nümayəndə heyətinin AŞPA-da iştirakı ən azı məhdudlaşacaq.

AŞPA-nın bu addımından sonra digər təşkilat və dövlətlərin də təzyiqləri sıraya düzüldü.

Fransa və ABŞ parlamentarilərinin Azərbaycana qarşı münasibəti ilə bağlı kəskin qərarlar qəbul etmək tələblərindən sonra , Çexiya, Niderland, Avstriya və Kanada kimi ölkələrdə də anti-azərbaycan qətnamələr qəbul etməsi adi hala dönüb.

Maraqlıdır ki, Qərb anti -Azərbaycan addımlarını kəskin atdıqca Azərbaycan Respublikasının Prezident İlham Əliyev çox uzaqgörən siyasətlə və peşəkarcasına üzərimizə gələnlərin cavabını mükəmməl şəkildə verir. Prezident oktyabrın əvvəlində Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimində çıxışında ortaya qoydu: ”Üç il əvvəl biz əsas hədəfimizə nail olduq, 30 il ərzində pozulmuş ərazi bütövlüyümüzü bərpa etdik. Biz işğalın, etnik təmizləmənin qurbanı olmuşuq. Bu, bizim xalqımız üçün böyük faciə idi və böyük humanitar fəlakət idi. Biz uzun illər ərzində çalışırdıq ki, münaqişəni dinc yolla həll edək və işğala dinc yolla son qoyaq.

28 il ərzində danışıqlar prosesinə güclü sadiqliyimizi nümayiş etdirdiyimizi, lakin üç il əvvəl BMT-nin Nizamnaməsinə uyun olaraq özünümüdafiə hüququndan istifadə etdik. Biz 3 il bundan əvvəl ərazilərimizi işğaldan azad etdik, işğala son qoyduq. Ötən ay isə bütün ölkə ərazisində suverenliyimizi tam bərpa etdik”.

Prezident İlham Əliyev tədbirdə təəssüflə vurğuladı ki, münaqişəyə son qoymalı olan o beynəlxalq təşkilatlar bu istiqamətdə heç bir nəticə əldə etmədilər:”BMT-nin dörd qətnaməsi Ermənistan qonşularının ərazimizdən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edirdi. Lakin bu qətnamələr 27 il kağız üzərində qaldı. Biz şəhidlər verərək bu qətnamələrin icrasını təmin etdik”.

Bəli, Qərbin bu anti-Azərbaycan əhval-ruhiyyəsini dünya ictimaiətinin gündəmindən çıxarmaq üçün addımlar atmaq labüdləşir.ABŞ dövlət katibinin Cənubi Avropa və Qafqaz üzrə köməkçisinin müavini Coş Huk oktyabrın 15-dən 27-dək regionda səfərdə olacağı xəbəri yayıldı . Səfərin məqsədi yüksək vəzifəli şəxslər, işgüzar dairələrin və vətəndaş cəmiyyətinin nümayəndələri ilə bir sıra məsələləri müzakirə etməkdir.

Ötən gün - oktyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya məsələləri üzrə Bürosunda dövlət katibi köməkçisinin müavini Coşua Hakı qəbul etdi.

Görüşdə regionda sülhün və sabitliyin təmin edilməsi, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesi ətrafında fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyev Azərbaycanın regional sülh gündəliyi, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsi üzrə danışıqların davam etdirilməsi və tezliklə imzalanması ilə bağlı niyyətini bir daha ifadə edib. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

**Qeyd edək ki, Hukun proqramına Türkiyə, Azərbaycan və Ermənistana səfər daxildir.**

***P.S.* Ümid edirik, bu araşdırmalardan sonra beynəlxalq aləm məsələyə erməni prizmasından deyil, .gerçək bir prizmadan görməsi mümkün olacaq.**

**Əntiqə Rəşid**

# Türkiyə Cumhuriyyətinin Azərbaycandakı Böyük Elçisi Cahit Bağçı cənablarına



**Çox hörmətli Böyük Elçi!**

Bu gün Türk dünyası ən böyük tarixi gerçəkliyin qələbəsini qeyd edir. Bu qələbə Cümhuriyyətin 100 yaşıdır. Bütün tarixlərdə hər birimizin qəlbində yaşayacaq Böyük Atatürkün dünya coğrafiyasına Türkün gücü ilə həkk getdiyi Cümhuriyyət 100 ildir ki, öz varlığını qoruyub saxlayır və möhkəmləndirir.

Biz Sizinlə birlikdə bu Cümhuriyyətlə fəxr edirik və əminlik hissi ilə bildiririk ki, Türkiyə Cümhuriyyətinin prezidenti Rəcəb Tayyib Ərdoğanla Azərbaycan prezidenti İlham Əliyev cənablarının birlikdə həyata keçirdikləri dostluq və qardaşlıq siyasəti ”Bir millət, iki dövlət” olan Türkiyə və Azərbaycanın əbədiliyinə bir qarantdır. Bunu Qarabağ savaşında, eləcə də Türkiyədə həyata keçirilən antiterror əməliyyatlarında da, həmçinin, bugünki iqtisadiyyatımızda əldə etdiyimiz uğurlar da sübut edir.

**Sayın Böyük Elçi!**

Bir daha Cümhuriyyətin 100 illiyi münasibətilə Sayın Rəcəb Tayyib Ərdoğan başda olmaqla Türkiyənin hər bir sakinini, vətəndaşını və bütövlükdə dünya türklərini ürəkdən təbrik edir, 100 yaşınız mübarək olsun deyirik!

**Hörmətlə:**
**Aqil ABBAS,**
**millət vəkili**

## *Hərbi ekspert: “Fransanın bu addımı növbəti toqquşmaya...”*



**”Fransanın Ermənistana silah tədarük etməsi regionda mövcud olan kövrək və həssas atəşkəs rejimini yenidən alovanlandıra bilər”**

Bunu Adalet.az-a açıqlamasında hərbi ekspert Ədalət Verdiyev deyib. Hərbi ekspert Fransanın bu addımıyla regionda münasibətləri gərginləşdirdiyini bildirib:

”Heç bir halda regiona əlavə silah tədarükü Ermənistanın sülh müqaviləsi imzalaması üçün münbit şərait yaratmayacaq. Tam əksinə, bu, Ermənistanı bir qədər cəsarətləndirə və nəticədə növbəti toqquşmaya gətirib çıxara bilər. Fransanın Ermənistana müdafiə silahları adı altında hücum silahlarını verməsi də tamamilə mümkündür. Bu silahların Azərbaycanın Silahlı Qüvvələrinin şəxsi heyətinin həyat və sağlamlığına təhdid yaradacaq bir məsafədə yerləşdirilməsi isə Azərbaycanı prementiv tədbirlər görməyə vadar edə bilər.

İstənilən halda Fransanın Ermənistana tədarük edəcəyi silah sistemləri, hazırda Ermənistan və Azərbaycan arasında güc balansında olan fərqi qapatmağa imkan verməyəcək”-deyə ekspert bildirib.

## *Politoloq: “Əgər müharibə başlayarsa, bu Ermənistanın...”*

**”Fransayla Ermənistan arasında silah sazişi imzalanması təbii ki, regionda gərginliyi artıracaq və Azərbaycanla Ermənistan arasında sülh prosesinə mənfi təsir edəcək. Xüsusilə Fransanın burda Ermənistanı silahlandırması sülhə mane olmaq, regionda formalaşmış sülh və təhlükəsizliyin qarşısını almaqdır”**

Bunu Adalet.az-a açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib. Politoloq Fransanın qəsdən regionda bu cür addımlar atdığını bildirib:

”Çünki silah ticarəti uğrunda da mübarizə gedir. Fransa Ermənistana silah satışını həyata keçirməsi ilə bir növ silah bazarını genişləndirir. Həmçinin Ermənistan Azərbaycan və Türkiyəylə sülh müqavilə̇i bağlasa, Fransayla avtomatik olaraq əlaqələri zəifləyir və Türkiyənin Cənubi Qafqazda mövqeyi daha da inkişaf edir. Bu isə Fransa-Ermənistan əlaqələrinin demək olar ki, kəsilməsi deməkdir. Ona görə də Paris bundan narahatdır. Hazırda Fransanın Ermənistana silahlar göndərməsi düşünürəm ki, Ermənistan-Azərbaycan arasında aparılan danışıqlara çox ciddi mənfi təsir edəcək. Brüssel vasitəsilə üçtərəfli danışıqlar gözlənilir və Ermənistan tərəfinin Fransanın təhriki ilə silahlanma yolunu tutması növbəti təxribatlara əl atmaqla danışıqlarda müəyyən üstünlük qazanmağı da planlayır. Ona görə də Azərbaycan tərəfi daha da ciddi addımlar atacaq. Fransanın Ermənistanı silahlandırması Avropa İttifaqının Ermənistan və Azərbaycana silah satışı qadağasını aradan götürür. Bundan sonra Azərbaycan İtaliya, Böyük Britaniya, Çexiya, Slovakiya və digər Avropa ölkələri ilə silah ticarəti haqqında saziş imzalayacaq. Bu da Azərbaycana daha çox silah partiyalarının gəlməsi deməkdir. Azərbaycan Ermənistandan daha çox silahlanacaq və hərbi arsenalını böyüdəcək. Əgər müharibə başlayarsa, bu da Ermənistanın növbəti məğlubiyyəti deməkdir. Bir sözlə, Fransanın hazırkı Ermənistanla silah ticarəti postmünaqişə dövründə formalaşmış danışıqlar mühitinə yenidən zərbə vuracaq”.



## *“... Fransa Rusiyanın silah bazarına girir”*



**”Fransanın Ermənistana müdafiə adı altında silah-sursat və hərbi texnika satması əlbəttə ki, Ermənistan-Rusiya arasında münasibətlərin daha da gərginləşməsinə səbəb ola bilər”**

Bunu Adalet.az-a açıqlamasında politoloq Samir Hümbətov deyib. Politoloq Fransanın Ermənistana silah satmasının Rusiyanın qəzəbinə tuş gələcəyini bildirib: ”Çünki nəzərə almaq lazımdır ki, Ermənistan Rusiyayla hərbi müttəfiqlik münasibətlərinə malikdir. Belə olanda isə Fransa Rusiyanın silah bazarına girmiş olur. Hesab edirəm ki, Ermənistan-Fransa yaxınlaşması Rusiyada qıcıq yarada bilər. Düşünürəm ki, bu həm də Fransa-Rusiya münasibətlərində də müəyyən qədər gərginlik yaradacaq. Belə olan halda həm Rusiya-Ermənistan, həm də Rusiya-Fransa münasibətləri gərilə bilər. Hesab edirəm ki, bundan sonra o dövlətlər arasında əvvəlki münasibətlər olmayacaq. Bu o deməkdir ki, Fransa Rusiyanın silah bazarına girir”-deyə politoloq bildirib.

**Vasif Əlihüseyn**



Rüstəm Hacıyev

## "Özlərinə omac ova bilmirlər..."

**Lavrov  təcili atəşin dayandırılmasına çağırdı.**

**"Avroasiya təhlükəsizliyi" beynəlxalq konfransında çıxışı zamanı, Rusiyanın xarici işlər naziri Sergey Lavrov, Fələstin-İsrail münaqişəsi tərəflərini təcili atəşi dayandırmağa çağırıb.**

**"Rusiya, terror aktlarını qınamaqla yanaşı və digər beynəlxalq humanitar hüquqları və mülki əhaliyə zərər verən hərəkətlərə son qoyulması üçün təcili atəşin dayandırılmasına çağırır"-deyə rusiyalı diplomat bəyan edib.**

**Lavrov, həmçinin danışıqlar masasına əyləşməyi və 75 il bundan  əvvəl söz verilmiş müstəqil Fələstin dövlətinin yaradılmasını təklif edib.**

**Görəsən cənab Lavrov bu ağıllı məsləhətlərini illərdi Ukraynanın ərazilərini işğal edib, hazırda da Ukraynada iki ilə yaxındı qanlı müharibə aparan prezidrnti Vladimir Putinə niyə etmir. Yoxsa Rusiyanın Ukrayna ərazilərində törədiyi əməllər beynəlxalq humanitar hüquq qaydalarını pozmur və ya yerli əhaliyə zərər vetmir?**

**Dünya ictimayyəti və beynəlxalq qurumlar illərdi Rusiyaya atəşi datandırmağı, qoşunlarını Ukrayna torpaqlarından çıxarmağı tələb edir, lakin Lavrovun təmsil etdiyi Rusiya bütün bunları qulaq ardına vurur.**

**Ataların sözü olmasın, "özünə omac ova bilməyənin, başqasına əriştə kəsməsi" nə dərəcədə düz hesab oluna bilər?**

## Aqil Abbas: "Ermənilər əvvəlcə talan edib dağıtdığı 14 rayonun təzminatını ödəsin..."

**"Azərbaycan Ermənistana təzminat ödəməlidir" fikri əslində ermənipərəst Qərb dövlətlərinin, xarici ölkələrdəki erməni diasporunun, əsassız şəkildə Qarabağı tərk edən ermənilərin axınından başını itirmiş Ermənistan hakimiyyətinin Azərbaycana təzyiqindən başqa bir şey deyil".**



Bu sözləri millət vəkili Aqil Abbas Adalet.az-n mövzu ilə bağlı sualları cavablandırarkən deyib. Deputat bildirib ki, "ermənilərə təzminat ödənilməsi" fikri kökündən absurd bir fikirdir: Azərbaycan dövləti ermənilərin yaşadığı nə bir şəhəri, nə bir kəndi, nə də bir evi dağıdıb. Amma ermənilər Azərbaycanın 14 rayon və minlərlə kəndini yerlə yeksan edib. Maraqlısı odur ki, Qarabağ ərazisində 70 məsciddən 67-nin tamamilə məhv edilməsini, yüzlərlə mədəniyyət tikililərinin, məktəblərin, muzeylərin yer üzündən silinməsini görməzdən gələn AP üzvləri Azərbaycanda ermənilərin qondardığı yalanı dəstəklədi, guya bizim tərəfimizdən dağıdılan "erməni mədəni irsini" qorumasını tələb etdi. Avropa Parlamenti ermənilərin verdiyi saxta məlumatları araşdırmadan, yerində öyrənmədən Azərbaycana qarşı belə bir əsassız, ədalətsiz tələb irəli sürdü. Amma məlumdur ki, hər bir iddia yoxlanılmalı, əsaslandırılmalı idi".

Deputat heç bir təzyiq və təhriklərə məruz qalmayan ermənilərin dinc və öz istəklərinə rəğmən Qarabağı tərk etməsi Azərbaycana qarşı qərəzli dairələrin əlinə "əsas" kimi keçdiyini deyir: Dövlətimiz dəfələrlə təklif etdi ki, ermənilər Qarabağı tərk etməsinlər, qalsınlar, Azərbaycan vətəndaşı olaraq imtiyazlardan istifadə etsinlər, rahat yaşasınlar.Əgər erməni könüllü Qarabağdan gedibsə, bunun müqabilində "təzminat" istəməyə heç bir haqqı- hüququ yoxdu. Azərbaycan onların geri dönməsinə də şərait yaradır. Gəlsinlər, yaşasınlar". A. Abbas onu da vurğulayıb ki, təzminat tələb edəcək biri varsa, o da Azərbaycan dövlətidir: "30 ildən çoxdur ermənilər ərazilərimizdə daş üstə daş qoymayıb.1 milyon insanın evini dağıdıb.Bununla bağlı komissiya yaradılıb, dəymiş ziyanın məbləğinin hesablanması hələ də davam edir. Bu proses başa çatdıqdan sonra əlbəttə ki, beynəlxalq məhkəməyə müraciət edərək işğalçı Ermənistan tərəfindən təzminatın ödənilməsini tələb edəcəyik. Düzdür, Ermənistanın o təzminatı ödəyəcək gücü yoxdu, amma ortada Almaniya - yəhudi təcrübəsi var. Yəni Almaniya indi ki dövrə qədər yəhudilərə təzminat ödəyir. Ermənistan da əziyyət çəkər Azərbaycanın təzminatını ödəyər." -deyə deputat bildirib.

**Qeyd edək ki, Qarabağı könüllü olaraq tərk etmiş ermənilərin təhriki ilə Ermənistan Azərbaycandan təzminat tələb etməyə başlayıb. Bununla bağlı Ermənistan beynəlxalq təşkilatlardan dəstək istəyir.**

**Əntiqə Rəşid**

Məzahir ƏHMƏDOĞLU

## SPARTAKiada



***Müəllifdən: Sırağagünkü qəzetlərin birində oxuyuram ki, hazırda planetimizdə 27 milyon (!!!) kölə var. Lənət Şeytana! Axı bu tükürpədən məlumatla mən neçə il bundan əvvəl rastlaşmışdım. Bu dəhşətli xəbərin qeyri-adiliyinə və həm də heyrətamiz rəqəmin dəyişilməzliyinə münasibət bildirmək istədim. Yadıma düşdü ki, elə o vaxt bu 27 milyon qul məsələsi ilə əlaqədar yazmışam...***

***

**Bu günlərdə rəsmi xəbər agentliklərinin çox qəribə bir məlumatı yayılmışdı. Qəzetlər yazırdılar ki, planetimizdə 27 milyon(!!!) nəfər qul qeydə alınıb. Düzdür, bu qulların ayaqları və qollarının zəncirli, burunlarının sırğalı və damğalı olmaları barədə heç nə deyilmir. Hər halda ekzotik hadisə və ya görüntü də deyil. Qulun nə olduğunu, hansı məna daşıdığını tarix dərslərinə orta səviyyədə diqqət yetirən adi məktəbli də bilir, formasiya ayrıca bölmə kimi şərh edilir. Yəni quldarlıq dövrü bizdən min illərlə uzaqlarda qalsa da müəyyən məqamlarda xatırlanaraq yada düşür. Bu, vəziyyətin bizi qane edən tərəfidir. Ancaq dərinə getdikdə bir məsələni də nəzərə almalı olursan ki, bəziləri tarixin bu ən amansız quruluşu haqqında normal bilgiyə malik olmayıb, çox şeyi, eləcə həmin məlumatı da zarafat kimi qəbul edər. Bu səbəbdən də o ilginc xəbərə "çox ciddi şəkildə" münasibət bildirəcəm.**

**Quldarlıq quruluşu, məlumdur ki, insanın insan tərəfindən istismarına əsaslanan ilk sinifli ictimai- iqtisadi formasiya olub. Bundan əvvəllərə qədər isə, yəni eramızdan əvvəl beşinci-dördüncü minilliklərdə köləlik kəşf olunmamışdı. Tayfalar, qəbilələr, bəlkə də tarixə məlum olmayan hansısa dövlətkimilər təbiət hadisələri ilə, eyni zamanda qarın doyurmaq uğrunda mübarizələr aparırdılar. Təbii ki, ov və meyvələr üçün münbit ərazi, həmçinin yaşayış məskənləri  üçün daha əlverişli və təhlükəsiz yerlər  uğrunda döyüşlər, müharibələr də olurdu. Ən qısa döyüşlərdə belə tərəflərdən biri və ya hər ikisi itkilərlə bərabər, əsirlər də verirdi. Bunlar qaçılmaz idi. Bilmirdilər neyləsinlər. Lap əvvəllər əsirləri  bişirib yeyirdilər. Əsasən də öldürürdülər. Qədim insanların, sevimli əcdadlarımızın ağlına gələndə ki, əsirlərin əməyindən istifadə etmək onlara fayda verər, hətta alıb-satarlar da, quldarlıq quruluşunun başlanğıcı qoyulmuşdu. Qulların böyük əksəriyyətindən təbii ki, əzələ enerjisi kimi istifadə olunurdu. Ancaq quldarlıq quruluşunun klassik nümunəsi hesab olunan Qədim Roma  imperiyası kimi daha çox inkişaf etmiş dövlətlərdə zehni əməklə məşğul olan qullar təbəqəsi də var idi.**

**...İndi nə Mesopotamiya var, nə də Qədim Misir, Qədim Yunanıstan, Qədim  Roma... Quldarlıq quruluşunun dağılıb tarixə qovuşmasından da 1500 ilə yaxın  uzun bir zaman keçib. Oturub adi hesablamalar aparanda görürsən ki, o vaxtlar  bəşəriyyətə məlum olan insan məskənlərində üst-üstə  2-3 milyon qul ola, ya olmaya. İndi isə 27 milyon! Düzdür,  planetin əhalisi də yüz illər boyu xeyli artıb,  çoxalıb. Elə ölkələr var ki, kosmosdan baxanda qarışqa yuvasını xatırladır. Bütün hallarda yenə də 27 milyon qulun mövcudluğu qorxulu faktdır. Birdən "O" qayıtmış, gəlmiş oldu? Adamın hərdən sadəlövh damarı da tutur ey. Yoxsa tarixçilərimiz bizə atıblar, quldarlıq quruluşu hələ tam dağılmayıb? Demirlər ki, filan yerdə hələ də feodalizm qanunları  hökm sürür? Bəlkə quldarlıq da eləcə...**

**Başqa şübhə və nümunələr də var ki, mübahisələr aparmağa yol açır. Məsələn,  quldarlıq quruluşunun süqutundan, eramızın   V əsrindən  sonra tarix meydanına çıxmış germanlar, slavyanlar və bir sıra digər xalqlar quldarlıq quruluşunu keçmədən ibtidai icma quruluşundan birbaşa feodalizmə adlamışlar...**

**Dayan bir! Bəlkə bu 27 milyon qul dedikləri romalılara əsir düşmüş həmin o cəsur  frakiyalının törəmələridir,  artıb-çoxalıb, yayılıblar  yer üzünə? Yadınızdadırmı, eramızdan əvvəl 74-cü ildə Kapuya şəhərindəki qladiator məktəbində Spartakın başçılığı ilə möhtəşəm qullar üsyanı başlamışdı. Hələ onlara bir çox  qaçqın qullar, icarədar kəndlilər də qoşulmuşdu. O dövrlər üçün ciddi hərbi  intizama malik olan Spartak ordusunun  maksimum 70 min nəfər döyüşçüsü olardı. Ancaq Roma imperiyasını lərzəyə salmışdı. Senat Spartakın üzərinə məşhur konsulların başçılıq etdiyi nizami orduları göndərirdi. Spartak e.ə. 72-ci ildən başlayaraq Lentulun, Gellinin, Kassinin qoşunlarını böyük itkilərlə məğlubiyyətə uğratmışdı. Spartak Siciliyaya  keçmək istəyirdi...**

**...İndi nə Siciliyaya, nə Pompeyə, nə də... Tora-Bora kahalarına ehtiyac var. Artıq bu cür düşüncələr, eləcə də Covanyolinin, Yanın və başqalarının əsərlərini təkrar oxumaq da, Hollivud şedevrlərinə tamaşa etmək də sən deyən ciddi maraq doğurmur.  İndi tamam başqa, yeni bir  Spartak lazımdır.  Əsl adı Tom olsun, Samandra olsun, lap elə Mehrabalı olsun, fərq etməz. Yığsın başına həmin o binəva insanları, yürüş etsin demokratiyanın "mərkəzi bazarına" doğru.**

**27 milyon ey! Gör BMT-nin binası və bütün Nyu-York necə lərzəyə gələcək. Ağlı, qaralı, sarılı - bütün demokratiya oyunçularını kəllə-mayallıq eləyib... quldarlıq quruluşunun birdəfəlik ləğv olunmasını rəsmən təsdiq edəcəklər. Ağzında min illərdən qalma qul deyirsən. Məsələ bitdikdən sonra dilə yatdı-yatmadı o qəhrəmanın adına romanlar, baletlər yazılacaq, filmlər  çəkiləcək, yeni xalq komandaları, həmkarlar ittifaqları yaradılacaq. Bu qəhrəman hər kim olacaqsa, durmasın, cəld tərpənsin...**

## Əminə Ərdoğan müharibədən əziyyət çəkən fələstinli uşaqlara yardım əlini uzatdı



**Ailə və Sosial Xidmətlər naziri Mahinur Özdəmir Göktaş Fələstinli nazirlərlə onlayn görüş keçirib.**

Adalet.az xəbər verir ki, görüş zamanı Göktaş  Əminə Ərdoğanın himayəsi altında İsrailin hücumları nəticəsində yaralanan və ya yetim qalan uşaqların Türkiyəyə gətirilməsi, müalicəsinin təmin edilməsi və hücumlar bitənə qədər himayə altına alınması üçün hərəkətə keçmək istədiklərini bildirib. M. Ö. Göktaş sosial media hesabındakı paylaşımında bu gün Fələstin nazirləri ilə onlayn görüş keçirdiyini bildirib. Qəzzada baş verən humanitar faciə və mülki şəxslərə qarşı hücumlarla bağlı həmkarlarına dərin narahatlığını və kədərini ifadə edib.

**Vasif Əlihüseyn**

## Əhməd İsmayılov Menderes Dəmirlə görüşdü



**25 oktyabr 2023-cü il tarixində Medianın İnkişafı Agentliyində ölkəmizdə səfərdə olan Türkiyə İnternet Media Birliyinin sədri Süleyman Basa və sədr müavini, Türk Dünyası Jurnalistlər Federasiyasının sədri Menderes Dəmir ilə görüş keçirilib.**

Adalet.az xəbər verir ki, görüşdə Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanından irəli gələrək ölkəmizdə media sahəsində həyata keçirilən islahatların mahiyyəti, "Media haqqında" Qanunun məqsədləri, media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin peşəkarlığının, məsuliyyətinin və cəmiyyətin media savadlılığının artırılması istiqamətində görülən çoxşaxəli və kompleks tədbirlər haqqında geniş məlumat verib, Türkiyə-Azərbaycan media platforması çərçivəsində ölkələrimiz barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasının vacibliyini vurğulayıb.

Türkiyə İnternet Media Birliyinin sədri Süleyman Basa isə təşkilatın fəaliyyəti barədə ətraflı məlumat verib, müştərək layihələrin reallaşdırılması istiqamətində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin qurulması məsələlərinə toxunub, həmçinin perspektivdə dayanan planlara diqqət çəkib.

Görüş zamanı türk dövlətlərinin media sahəsində əməkdaşlığının gücləndirilməsi ətrafında qarşılıqlı fikir mübadiləsi aparılıb.

## ABŞ İranı hədələdi



**BMT Təhlükəsizlik Şurasının Yaxın Şətülə bağlı keçirilən icasında, ABŞ-ın dövlət katibi Entoni Blinken İranı İsrail-Fələstin münaqişəsini qızışdıtmaqda günahlandırdı.**

"Birləşmiş Ştatlar İranla münaqişəyə can atmır. Biz bu müharıbənin əhatəsinin genişləndiriməsini isyəmirik. Lakin İran və yaxud onun tərəfdarlatından hər hansı biri amerkanlara hücum edərsə, biz xalqımızı, ölkəmizin təhlükəsizliyini tez və qətiyyətlə qoruyacağıq"-deyə Blinken bəyan edib.

Entoni Blinken daha əvvəl də bəyan etmişdi ki, Yaxın Şərqdə təhlükə İran tərəfdatları tərəfindən gəlir, lakin Vaşinqton buna hazırdır: "Biz İran tör-töküntülərinin bizim şəxsi heyyətimizə qarşı təxribatlar törədə biləcəyindən narahatıq"

## İlyas Yaqubov terroru təbliğ etdiyinə görə saxlanıldı



**Rusiyanın hüquq mühavizə orqanları, MMA döyüşçüsü İlyas Yaqubovu açıq şəkildə terroru dəstəklədiyinə görə, Moskva şəhərində həbs edib.**

Bu batədə məlumat verən Rusiya İstintaq komitəsinin Moskva şəhəri baş istindaq idarəsindən bildirilir ki, günahlandırılan idmançı 2023-cü ilin oktyabr ayında terror hərəkətinin həyata keçirilməsinin vacibliyi ilə bağlı video çarx hazırlayıb və  Rusiya  ərazisində yayımı qadağan edilən sosial şəbələdə yayımlayıb. Yaqubovun həbs olunmasında əsas səbəb kimi, Beslanda terror əməlini həyata keçirən Şamil Basayevin o vaxtki  çıxışını, hazırladığı video çarxda nümayiş etdirməsi olduğu göstərilir.

**Rüstəm Hacıyev**

## Qarabağ ermənilərinə "qaçqın" statusu verildi: Bunun mənfi və müsbət tərəfləri

**Ermənistan hökuməti Qarabağı tərk etmiş erməniləri rəsmən "qaçqın" olaraq tanıdı.**

Məsələyə aydınlıq gətirən Ədliyyə naziri Qriqor Minasyan qeyd edib ki, müvəqqəti mühafizəyə götürülmək və qaçqın kimi tanınmaq üçün Qarabağ erməniləр 3 əsasa görə təyin edilib

**1)** Qarabağda əhalinin reyestrində qeydiyyatda olan şəxslər; (Yəni sovet dönəmi vaxtlarından orda yaşayan yerli ermənilər-red-ƏR)

**2)** Ermənistan Respublikasının ərazisində və ya Ermənistan Respublikasının hüdudlarından kənarda yaşayan, son qeydiyyat ünvanı Qarabağ olan şəxslər; (1988-ci il fevral ayından sonra - Qarabağda qondarma artsax hökümətinin yaranmasından sonra əhalinin sayını artırmaq məqsədilə ora yerləşdirilən ermənilər. Bu proses işğal dövründə daha fəal olub- red-Ə.R)

**3)** Qarabağın erməni əhalisinin reyestrində qeydiyyata alınmayan, lakin Dağlıq Qarabağda yaşamış və Azərbaycanın Dağlıq Qarabağa qarşı 2023-cü il sentyabrın 19-dan başlatdığı hərbi əməliyyatlar nəticəsində məcburi köçkün düşərək Qeydiyyat Xidməti tərəfindən qeydiyyata alınmış şəxslər. (Məlumdur ki, sonuncu qrup şəxslər Ermənistan hökümətinin Livan, Suriya, İraq ərazisindən Qarabağa gətirərək, onlara qəsəbələr tikib məskunlaşdırdığı ermənilər



nəzərdə tutulur). Layihədə, həmçinin müvəqqəti himayə olunmuş qaçqının şəxsiyyətini təsdiq edən sənədin təsvirinin və sənədin verilməsi qaydasının təsdiq edilməsi təklif edilir. Ədliyyə naziri vurğulayıb ki, layihənin qəbulu nəticəsində onların hüquq və qanuni mənafelərini qorumaq məqsədilə Dağlıq Qarabağdan məcburi köçkünlərin müəyyən böyük qrupunun müvəqqəti mühafizəyə götürülməsinə imkan yaradılacaq.

Qeyd edək ki, Ermənistanın bütün media və rəsmi orqanları indiyənə qədər Qarabağı könüllü tərk etmiş erməniləri "məcburi köçkün" kimi qeyd edirdilər və bu qeydi dünya mediası da bu cür işlədirdi. Bu o demək idi ki, Qarabağ Ermənistan ərazisidir və əhali ölkənin bir hissəsindən digər hissəsinə köçmək məcburiyyətində qalıb. Daha dəqiq köçkünlər ölkə ərazisində daimi yasayış yerini tərk etməyə məcbur olub, başqa yerə köçən şəxslərdir.Sətiraltı Qarabağı Ermənistan kimi görürdülər.

Amma "qaçqın" "köçkün"dən fərqlidir. Qaşqın vətəndaşı olduğu ölkədən kənarda qalan və həmin qorxu üzündən bu ölkənin himayəsindən istifadə edə bilməyən və ya istifadə etmək istəməyən və yaxud müəyyən vətəndaşlığı olmadığı halda öz daimi yaşadığı ölkəsindən kənarda qalan, həmin qorxu üzündən oraya qayıda bilməyən və ya qayıtmaq istəməyən şəxsdir. Sadələşdirilmiş şəkildə deyək ki, ermənilər başqa ölkənin Azərbaycanın ərazisindən "qaçanlar" kimi nəzərdə tutulub, qeydiyyata alınacaq. Bu format atıq Qarabağın Azərbaycana məxsus olmasını şüuraltı olaraq həm ermənilərdə, həm də ermənipərəstlərdə təsdiqləyir.

Son olaraq, əslində ermənilərə "Qaçqın"statusunun verilməsi də beynəlxalq ictimaiyyət tərəfində düzgün qiymətləndirilməlidir. Araşdırılmalı, neçə erməni zorakılığa , iğala, təcavüzə, deportasiyaya məruz qalıb. Həkəri sərhəd keçid məntəqəsində heç bir erməni "Azərbaycanlılar məni getməyə məcbur etdilər, işğəncə verdilər, evimi qarət etidib məni aşağıladılar və mən bunun üçün qaçmaq məcburəyyətində qaldım" cümləsi işlətməyib. Azərbaycan dövləti geri qayıtmaq istəyən ermənilər üçün hər bir şərait yaradacağına söz verib və bunun üçün onlayın "qaynar xətt" yaradıb.

**Uzun sözün qısası, "Qaçqın" statusunun da tez bir zamanda iflasa uğrayacağı indidən bəllidir.**

**Ə. Rəşid**

**Bu gün səhər tezdən ilk gözümə dəyən xəbər Fransa Prezidenti Emmanuel Makronun İsraili qınaması, onları yanlış yolda olmasını deməsidir.**

Deməli, Yaxın Şərq regionunda səfərdə olan Makron deyib ki, İsrailin Qəzza zolağında genişmiqyaslı quru hərbi əməliyyatı yanlış olardı: "Bu, İsrail üçün səhvdir, çünki o, İsrailin uzunmüddətli müdafiə strategiyasına uyğun gəlmir və mülki əhalinin müdafiəsi, beynəlxalq humanitar hüquq və müharibə qaydaları ilə uzlaşmır".

Əslində üzdən baxsan, dərinə getməsən, düşünərsən ki, bir dövlət başçısının sivil, dinc insanların ölməsinə insani yanaşmadır, qırğının qarşısını alma cəhdidir.. Bəli, diqqətlə fikir verməsən, Makronu alqışlamaqda olar!

Amma diqqətlə fikir versən, bilərsənki, yarandığı gündən dövlət xətti, ideyası müstəmləkəçilik

Təbii ki, fransızların bölgəyə köç etməsi əlcəzairlilərin işsizliklə bağlı çətinliklərini daha da artırdı. Bu vəziyyət Əlcəzairdən Fransaya tərsinə bir köç hərəkəti başlatdı. Fransızlar əslində beləcə istədiklərini əldə etməyə başlamışdı.

I Dünya Müharibəsində sonra Əlcəzairdə fransız istilasına qarşı milli mübarizə başladı. Bu mübari-

problemləri beyinləri davamlı şəkildə məşğul edirdi. Kişilər, bəzən də qadınlar həbs olunur və daha sonra onlardan heç bir xəbər olmurdu. Cəsədlərinin daş bağlanaraq dənizə atıldığı bilinirdi. Saylarının 3 mindən artıq olduğu irəli sürülürdü, amma Əlcəzair bələdiyyə başçısı Jacques Chevallier, 5 mindən artıq bir rəqəmdən bəhs

ört-basdır etmək üçün 1.5 milyon insanı qətlə yetirən Fransa rəhbərliyi, bu tətbiqi əsnasında tək deyildi. Dünyadakı hər cür İslami addımı özünə qarşı təhdid sayan İsrail rəhbərliyi, Əlcəzair qiyamını yatırtmaq üçün fransızlara böyük dəstək vermişdi.

Nəhayət, 1962-ci ilin sentyabrında Əlcəzair Xalq Demokratik Respublikası elan edildi. Fransanın 1960-1978-ci illərdə Əlcəzairdə sınaqdan keçirdiyi 17 atom bombasının radioaktiv təsiri hələ də bu ölkəyə zərər verməkdə davam edir.

Yeri gəlmişkən, bu təfəkkürə sahib Makron ötən il Qarabağ üçün 15 maddədən ibarət işğal planı hazırlayıb və bu baradə Avropa İttifaqına (Aİ) üzv dövlətlərdən dəstək istəyib. Maddələrdən biri isə belədir: "Fransa 2 min hərbçi ilə qondarma sülhməramlı qüvvə adı altında Qarabağa daxil



## Əlcəzairə 17 atom bombası atan, 5 milyon insanı qətl edən Fransadan İsrailə: "Yanlışdır..."

olan, inkişaf etməmiş ölkələri işğal edib , vətəndaşlarını kütləvi şəkildə öldürən, heç bir günahı olmayan əhalini vəhşicəsinə işğəngələrə məruz qoyan, 100 illərlə siyasəti başqa xalqları əsarətdə saxlamaq olan bir dövlətin mövqeyindən danışan ölkə başçı dediyi sözlərlə beynindəki, təfəkküründəki işğalçılığın üstünə örtməyə çalışır. Daha doğrusu, öz dövlət xəttinin nələrə bais olduğunu gizlətmək üçün başqalarını "sülh quşu" qismində tənqid edir.

Görəsən, Fransanın 132 il Əlcəzairdə etdiyi vəhşilikdən Makronun xəbəri yoxdurmu?

Məlumat üçün oxucularımıza bildirək ki, Fransa 1830-cu ildə Əlcəzairi işğal etdi. 1962-ci ildə Əlcəzair müstəqilliyini qazanana qədər Fransa Əlcəzairi fransızlaşdırmaq üçün bir asimilyasiya prosesi gerçəkləşdirdi.

Məqsəd bir fransız Əlcəzairi yaratmaq idi. 19-cu əsrin sonlarında 1 milyona yaxın fransız Əlcəzairə yerləşdirildi. Bu ölkəyə köçürülən fransızlar əhəmiyyətli imkanlarla təmin edildi.

zənin öndərliyini isə Şeyx Abdullah Ben Badis edirdi. Şeyx Abdullahın bu ifadələri Əlcəzair mübarizəsinin şüarı oldu: "İslam mənim dinim, ərəbcə mənim dilim və Əlcəzair mənim vətənim".

Şeyx Abdullaha qarşı Fransanın reaksiyası çox sərt oldu. Onu həbs etdilər. Məscidlərdə azan verməsi qadağan edildi. Beləcə fransız işğalçıları bu mübarizəni beşikdə boğmağa çalışdı və bacardı.

II Dünya müharibəsindən sonra Fransız ordusu dəfələrlə havadan və qurudan bölgəyə hücum təşkil etdi. Bir neçə gün davam edən bu hücum nəticəsində 45 min əlcəzairli həyatını itirdi. Bu qırğın Əlcəzairdə yeni bir zamanı başlatdı. Əlcəzair Qurtuluş Təşkilatı adıyla ortaya çıxan bir qrup həm siyasi, həm də əsgəri olaraq mübarizəyə qalxdı. 31 oktyabrda 1954-cü ildə Əlcəzairdə Fransaya qarşı böyük bir qiyam başladıldı.

Dövrün "La Croix" jurnalı müxbirlərindən olan Jacques Duquesne işgəncələr haqqında belə yazır: "İşgəncə və insanların itməsi edirdi. Fransız əsgərlərin təzyiq və sındırma üsullarına namusa təcavüz və kəndləri tamamilə məhv etmək kimi əməlləri də daxil idi. Bir əsgərin söylədiyinə görə, həkim kimi işlədiyi hərbi hissədə demək olar ki, gün ərzində işgəncəyə məruz qalmış şəxsləri müalicə edirmiş.

Demək olar ki, hər yerdə ən çox tətbiq olunan işgəncə üsulu isə, qadınların cinsi orqanları da daxil olmaqla bədənin hər yerinə elektrodlar yerləşdirilərək cərəyan vermək idi.

Digər işgəncə üsulları isə insanı yox etmək məqsədi daşıyırdı. Qurbanın ya xortumla ağzının içinə su vurulur, ya dırnaqları çıxarılır, ya başı su dolu ləyənə salınır, ya da ayaqları çətinliklə yerə dəyəcək şəkildə saatlarla biləklərindən asılı saxlanması təmin edilirdi. Bu hələ işgəncə üsullarından bəziləridir. Bütün bunları yazmaq asan deyil. Mən bildiklərimin yalnız çox az qismini söylədim."

1954-cü ildən 1962-ci ilə qədər davam edən müstəqillik mübarizəsi əsnasında, Əlcəzair qiyamını olmaq planları qurub və pilot bölgə kimi hələ də işğal altında olan Xankəndi şəhərini seçib. Rusiyanın Ukraynada zəifləməsi, Makronun Qarabağdakı işğal planının əsas hissəsini təşkil edir.

Qərb dövlətlərinin hesablamalarına görə, Ukraynada zəifləyən Rusiyanın Ermənistan və Qarabağdakı siyasi, hərbi və iqtisadi mövcudluğu sona çatacaq. Fransa bir tərəfdən Ermənistandakı, xüsusən də Gümrüdəki Rusiya bazalarını ələ keçirməyi, digər tərəfdən isə 2000 əsgərlə Qarabağa girməyi planlaşdırır".

İndi siz deyin, işğalçı, müstəmləkəçi, qatil, etnik, irqi və dini baxımdan başqa xalqa qarşı soyqırım etmiş Fransanın, eləcə də, onu təmsil edən prezident Makronun bir başqasını qınamağa haqqı çatırmı?

***P.S. Düşünürəm ki, əlcəzairlilərin ABŞ kimi bir dayısı olsaydı  Fransa çoxdan onlara təzminat ödəməyə başlayardı...***

**Əntiqə Rəşid**

## Professor: "Çox sevinirik ki, bu cür tarixi hadisələrin iştirakçısıyıq..."

**"Əlbəttə, gözəl hündür. Bəzən hissləri sözlərlə ifadə eləmək mümkün olmur. Amma fakt ondan ibarətdir ki, Azərbaycanın işğal altında olan rayonlarının azad olunması tarixi bir hadisədir. O cümlədən də Zəngilanın, ondan əvvəl Füzulinin, Cəbrayılın, Qubadlının, Ağdamın, Şuşanın işğaldan azad edilməsi. Bütün bunlar hamısı tarixi hadisələrdir"**

Bunu Adalet.az-a açıqlamasında professor Qulu Məhərrəmli Zəngilan şəhərinin işğaldan azad olunmasının üçüncü ildönümü haqda danışarkən deyib. Q.Məhərrəmli daha sonra bunları əlavə edib:

"Mənə elə gəlir ki, şəhər günlərinin keçirilməsi şərtidir. Amma eyni zamanda o yaddaşımıza belə bir informasiyanı ötürür ki, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan bu günki quruculuq işləri ölkəmizin coğrafiyasının sərhədlərinin daha da genişlənməsi deməkdir.

Zəngilanda çox maraqlı təbiət var, bir tərəfdən İranla, o biri tərəfdən Ermənistanla qonşu olan rayondur. Strateji nöqtədə yerləşir, çoxlu təbii ehtiyatları, tarixi abidələri var, Avropada ən böyük çinarlıq meşəsi Zəngilandadır.

O baxımdan əlbəttə ki, 20 oktyabr bizə bir köynək də yaxındır. Uşaqlığımız orda keçib, o adla, mühitlə qürurlanmışıq, böyümüşük. İnsan yaşlandıqca, ilkin yaddaşı çox aktiv, həssas olur. Ona görə əcdadlarımızın yaşadığı, dünyaya gəldiyimiz məkan olaraq Zəngilan bizə əlbəttə ki, tamam başqa informasiya verir. İndi 8 noyabr yaxınlaşır.

Hesab edirəm ki, bütün azərbaycanlılar bu gün zəngilanlı olduğumuz kimi, hamımız şuşalı oluruq. Vətənimiz üçün eyni avazla, intonasiya ilə alqışlar deyirik. Bu fürsəti yaradan, tarixi işi görən Azərbaycan Ordusuna, əsgərinə, zabitinə, Ali Baş Komandana, bütün ordu komandanlığına minnətdarıq. Ümumiyyətlə, bu ciddi tarixi bir yaddaşdır və çox sevinirik ki, bu cür tarixi hadisələrin iştirakçısıyıq".

**Vasif Əlihüseyn**



*Eminquey*

# Ələbaxan qadınlar

***Ailəni kişi qurur, ya qadın?***

***Təbii ki bu müştərək prosesdir. Yoxsa, heç kim nikah masasına oturmazdı.***

***Demək ki, ömrün bir dönəmində artıq qadın bir kişi ilə, kişi də bir qadın ilə həyat yoluna birlikdə davam etmək istəyir. Ailə hər şeydən əvvəl yol yoldaşına duyulan ehtiyacdır.***

***Bu ehtiyacların içində sevgi, hörmət, qayğı, dəyər və s. kimi ölməyən ehtiyaca çevrilmiş hisslər var. Bu ehtiyacların içində bir psixoloq xanımın "emosional ehtiyac" dediyi üç minlik telefon ehtiyacı da var, amma...***

***Bu ehtiyac da digər ehtiyaclar kimi birlikdədir, müştərəkdir.***

***Sevgi göstərirsən, sevgi görürsən, hörmək edirsən, hörmət görürsən, qayğı göstərirsən, qayğı görürsən. Bu ehtiyaclar pulla alınmadığı üçündür o "amma".***

***Ailə bir yuvanı birlikdə inşa etməkdir.***

***"Pulu kişi qazanar, ev işlərini qadın görər" kimi bölgülər varsa, o ailə deyil. Mən barmaqsayı ailələr tanıyıram, əgər kişinin işi varsa, evdə deyilsə və evdə məsələn, su kranı xarab olubsa, qadının əlindən onu düzəltmək gəlirsə, düzəldir. Gülməli deyil, həqiqətən deyirəm. Bu ailə üçün verilən əməkdir.***

***O cümlədən də, evin maddi tələbatlarını kişi də, qadın da işləməklə ödəyirlər. Bu, fövqəladə vəziyyət deyil, ailənin normal strukturudur. Bizim kimi cəmiyyətlərdə qadının işləməyi faciə, işləyib kişidən çox maaş almağı beş qat faciədir.***

***Niyə?***

***Qadın və kişi bu ailəni müştərək qurur. Bu ailənin istənilən problemi hər iki fərdi maraqlandırmalı və hər iki fərd bu problemlər üçün çalışmalıdır da. Burada qeyri-adi nə var?***

***Məsələn, kişi müəllimdir. Maaşı maksimum 800 manatdır. Qadın isə gözəllik salonunda işləyir. Aylıq qazancı 2000 manatı ötür. Kişinin hal-hazırkı potensialı 800 manat, qadınınkı isə 2000 manatdır. Nə edək? Biri dövlət sektorudur, digəri isə özəl. Kişinin 800 manat qazanması niyə ayıb olsun ki?! Adam sənətilə halal pul qazanır.***

***Bu halda, niyə qadının "emosional ehtiyacı" olan 3000-lik telefonu kişi almalıdır? Niyə bu vacibat, hətta ailənin taleyini həll edən bir zad olmalıdır?***

***Qadınlar var ki, kişinin maaşı istirahətə, gəzintiyə imkan vermədiyi üçün qadın bunu çox normal qəbul edir və gülümsəyərək "eybi yox, mən səni apararam" deyib həyat yoldaşının boynunu qucaqlayır.***

***Burada ayıb nə var axı?!***

***Qadınlar bu cür "ələbaxan" təfəkkürdə böyüdüyü üçün ailə məsələlərində də qərarsız olurlar. Maddi baxımdan ayaqları üstdə durmayan, 3 minlik ehtiyacının ödənməsini kişidən gözləyən qadın elə boşansa yaxşıdır.***

***Boşanıb nə edəcək?***

***İş tapacaq?***

***Əlini ağdan-qaraya vuracaq?***

***Yox, 3 minlik telefon alan bir imkanlı ər tapıb ömrünü qoyun kimi ələbaxan sürməkdə davam edəcək. Sonra da bir gün Xoşqədəmin verilişinə çıxıb zarıyacaq ki, ərim məni aldatdı, ərim məni döydü, ərim məni əzdi.***

***Bədbəxtin balası, sən üç minlik ehtiyacın ödənəndə artıq əzilmisən.***

***Ona görə yox ki, kişi sənə üç minlik telefon alıb, ona görə ki, qoyun kimi çomaqdan asılısan.***

## *"İnsanın immunçatışmazlığı virusu"ndan (İİV) özünü qoru*



**"İnkişaf-2006" Sosial Dəstək İctimai Birliyi Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən maliyyələşdirilən "İİV-dən özünü qoru" adlı layihəsi çərçivəsində oktyabrın 5-də Şəki şəhərində növbəti maarifləndirmə sessiyası keçirib.**

Sözügedən layihənin əsas ideyası əhali qrupları arasında infeksion xəstəliklərin yayılmasının qarşısının alınması üçün maarifləndirmə və profilaktik tədbirlərin həyata keçirilməsi vasitəsilə zərərin azaldılmasına qismən də olsa nail olmaqdır.



Bu məqsədlə, layihə çərçivəsində Şəki rayonunda müvafiq mövzu ilə bağlı əhali qrupları arasında sorğular keçirilib, 5 maarifləndirmə sessiyası təşkil edilib və təlim iştirakçılarına anonim qaydada İİV statusunun öyrənilməsi ilə əlaqədar könüllü testlər təqdim edilib.

Azərbaycan Dövlət Pedaqji Universitetinin Şəki filialında təşkil olunmuş tədbirdə 20 nəfər iştirak edib. Təşkilatın təlimçisi Ədilə Cabbarzadə tərəfindən aparılan maarifləndirmə sessiyasında layihə rəhbəri Füzuli Abıyev də iştirak edib. Təlim interaktiv formada həyata keçirilib və iştirakçıların müvafiq mövzularla bağlı canlı müzakirələri ilə başa çatıb.

## *İsrailin Qəzzaya hücumları nəticəsində 5 mindən çox bina dağılıb*

**İsrailin 7 oktyabrdan bəri Qəzzaya etdiyi hücumlarda 14200 yaşayış yerindən ibarət 5500 bina tamamilə dağıdılıb.**

Adalet.az xəbər verir ki, İsrailin 7 oktyabrdan bəri Qəzzaya etdiyi hücumlarda 14200 yaşayış yerindən ibarət 5500 bina tamamilə dağılıb. İsrail hələ də bölgədə mülki əhalinin sığındığı Qüds Xəstəxanası və BMT-yə bağlı məktəbləri bombalamaq üçün boşaldılmasını istəyir. Rəsmi açıqlamada İsrailin təhsil müəssisələrinə hücumları nəticəsində 160 məktəbin zərər gördüyü, 19-nun isə xidmətdən kənar qaldığı bildirilib. Fələstin Qızıl Aypara Cəmiyyətindən verilən yazılı açıqlamada İsrail qüvvələri tərəfindən Qəzzanın cənubunda yerləşən Qüds Xəstəxanasının bombalanacağı ilə bağlı təhdid alındığı" bildirilib. Açıqlamada qeyd olunub ki, "İsrail ordusu 400-dən çox xəstə və 12 min insanın sığındığı Qüds xəstəxanasının təcili boşaldılmasını tələb edir. BMT-nin Fələstin Qaçqınlarına Yardım Agentliyi (UNRWA) İsrailin 5 məktəbi mümkün qədər tez boşaldılması xəbərdarlığı etdiyini açıqlayıb. Bəyanatda bütün məktəblərin Qəzza şəhərində olduğu ifadə edilərək, "Bu qərarı etiraz etmək və rədd etmək üçün əlimizdən gələni etdik. Ancaq bu, obyektlərin artıq təhlükəsiz olmadığı anlamına gəlir" deyə bildirilib.

Qəzzada olan Fələstin Səhiyyə Nazirliyi, İsrailin Qəzzaya təşkil etdiyi hücumlarda 1524-ü uşaq olmaqla, 4 min 137 adamın öldüyünü, 13 mindən çox insanın isə yaralandığını açıqlayıb.

**Vasif Əlihüseyn**

# Bu dünyada sirr axtarma...

## *Şəhid Elçin Süleymanovun qızı Xalidənin şəkli məni çox kövrəltdi*

**... Biz dünyaya gəlirik, çalışırıq, vuruşuruq, yüz əzab-əziyyətə qatlaşırıq və axırda da bir gün qovuşuruq Allahın dərgahına. Hələ heç kəs Allahın əmrindən kənara bir addım da belə ata bilməyib. Çünki hər bir addım, hər bir yeriş, hər bir duruş və hər bir iş Ulu yaradanın razılığı ilə baş verir. Və biz elə düşünürük ki, çox şey edə bilərik, istənilən məqsədə çata bilərik, eyni zamanda hər şeyi asanlıqla qazanmağı bacararıq. Amma onu düşünmürük ki, Allahın razılığı və istəyi olmadan biz heç bir şeyi əldə edə bilmərik...**






Mənim bir bibim nəvəsi vardı - Elçin Tehran oğlu Süleymanov. Füzulidə "N" hərbi hissəsində müddətdən artıq xidmət edirdi. Kəndə gedəndə çox vaxt onlarda qalırdım. Elçin də bilirdi ki, qış vaxtında mən çox üşüyərdim və özünün yatdığı isti otağı mənə verərdi. Evdəkilərə deyərdi ki, qoy Faiq əmi bu isti otaqda yatsın, birdən xəstələnib eləyər. Elçin həmişə evə tez-tez gələ bilmirdi. Çünki hərbi xildmətdə olanda müəyyən vaxtı evlərinə qayıdar, atası Tehran, anası Xalidə ilə görüşər, bir yaşlı qızı Xalidəni duz kimi yalıyardı.



Tehranın böyük oğlu da var - Telman! Telman da yaxşı oğlandı. Amma Elçin tamamilə başdan-ayağa bal idi, şəkər idi və duz idi. O qədər duzlu oğlan idi ki, bir dəfə onunla görüşən adam əl çəkməzdi o mavi gözlü oğlandan. Mavi gözləri və qara saçları ona qeyri-adi bir yaraşıq verirdi. Amma başqaları kimi özünə heç vaxt sığal çəkməzdi. Mənimlə görüşəndə deyərdi ki, Faiq əmi, sən jurnalistsən, tez-tez cəbhə bölgəsində olursan, amma ürəyini buz kimi saxla, tezliklə böyük savaş başlayacaq və böyük savaşda biz torpaqlarımızı azad edəcəyik. Elçin bu sözləri deyirdi və düz mənim gözümün içinə baxırdı. Gözümün içinə baxırdı ki, görsün o dediklərinə inanıram, ya yox?!

Mən nəinki onun dediklərinə, hətta gördüklərimə inanırdım. Çünki 2020-ci il sentyabrın 23-də mən Füzuliyə getmişdim. Onda görürdüm ki, Azərbaycan ordusu hansı gücə, qüvvəyə, qüdrətə malikdi. Mən görürdüm ki, tanklar, BTR-lər və digər döyüş maşınları cərgə ilə Horadiz şəhəri istiqamətində hərəkət edir. Və mən görürdüm ki, o hərəkət edən tankın üstündəki əsgərləri döyüş maşınında olan gənclərimizi yolun kənarına yığılan minlərlə adam necə alqışlayır. Bax, onda Elçin Tehran oğlu Süleymanov da idarə etdiyi tankın üstündə idi. Heç kim bilmirdi ki, erməni təxribatının və xainliyinin qarşısını almaq üçün Azərbaycan ordusu sentyabrın 27-də səhər saatlarında əks hücuma keçəcək...

Bax belə, sentyabrın 27-si Füzuli istiqamətində ağır döyüşlər başlayır. Elçin də bu ağır döyüşlərdə idarə etdiyi tankın sükanı arxasına keçərək döyüş yoldaşları ilə birgə erməni mövqelərini darmadağın edirlər. Əlbəttə, belə döyüşlərdə sağ qalmaq o qədər də asan deyil. Çünki yağı düşmən də özünü müdafiə etmək üçün bütün vasitələrdən, artireliyadan, qumbaraatandan və hətta qırıcılardan istifadə edir. Bütün bu müqavimətə baxmayaraq, sentyabrın 27-də bir çox yüksəkliyi və eləcə də Füzulinin üç kəndi erməni işğalından azad olunur. Sentyabrın 30-na kimi isə daha neçə-neçə kənd və Cəbrayıl rayonunun yaşayış məntəqələri ermənilərdən təmizlənir. Elçin də öz tankının arxasında Cəbrayıl rayonu uğrunda döyüşdə fədakarlıqla vuruşur. Sentyabrın 30-da belə ağır döyüşlərin birində Elçin Tehran oğlu Süleymanov qəhrəmancasına şəhid olur...





Aman Allah, Elçini sinif yoldaşları, döyüş dostları və ən nəhayət, böyüyüb boya-başa çatdığı Bəhmənli camaatı nə qədər çox istəyirmiş. Artıq həmin günü qədim və zəngin mədəniyyətə malik olan Bəhmənli ilk şəhidini verdi və Bəhmənli camaatı da ilk şəhidi olan Elçin Süleymanovu çiyinlərində piyada qəbristanlığa qədər son mənzilə yola saldılar. Son mənzilə yola salmaq elə də asan deyildi. Çünki şəhid qanına, şəhid ruhuna bələnmiş torpaq onu heç vaxt yaddan çıxarmırdı. Dəfndə iştirak edən hər bir adam istəyirdi ki, onu cənazəsinə heç olmasa əlini toxundursun... heç olmasa o cənazəyə əlini toxundurmaqla bir təsəlli alsın...heç olmasa Elçinin cənazənin içində olan ruhunu tərpətsin...

...Torpağını sevən, torpağına qarışan və qanı ilə bir tarix yazan şəhidlər həmişə diridilər. Çünki onlar hər şeyi hiss edir, duyur, bilir və anlayırlar. Ən azından ona görə ki, onlar uyduqları bu torpaq uğrunda, bu Vətən uğrunda, bu xalq uğrunda Allahın dərgahına qovuşurlar. Onların ruhları Allahın dərgahında olsa da, hər səsi, hər ağını, hər naləni, hər sədanı və hər pıçıltını eşidir. Eşidirlər və bilirlər.

Bilirlər ki, son mənzilə elin-obanın çiynində yollanan bu cür oğulları heç kim heç vaxt yaddan çıxarmır. Düzdü, bəzən hansısa vəzifəli şəxs bir şəhid ailəsinə qarşı diqqətsizlik edə bilər. Amma xalqın böyük məhəbbəti qarşısında bu dəryada bir damla kimi görsənir. Bəhmənlidə "məmə deyəndən, pəpə yeyənə kimi" hamı şəhidlərin ruhuna dualar oxuyur. Məgər bu azdı?! Heç elə adam var ki, doğması yadına düşmür, amma şəhidləri xatırlayır. Dəfələrlə mən Elçinin məzarını ziyarət eləmişəm. Yaxın qohumlarımızı son mənzilə yola salanda və qəbristanlıqda dəfn edəndən sonra hamını şəhid məzarını necə ziyarət etdiyini görmüşəm. Görmüşəm ki, Bəhmənli qəbristanlığında olan bütün şəhidlər insanlar tərəfindən ziyarət olunur.

Dünən axşam mamaoğlu Tehran Elçinin və onun qızının şəkillərini öz statusuna qoymuşdu. O şəkili statusa qoyub-qoymamasından asılı olmayaraq, onsuz da hər gün Elçin bizim yadımızdan çıxmır. O statusa baxıb bir qədər kövrəlsəm də, ancaq bir təsəlli də tapdım. Təsəllim o oldu ki, Elçinin qızı balaca Xalidə nənəsi Xalidə ilə bayram süfrəsinin arxasında əyləşib. Uşağın şəkildəki gözlərinə baxıram. O gözlər atası Elçinin gözlərinə bənzəyir. Və indi də o gözlər atasını axtarır. Amma tapa bilmir. Bəlkə də tapır, öz xəyalında, öz dünyasında. Çünki Elçinin bir şəkli də vardı. Qızını qucaqlayıb öpür və əlindən tutub fırladır...

...Yəqin bu anlar, bu məqamlar balaca Xalidənin yadına düşməsə də, amma onu qeyri-adi bir hiss atasına yaxınlaşdırır. Kim nə deyir-desin, insan heç vaxt ölmür, o bir formadan başqa bir formaya keçir. Özü də ki, şəhidlər ola! Nə vaxtdandır balaca Xalidəni görmürəm. Ürəyim tab gətirmir onu görməyə. Amma Allaha şükür olsun ki, balaca Xalidə böyüyüb. 4 yaşı tamam olub. İndi 5 yaşın içindədi...

...Mən həmişə Allahın möcüzəsinə və gücünə inanmışam. Ən sıxıntılı, ən dərdli, ən ağır anlarımda Allaha sığınmışam və böyük Allah da həmişə mənə öz köməkliyini eləyib. İndi mənim mamam oğlu Tehran, qohumum Xalidə xanım, Elçinin qızı balaca Xalidə Allaha sığınıb və Allah onlara öz mükafatını da verib. O mükafat balaca Xalidədi. Çünki Elçinin qəlbi, ürəyi və hətta gözləri balaca Xalidədədi. O gözlərə bibim oğlu Tehran da, Xalidə də baxanda, hətta kövrəlsələr belə, içlərində bir inam, ümid baş qaldırır.

**Nə yaxşı ki, şəhid Elçinin ömrünü yaşadan, davam etdirən bal kimi, şirin balaca Xalidə var. Və bal kimi şirin, balaca Xalidə hər an, hər dəqiqə Elçini bizə xatırladır. Hətta Elçinə məxsus bəzi hərəkətlər də, bəzi jestlər də hiss olunur. Həm də hiss olunan odur ki, Elçinin ruhu həmişə bu evdədi. Şükürlər olsun ki, bu ocaqda, bu evdə Elçini yaşadacaq və bir daha elə-obaya sevdirəcək balaca Xalidə böyüyür. Min şükür!...**

**FAİQ QİSMƏTOĞLU**

# HAVAMIZI ZƏHƏRLƏYƏNLƏR

## Respublika ərazisində oktyabrın 1-dən 31-dək "Təmiz hava" aylığı keçirilir



**Heç kimə sirr deyil ki, hər gün atmosferə nəqliyyat vasitələrindən və istehsalat sahələrindən tonlarla zərərli qazlar atılır. Və bu zərərli qazlar isə müxtəlif xəstəliklərin, o cümlədən xərçəngin yaranmasına və yayılmasına münbit şərait yaradır.**

Ona görə də dünyanın hər yerində olduğu kimi, Azərbaycanda da ekoloji təmizliyi qorumaq üçün böyük lahiyələr və tədbirlər gerçəkləşdirilir. Belə tədbirlərin birini də ildə 2 dəfə Ekologiya və Təbii Sərvətlər Nazirliyi Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi ilə birgə keçirdiyi "Təmiz hava" aylığıdır. Bu tədbir zamanı istehsalat sahələrindən və nəqliyyat vasitələrindən atmosferə normadan artıq zərərli qazlar atan hüquqi, vəzifəli, fiziki şəxslər inzibati məsuliyyətə cəlb olunurlar. Artıq oktyabrın 1-dən başlamış "Təmiz hava" aylığında çoxlu sayda sürücülər və fiziki şəxslər reydlər zamanı cərimə ediliblər. Ən çox da istismar müddətini başa çatdırmış və dizel yanacağı ilə işləyən avtomobillərdən zərərli qazların atılması faktları aşkar olunub. Təbii ki, köhnə avtobuslarda, "Kamaz" və "Kraz" maşınlarında belə hallar daha çox aşkarlanıb.



Bu günlər isə Baş Dövlət Yol Polisi İdarəsinin Ekoloji Nəzarət Bölüyündə "Təmiz hava" aylığı ilə bağlı reyd keçirilib. Reyd zamanı Sovet istehsalı olan "Vaz" markalı avtomobillərdən və digər texniki cəhətdən nasaz nəqliyyat vasitələrindən atmosferə normadan artıq zərərli maddələrin atılması faktları bir daha üzə çıxıb. Məlum olub ki, bir çox sürücülər aparılan təbliğat işlərindən nəticə çıxarmayıb, avtomobilləri texniki qüsurlar olsa da, idarə ediblər. Ona görə də 50 manat civarında cərimə ediliblər.



**Baş Dövlət Yol Polisi İdarəsinin avtotexniki müfəttişlik şöbəsinin rəisi, polis polkovnik-leytenantı Xalid Əzimov deyir ki, tədbir keçirildiyi bu ayın 24 günündə atmosferə normadan artıq zərərli qazlar atan yüzlərlə avtomobil sahibi inzibati məsuliyyətə cəlb olunub. Bir daha sürücülərə tövsiyə edirik ki, "Təmiz hava" aylığında məsuliyyət olsunlar, mövcud texniki qüsurları vaxtında aradan qaldırsınlar. Bir dəfə cərimə olunanlar elə düşünməsinlər ki, ikinci dəfə onlar məsuliyyətə cəlb edilməyəcəklər. Çünki reydlər oktyabr ayının sonuna qədər davam edəcək, sonrakı aylarda da atmosferə normadan artıq zərərli qazlar atan nəqliyyat vasitələrinin sahibləri saxlanılacaq və barələrində ciddi tədbirlər görüləcəkdir.**




**FAİQ QİSMƏTOĞLU**

# "Rusiya SM-ı erməniləri növbəti dəfə Qarabağa qaytara bilərmi?"

**Bu gün erməni mediası Qarabağı tərk etmiş ermənilərin yenidən geri qaytarılması ilə bağlı fikirlər səsləndirirlər. Bu məsələyə xüsusi önəm verən və bu işdə onlara kömək edəcək Rusiyanın dəstəyinin olduğunu vurğulayırlar.**

Ola bilərmi ki, Rusiya Sülhməramlıları işğal dövründə Azərbaycana yerləşmiş erməniləri yenidən Azərbaycanla müzakirə etmədən Qarabağa qaytara?

Sualımızı cavablandıran hərbi ekspert Ədalət Verdiyev Adalet.az-a bildirib ki, hazırda Ermənistanda çox az sayda ağlı başında olan erməni tapmaq olar ki, Rusiyanın Ermənitana dəstəyi barədə fikirlər səsləndirsin. Bu artıq geri də qalmış bir tarixdir:" Rusiya ilə Ermənistanın hansısa bir şəkildə yaxın perspektivdə mümkün də görünmür. Əksinə 200 ildir Rusiyanın dəstəyi ilə hər kəsə torpaq iddiası edən Ermənistan bu günləri öz təhlükəsizliyini təmin etmək üçün müxtəlif ölkələrin rəhbərlərinə "sülh dilənçisi" rolunda yalvarmaqda davam edir".

Ermənilərin Qarabağa qayıtmaq fikirlərinə də toxunan ekspert onu da vurğulayıb ki, lap belə bir situasiya yaransa da, ermənilər geri qayıtmaq fikrinə düşməyəcəklər:" Qarabağı tərk edən ermənilər özləri geti qayırmaqdan imtina edəcəklər. Çünki Qarabağ ermənilərinin bəlkə də çox cüzi hissəsi Azərbaycana qarşı fəaliyyətlərə yol verməyiblər.Onların çoxu terror qruplarının tərkibində azərbaycanlılara qarşı hərbi cinayətlər törədiblər, savaşıblar, rayonlarımızı, kəndlərimizi təməlinə qədər söküb satıblar, bəziləri etnik təmizləmə aparıb, azərbaycanlıların məcburən qoyub gəldiyi ev-eşiklərini talan ediblər. Yəni bu fəaliyyətin nəticəsində Qarabağa qayıdacaq ermənilərin sayı kifayət qədər az olacaq. Ermənilər Vaqif Xaçatryan kimi ədalət məhkəməsinin qarşısına çıxarılmaqdan, bir başa öz əməllərində qorxub qaçıblar. Qarabağdan çıxan ermənilər sərhəd keçid məntəqəsində bildirib ki, onları heç kim Qarabağı tərk etməyə məcbur etməyib.

Onların geri qayıtmasının da Azərbaycan tərəfindən qarşısı alınmır, tam əksinə geri dönmək Azərbaycan pasportu alaraq qanunlarımıza tabe olacaq ermənilər üçün portal və qaynar xətt yaradılıb".Ə. Verdiyev Rusiya hərbi kontingentinin "erməniləri geri qaytarmaq" məsələsinə də aydınlıq gətirib: "Rusiya Sülhməramlıları Azərbaycan ərazilərində Azərbaycanın qanunvericiliyinə, milli və dövlət maraqlarına zidd heç bir müdaxilə edə bilməz və bu mümkün deyil. Rusların vəzifəsi tərəflər arasında atəşkəsin yerinə yetirilməsinə nəzarət etmək idi və bu problem də ortadan qalxıb. Buna görə də, rusların ərazimizdən çıxması tez bir zamanda , bəlkə də gələn ilin sonuna qədər başa çatacaq".

Qeyd edək ki, erməni bloger Natali Aleksanyan Feysbuk səhifəsində yazdığı fikirlər ermənilər arasında birmənalı qarşılanmayıb. O paylaşımında yazır ki, aydın şəkildə başa düşün ki, daşnaklar və onların müttəfiqləri tərəfindən təbliğ edilən Qarabağın mümkün "qaytarılması" Ermənistan üçün ölümcül olacaq. Xəyallar səltənətindən çıxmaq və həqiqətlə üzləşmək lazımdır. Azərbaycanı Qarabağdan əl çəkməyə məcbur edəcək heç bir qüvvə yoxdur. Qarabağın erməni dövləti kimi səhifəsi bağlanıb.

**Əntiqə Rəşid**

## *Sürücülər sürət həddini aşırlar*

**Bir çox sürücülər var ki, tez-tez sürət həddini aşır və qəza şəraiti yaradırlar.**

Təbii ki, belə sürücülərə qarşı Baş Dövlət Yol Polisi İdarəsinin Yol Patrul Xidməti Alayı mütəmadi olaraq mübarizə aparır, onları maarifləndirir və tövsiyələrini verir. Alayın 12-ci tağımının əməkdaşları da xidmət apardıqları Hacıqabul-Horadiz avtomobil yolunda yüksək sürətlə yanaşı, sərxoşlara, manevr qaydalarını pozanlara, ötmə əməliyyatına düzgün əməl etməyənlərə, əlavə avadanlıq quraşdıranlara, təhlükəsizlik kəmərindən istifadə etməyənlərə, mobil telefonla danışanlara qarşı ciddi mübarizə aparırlar. Onlar çətin vəziyyətdə olan, hətta xəstələnib yolda qalan sürücülərə və sərnişinlərə kömək edirlər. Belə ki, əməkdaşlar ağır durumda olan vətəndaşları xidməti maşınla yaxınlıqdakı xəstəxanaya çatdırıblar. Onların və həkimlərin köməyi ilə həmin insanların həyatı xilas edilib. 12-ci tağımın komandiri Namiq Əzizov dövlətə və dövlətçiliyə sədaqəti ilə fərqlənir. Eyni zamanda o, tağımda yüksək nizam-intizam və sağlam mühit yaradıb.



Namiq Əzizov deyir ki, xidmət apardığımız avtomobil yolunda hava şəraitindən asılı olmayaraq həmişə təhlükəsiz şərait yaradırıq ki, hərəkət iştirakçıları mənzil başına sağ-salamat çatsın. Ona görə da Hacıqabul-Horadiz avtomobil yolunda ağır qəzalar azalıb. Bir sözlə, bizim üçün ən önəmlisi insan taleyidir. Biz də bunu hərəkətin təhlükəsizliyini təmin edərək əldə edirik! Hər bir sürücü, hər bir piyada qaydalara əməl etsə, bizi gözləyən ölüm anından xilas olarıq!

## *Avtobus niyə dərəyə aşdı?*

**Bir neçə gün bundan əvvəl Gəncədə sərnişin avtobusu dərəyə aşıb.**



Xoşbəxtlikdən ölüm hadisəsi baş verməyib, amma ona qədər şərnişin müxtəlif dərəcəli xəsarətlər alıblar. Onların bəzilərinin vəziyyəti qənaətbəxş olsa da, bir neçəsinin durumu heç də yaxşı deyildir. Ona görə də həmin sərnişinlər müxtəlif xəstəxanaya yerləşdiriliblər. Həkimlərin bildirdiyinə görə, həmin insanların da durumu mürəkkəb deyil. Təbii ki, qəzanın baş vermə səbəbi hüquq- mühafizə orqanları tərəfindən daha dəqiq araşdırılacaq. Ancaq ilkin nəticə bundan ibarətdir ki, avtobus hərəkətdə olarkən texniki nasazlıq yaranıb. Sürücü belə vəziyyətdə nə qədər çalışsa da qəza vəziyyətindən çıxa bilməyib və nəticədə nəqliyyat vasitəsi dərəyə aşıb. Aydındır ki, hadisəyə görə, sürücü məsuliyyət cəlb olunacaq. Lakin məsələnin bir tərəfi var ki, avtobusların bir çoxu fiziki və mənəvi cəhətdən köhnəlib və istismar müddəti başa çatıb. Üstəlik də bir çox sürücülər avtobusları texniki baxışdan vaxtında keçirmir, onları nasaz vəziyyətdə idarə edirlər. Bu faktlar keçirilən reydlər vaxtı dəfələrlə öz təsdiqini tapıb. Ona görə də hər bir sahibkar, sürücü avtobusları saz saxlamağa və vaxtında texniki baxışdan keçirməyə borcludur!

**EMİL FAİQOĞLU**

## *İraq ordusu kürd "peşmərgəsiylə" barışdı*

**İraq ordusu və "Kürdüstan avtonomiyasının hərbi qüvvələri sayılan "peşmərgə" arasında barışıq əldə olunub.**

Bu barəfə məlumat verən Rudaw telekanalı bildirir ki, bazar günü səhər tezfən tətəflər arasında, İraqın şimslında, Mahmur şəhəri yaxınlığında yerləşən üç hətbi postun kimə məxsus olması ilə bağlı mübahisə yaranıb. İrak ordusu bu postlara nəzarəti ələ keçirməyə cəhd edib, lakin "peşməngə" buna etiraz edərək posları tətk etmək istəməyib. Bildirilir ki, Erbil əyalətinə daxil olan Mahmur şəhərində, Türkiyədən qaçan çoxsaylı kürd əsilli vəyəndaş məskunlaşıb. Sentyabrın 19-da Kürd işçi partiyası (PPK) bu ərazilərdən ordusunu çıxardığını elan edib. Lakin görünür peşmərkələr postları əlində saxlamaq niyyətində olub.

**Rüstəm Hacıyev**

# Şah və... Mat

***Ə**ziz oxucum!*

***"Şah və... Mat" silsiləsindən ikinci yazımdır ki, sizinlə əzəli duyğularımı bölüşürəm.***

***Əlbəttə, ötən yazının qəhrəmanı kimi, bütün coşquların, xoş sözlərin, sevinc təəssüratlarının ünvanı da, müəllifi də bir İNSANDIR...***

***Zamanların Böyük SƏRKƏRDƏSİ!..***

***Baxın, qürurla, fərəhlə baxın bu şəkilə...***

***Sevə-sevə baxın: Bu təlatümlü dünyada öz öncül yerini tutan müstəqil bir ölkənin PREZİDENTİNƏ!***

***Qalib KOMANDANA!***

***Möhtəşəm ZƏFƏR TARİXİNİN yaradıcısına!***

***...Və həm də al-əlvan çələngdən toxunmuş bu şükranlı sətirlərin müəllifinə - məmləkətin qalibiyyət tarixini özü yazan USTADINA!***

***Bütün bunların müəllifi - ODUR!..***

***İLHAM HEYDƏR OĞLU ƏLİYEV!..***



*Bizi bu günlərə yetirmiş Müzəffər Ali Baş Komandanın çinar boyuna, Xankəndidə vüqarlı addımlarına, hərbi geyimdə daha da əzəmətli görünən qalib Sərkərdə duruşuna, dilə gətirdiyi hər fikrin sanbalına, gözlərindəki, səsindəki sevincə, fərəhə, sevgiyə, şəhid itkilərimizin hüznünə və ağrısına, bu günə və gələcəyə baxışının aydınlığına yaraşan dürlü kəlmələr axtarıram söz saxlancımdan...*

**Bu ad Qarabağı, Şərqi Zəngəzuru azadlığına qovuşduran, son bir neçə əsrdə Azərbaycanın itirilmiş torpaqlarına qələbə bayrağı sancan, böyük güclərin bu torpaqlarda başımızın bəlasına çevirdikləri iki əsrlik erməni layihəsinin kitabını birdəfəlik bağlayan DÖVLƏT ADAMININ ismi kimi tarixə əbədi həkk olundu!**

***Bu, mənim fəhmimin gücü deyil, haqqında yazılan Şəxsiyyətin Əzəmətidir...***

*istəyən bir neçə dövlət) yeri-göyü silahlarla, mərmilərlə, raketlərlə doldurub yenə, boşaltmağa, atmağa yer, qaraltmağa talelər axtarır, maraqlar uğrunda bir-birini didir.*

❖❖❖

**Polemikaya nə ehtiyac?!**

Belə gərgin bir dünyada, dünya güclərinin maraqlar münaqişəsinin, demək olar ki, tən ortasındakı coğrafiyada Azərbaycanı bu qədər böyük hədəfə çatdıra bilmək heyrətamiz bir iş deyilmi?!

**İndi dünyanın bu nizamsız cərgəsində siz bu möcüzələrə inanardınızmı?!**

*Düzü, mən inanmazdım bu möcüzəyə, çünki möcüzə yalnız xəyallarda olur. Amma nəhəng dövlət xadimi cənab İlham Əliyev bütün*

**rinin yoxlamasından keçərək gedib-gəlməli olurlar.**

Bu yolla illər uzunu silah daşıyıb siçovul kimi yuvalarını doldurmuş separatçıların basaratı bağlanır daha...

Azərbaycan dövlətinin kosmosdan quş uçuşunu belə görən gözləri və dəmir yumruğunun zərbi-dəsti onlara əl-qol açmağa belə imkan vermir.

Dövlət rəhbərimiz Şuşadan görünən Xankəndini Türkiyə Prezidentinə göstərir. "Oradakı yer ki var, dağın arasında, ora da Xankəndi şəhəridir" - deyir...

Sayın Ərdoğan isə özünəməxsus arifliklə "Otel oradamı?" - deyə soruşur.

Cənab İlham Əliyev də eyni arifliklə dərhal söhbəti tutur, səmimi gülüşü ilə "Orda da olacaq!" - deyir...

**Və "İnşallah" duası!!!**

*Adətən, təsəvvürlər, xəyallar reallıqlardan böyük olur...*

*Bu günlərinsə reallıqları təsəvvürlərimizdən, xəyal etdiklərimizdən böyükdür, onların sərhədlərini aşır...*

**Çünki bu reallıqları yaradan Liderin miqyası, əzəməti də görə bildiklərimizdən boy-boy ucadır.**

❖❖❖

Antiterror tədbirlərində Azərbaycan dövlətinin dəmir əlinin suyunu növbəti dəfə dadandan sonra separatçıların dizinin yerə gəldiyini, Azərbaycanın istəkləri ilə razılaşdıqlarını gördük. Amma ermənilərin xaricdəki havadarlarının haray-həşirini də eşidəndən, dövlətimizə qarşı min bir həyasız

**Xoş gördük, milli polisim, əziz polisim!**

*Şərəfli və müqəddəs xidmətin mübarək, əziz qardaşım!...*

Hələ də adama elə gəlir ki, bütün bunlar şirin bir yuxudur, qısa müddət içində bu qədər böyük bir tarixin içində yaşadığına, bu misilsiz günlərə canlı şahid olduğuna özünü hələm-hələm inandıra bilmirsən..

*Əsrlər keçəcək, gələcək nəsillər bu günlər haqqında əfsanə kimi danışacaqlar...*

*Amma bunlar - əfsanə deyil, reallıqdır, haqq savaşındakı qalibiyyətdir, doğru yolun gətirib çıxardığı müqəddəs evimizdir, tarixi haqqımızdır..*

**Tarix həmişə İlham Əliyevi haqlı çıxarır.**

**Bu tarixi yaradan, istiqamətləndirən, vaxtın axarına yön verən ODUR axı.**

**Başqa necə ola bilər ki?!**

**Bu, Azərbaycan Prezidentinin öz ustadından - Ulu Öndər Heydər Əliyevdən əxz etdiyi ən parlaq keyfiyyətlərdəndir.**

*Bu böyük sərkərdənin, qrosmeyster ustalığına sahib diplomatın, qəlbində hələ nə qədər müqəddəs arzular var...*

Yenə inanılası deyil düşünürsünüz?!

*Yenə inanan və yeni möcüzələrin gerçəkliyə çevrildiyini görən günlərimiz olacaq!*

*Bu əminliyi - dahi sərkərdənin inamlı əməlləri verir bizə!..*

❖❖❖

**DÜNYANI Böyük Şahmat Taxtası kimi təsəvvür edirəm...**

*Onun bir tərəfində Azərbaycandan kənardakı dünya görünürdü, burada əllərində qara fiqurlar, düşüncələrində qara niyyətlər, qarşılarında qara planlar dəstə ilə üstümüzə gəlmək istəyənlər*

*Verdiyi bütün sözləri tutmaq ərdəminə, insanların ona olan etibarını, inamını doğrultmaq comərdliyinə sahibliyidir...*

❖❖❖

İndi dünyanı başına götürmüş qarışıqlıqları, gərginlikləri, münaqişələri izlədikcə, Azərbaycan Prezidentinin dəqiq qrosmeyster gedişlərinə, qərarlarındakı sərrastlığa, zamanlama ilə bağlı heyrətamiz intuisiyasına heyran olmaya bilmirsən...

*Tanrım, bu, necə bir mükəmməllikdir?!*

**Bir dövlət adamı strateji planlamada necə bu qədər dəqiq, korrekt, ən əsası isə, fürsət anları yetişən kimi, ani tərddüd belə etmədən, qətiyyətli və qərarlı ola, bu qədər qeyri-müəyyənliklərlə, mürəkkəb oyunlarla dolu dünyamızda üzərinə böyük risklər, dağ boyda məsuliyyət götürməyi bacararmış?!**

*Epizodlar ardıcıl şahmat kombinasiyaları kimi bir-bir göz önündən keçir, onları bir yerə toplayanda dünyamızın ən müasir tarixinin son dərəcə qəliz, gərgin, həlledici mənzərəsi alınır.*

*Bir dövlət rəhbərimizin böyük qalibiyyətlə başa çatdırdığı Vətən müharibəsinin nəticələrinə baxırsan, bir də, bu gün ərazisi, insanlarının taleyi param-parça olmuş Ukraynada baş verənlərə...*

*Bir Azərbaycan dövlətinin saatlar içində uğurla tamamladığı antiterror tədbirlərinin tarixi nəticələrinə diqqət yetirirsən, bir də, bu əməliyyatdan qısa müddət sonra yenidən qan çanağına dönmüş Yaxın Şərqdəki dəhşətli mənzərəyə...*

Görürsən ki, nələrdəsə, bir neçə ay, gün, hətta bir neçə saat gecikmək, qərarsızlıq göstərmək, yaxud nələrdəsə də, eyni şəkildə, tələsmək, vaxtı qabaqlamaq Azərbaycanı can atdığı əsas hədəfdən iraq salarmış!

*Harınlamış, gözünü qan örtmüş dünya (və ona sahiblənmək*

*bunları arzulamaqla bahəm, həm də məqsədinə, məramına çevirdi, həyata keçirdi...*

**...Və böyük tarix yazdı!..**

**Qarabağın tarixi xilaskarı kimi!..**

*Bu arzuları, bu möcüzəni, bu təntənəni, bu qalibiyyəti özündə ehtiva edən və vurğulaya bilən bir söz tapmaq olarmı?!*

Çox qısa zamanda bu qədərini kim təsəvvürünə gətirə bilərdi ki?!

**Vətən müharibəsinə hələ aylar qalmış tezliklə Qarabağın, Zəngəzurun qədim-qayım torpaqlarının alınacağına qəlbimizdə suallar yaranardı...**

*Kim inana bilərdi ki, tezliklə nisgilli yurdlarımızda üç rəngli, aylı-ulduzlu bayrağımız ucalacaq, ot basmış yollarımıza insanlarımızın ləpiri düşəcək, qaralmış ocaq daşlarımızın yenidən işaran közündə, istisində yurddaşlarımızın doğma həniri eşidiləcək?!*

**Buna kim inanardı - Şuşadan, Cıdır düzündən əsrlərdən boy götürüb gələn muğam sədasının yenidən göylərə bülənd olacağına...**

**Ermənilərin illər boyu vandalcasına tar-mar edib virana qoyduqları yurdlarımızın böyük bir tikinti-abadlıq, inkişaf meydanına çevriləcəyinə...**

**Torpağın bağrını çatladan minaların zəhərli tikan kimi bir-bir çıxarılıb atılacağına, yerində bərəkətli toxumlar əkiləcəyinənə...**

**İllərin tamarzısından sonra süfrələrimizdə dadlı-ləzzətli Qarabağ, Zəngəzur nemətlərinin görünəcəyinə...**

❖❖❖

*Bax, budur bizim Prezidentimiz İlham Əliyev!..*

*...O, Torpağını sevir, Tarixini sevir, bu torpağın qalibiyyət tarixini qızıl hərflərlə yenidən yazır.*

*Millətini sevir, dilini, inancını sevir, məmləkətinin, dövlətinin adını uca tutur.*

## *İkinci yazı*

*Azad olunmuş yurdlarımızın zirvələrində sağlam və əyilməz biləyi ilə Zəfər bayrağımızı qaldırır və qürurla dalğalandırır...*

**Əzəli və əbədi qalibiyyət bayrağımızı!..**

Bu qalibiyyətin müqəddəs rəmzi kimi ucalan dəmir yumruq heykəlləri əbədi qələbəmizə keşik çəkirmiş kimi buradan ta İrəvana, qədim torpaqlarımızacan düşmənə göz dağı verir. Dovşan xislətli və dovşan taleli düşmənin yuxusuna haram qatır.

*Fikir vermişəm, qalib insan, müzəffər sərkərdə kimi ayağını doğma yurda qoyanda, o yurdların sakinləri ilə görüşəndə gözləri doluxur, kövrəlir. Bu torpağın, bu yurdun, bu məmləkətin qurucu sahibi kimi kövrək göz yaşlarını saxlaya bilmir.*

**Çox güclü yaddaşı var. Tariximiz kimi mədəniyyətimizi, etnoqrafiyamızı, milli kimliyimizi, bu yurdun, kənd-kəsəyin toponimlərini, adlarda yaşayan həqiqətlərini dərindən bilir, keçmişin danılmaz faktlarını yaddaşındakı sübutlarla isbata yetirir.**

*Vətən müharibəsini üç cəbhədə - döyüş meydanında, diplomatiya səngərində, informasiya savaşında ustalıqla aparan bu insan mükəmməl bildiyi neçə dildə Azərbaycan gerçəklərini müxtəlif kanallarla dünyaya yetirməyi və sübut etməyi bacarır...*

Bu gün Qarabağda, Şərqi Zəngəzurda yerinə yetirilən bərpa-quruculuq işlərinin hər birində el-obamızın, insanlarımızın, adət-ənənələrinə uyğun böyük xeyir-duasını verir.

Qədim yurdları, kəndi-kəsəyi, Qalib Ordumuzun qəhrəmanlarını, döyüşçülərini, milli qürurlarımızdan olan idmançılarımızı ad-baad tanıyır, dəyər verir...

Əhatəsindəki insanların duyğularını, auditoriyanın tələbini və üslubunu həssaslıqla duyub ona görə davranır. Bəzən ana dilimizdə elə sözlər, ifadələr səsləndirir ki, dayanıb təkrar-təkrar dinləyirsən, səsinin və sözünün sehrindən doymursan...

**Bax budur bizim Prezidentimiz İlham Əliyev!**

❖❖❖

*Əsl Lider kimi o, zamanla çalışır, vaxtını tarixə çevirə bilir.*

*Liderlik, əslində, zamanla işləmək sənətidir, onu dərindən duymağı bacarmaqdır, hər addımın öz vaxtını-vədəsini zərgər dəqiqliyi ilə hesablamağı bilmək və ona uyğun addım atmaqdır.*

**"Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm!.."**

*Vətən müharibəsinin simvollarından birinə çevrilmiş bu kəlmələri unutmaq olarmı?!..*

**Bu, siyasətdə, diplomatiyada, idarəetmədə illərin təcrübəsi ilə bişib-bərkimiş dövlət adamının kamillik məqamıdır.**

*LİDERİN zamanla bağlı mühüm məsuliyyətinin ifadəsidir həm də... Nəticələrin tez başa gəlməsinə tələskənlik göstərənlərə, səbrsizlənənlərə, vaxtı qabaqlamaq istəyənlərə, ya da xəbis niyyətlərlə yanlış rəy formalaşdırmağa can atanlara verilmiş ustad dərsidir!..*

❖❖❖

Siyasətdə ZAMAN çox qiymətlidir, onun düzgün hesablanması, qərarların, atılan addımların, gözləntilərin öz vədəsinə görə müəyyənləşməsi xalqın, dövlətin, cəmiyyətin həm də tale məsələsidir.

Cənab İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrü 20 illik tarix kimi nəzərdən keçirdikdə, bu illərin müxtəlif hadisə və proseslərini, qərarlarını, tədbirlərini kino lenti kimi göz önündə canlandırdıqda, indi bu həqiqəti anlamaq çox asandır.

*Azərbaycan Prezidenti neçə əsrin problemini cəmi 44 gün içində yoluna qoydu. Bundan ötrü isə illərlə hazırlıq gördü.*

*Özü də necə hazırlıq!!!*

*Ölkənin ictimasi-siyasi sabitliyinin təmin olunmasından, sosial-iqtisadi inkişafından tutmuş, ordu quruculuğuna qədər...*

Diplomatik fəaliyyətdən gənc nəslin yetişdirilməsinə, cəmiyyətdə milli vəhdətin təmin olunmasına və başqa belə mühüm işlərə qədər...

Belə bir hazırlıq prosesi üçün tutulmuş yolun, götürülmüş xəttin ardıcıllığı, həyata keçirilən tədbirlərin davamlı islahatlarla zaman-zaman kamilləşdirilməsi tələb olunurdu.

**Cənab İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi yola sadiqliyi və zamanı, vaxtın çağırışlarını son dərəcə həssaslıqla duyması, bu çağırışlara çevik reaksiyaları ilə lazımi hazırlıqları böyük məharətlə apardı.**

*Tarixi reallıqlara həssaslıqla yanaşdı...*

*Hər bir addımının öz məqamını səbirlə gözlədi...*

*Azərbaycan üçün heç bir fürsəti fövtə vermədi və bizi xalq olaraq əsrlərdən bəri ürəyimizdə göyərən ən böyük arzumuza qovuşdurdu!..*

**Şükür, min şükür!..**

❖❖❖

**...Və belə bir məqamdaca, Azərbaycan Laçın yolunda sərhəd-keçid məntəqəsi yaradıb ərazi bütövlüyünü bərpa etdiyini bütün dünyaya duyurur, illərlə bizə rişxənd edən, barmaq silkələyən ermənilər boyunlarını bükə-bükə dövlət bayrağımızın altından, Azərbaycan əsgə-**

təzyiq üsullarına şahid olandan sonra yenə kim inana bilərdi ki, Azərbaycan təkbaşına bütün bunlara duruş gətirə biləcək, illərlə Xankəndidə yuva qurmuş separatçı rejimin özünü buraxmasına, separatçıların silahı yerə qoyub torpaqlarımızdan rədd olub getmələrinə nail olacaq.

*Amma Azərbaycan duruş gətirdi, bunu bacardı!*

*Dediyini etdi, istədiyini aldı!..*

*Haqqı, ədaləti öz ünvanına çatdırdı!..*

*Hələ bir vaxtlar Xankəndidən Azərbaycana barmaq silkələyən petroslar, rubenlər, araiklər, yanlar...*

*Ax bu yanlar... Zəhrimar yanlar... Gorbagor yanlar..*

*Hə, indi necədir halınız?!*

*Alın a, yana-yana!..*

*Qalın a, yana-yana!..*

❖❖❖

İndi **Azad Xankəndidə** də asayişə Azərbaycan polisi keşik çəkir...

Xankəndidə millətimin oğlunu, milli komendantımızı görəndə gözlərim doldu.

*oynayırdı. Yerbəyerdən bizə doğru fəndgir gedişlər edilirdi. Kimsəyə boyun əyməyən bu müstəqil gücü sarsıtmaqdan ötrü ağlasığmaz kombinasiyalar qurulurdu...*

**Bir tərəfdə isə AZƏRBAYCAN idi!..**

**Müstəqil və sabit AZƏRBAYCAN!..**

*Burada xalqın sevgi dolu nəzərləri, etimad və milli ruhu ilə əhatə olunmuş Prezidentimiz diqqətini qarşısındakı ağ fiqurlara, ölkənin və xalqın süd kimi ağ gələcəyinə cəmləmişdi.*

*Qarşısındakı rəqiblərin bütün gedişlərini səbirlə izləyir, təhlil edir, nəticə çıxarırdı.*

**Və əlverişli məqam yetişən kimi, cəmi bircə tutarlı gedişlə, bədxah rəqiblərin hamısını mat vəziyyətinə salıb oyundan kənarlaşdıraraq, bu bəsirətə, bu zəkaya, bu Vətən sevgisinə alqışlarını əsirgəməyən, öz Liderini yeni zəfərlərə ruhlandıran xalqa doğru gülümsünürdü...**

*Bu mənzərə indi bir az da mürəkkəbləşib, dünya daha gərgin dünya, rəqiblər daha fəndgir və həyasız, oyun qaydaları daha çətin olub...*

***Amma nə qəm?!***

***Ağ fiqurlar yenə biz tərəfdə, bu işin bilicisinin əlində...***

***Azərbaycanın, yaşadığımız coğrafiyanın, bu torpaqlardakı insanların ağ bəxti, xoşbəxtliyi naminə mübarizə aparan, əsl qrosmeystr gedişləri edib rəqiblərini mat qoyan Lider - yenə həmin Lider...***

***Hünəri - daha böyük hünər...***

***Zəfəri - daha böyük Zəfər...***

***Qalibiyyət tarixi daha möhtəşəm!..***

***Allah Azərbaycanımızı və Sizi qorusun, Cənab Prezident!***

***Bu çətin, qarmaqarışıq dünyaya və... qısqanc liderlərə baxıram...***

***Və millət olaraq, hamılıqla, bir dua ilə, üzümüzü SİZƏ tutub rica edirik: Siz də, Siz də Özünüzü qoruyun, Cənab Prezident!..***

***Allah Amanında!..***



**İmamverdi İSMAYILOV**

Əbülfət MƏDƏTOĞLU



# Çingiz Əlioğlununun əli

## Mən hər zaman o əldən ümidlə tutmuşam

*Son vaxtlar köhnə dostum, dəyərli qardaşım, həyatımda özəl yeri olan Çingiz Əlioğlunu tez-tez xatırlayıram. Onunla bərabər keçən günlərimizi, xüsusilə ilin müxtəlif fəsillərində doğma Füzulidə, bizim Tuğ kəndində və digər səfərlərimizdə yaddaşımıza köçən anları, şəxsən mənim ömrümə hopan məqamları gözümün önünə gətirirəm. Və Çingiz Əlioğlunun bir ağayana görkəmi, həm də bir qardaş ərki ilə mənə uzatdığı əl hər zaman özümün də, ailəmin də ürəyincə olub. Bizim ümid saydığımız ünvanlardan birinə çevrilibdi. İstər xeyir, istər şər məclislərimizin yuxarı başında, ağsaqqal yerində olan Çingiz müəllim "Alnından ay doğan adam" kitabını 1983-cü ildə mənə avtoqrafla bağışlayanda heç işarə də vurmadı ki, o kitabın 126-cı səhifəsində yazdığı "Tuğ" şeirini mənə ithaf edib.*

*Təsəvvür edin ki, gənc bir yazı adamı üçün Çingiz Əlioğlu kimi imza sahibinin şeir hədiyyəsi hansı xoş anları insana yaşadır. Bax, mən həmin o xoş anların ömrümə hopmasına rəvac edən, məni dəyərləndirən Çingiz Əlioğlunu həmişə sözün gerçək mənasında başımın üstündə, yanımda görmüşəm. Bu gün də belədir. Mən kitab rəfimin önündə dayanıb növbəti layihə yazımı işləməyə hazırlaşanda içimdən qəribə bir hiss keçdi, məni utandıran hiss və gec də olsa günahımı yumaq üçün elə Çingiz müəllimin kitabını rəfdən götürdüm...*

*Azərbaycan ədəbiyyatında öz dəsti-xətti, öz imzası, öz sözü olan Çingiz Əlioğlu yaradıcılığı ölkə hüdudlarını aşıbdı. Onun kitabları neçə-neçə dillərə tərcümə olunub, yayılıb. Və mən onun poeziya bayramlarında, özü də müxtəlif ölkələrdə necə uğurla çıxış etdiyini, kitablarının ən böyük mükafatlara layiq görüldüyünün sevincini onunla bölüşmüşəm. Sözünün sanbalı hər zaman diqqət çəkən, şəxsiyyəti və həyat kredosu xüsusi önəm daşıyan Çingiz Əlioğlunun şeirləri fikir yükündən yoğrulub. Onu oxuyanda hər misra fərqli bir fikir kimi səni düşünməyə məcbur edir. Bax, elə indi sizə təqdim edəcəyim şeir də bu qəlbdəndir. İlk baxışdan hamının bildiyi, hətta bəzən hamının təkrarladığı adi bir həyat reallığı Çingiz Əlioğlu şeirində tamam başqa bir ölçüdə, biçidə, yükdədi:*



*Yerdə qalan nədir ki...*
*Yerdə qalan azdır, az, -*
*Beş-üç payız, beş-üç qış,*
*Bir də bəlkə, beş-üç yaz.*

*Doğurdan da, əgər ömrü beş gün hesab ediriksə, hətta zarafatla deyiriksə, şənbə-bazarın buna dəxli yoxdur. Onda niyə bu beş günün qədrini bilmirik, onu dəyərləndirmirik. Az və ya çox olduğunun fərqinə varmırıq. Mən də şair dostumun, ustadımın həmin fikrinə qoşularaq mözunun başqa bir səmtindən öz istəyimi, öz pıçıltımı misralayıram. Mən də yazıram ki:*

*Hər gün sənə zəngimi*
*Azaldıram...bir...iki...*
*Özüm də zəngim kimi -*
*Azalıram...bir...iki...*

*Doğurdan da, əgər maraq, istək, hətta sevgi azalmağa doğru gedirsə və biz də onu görüb məntiqi bir nəticə çıxarmırıqsa, burda günahkar axtarmağa daha lüzum yoxdur. Çünki günah da, günahkar da ortadadır. Və ortada olan həmin o günah da, günahkar da anlamalıdır ki, söhbət beş-üç gündən gedir. Bax, bunu anlamaq yolunu tam səmimi və özü də oynaq bir dillə Çingiz Əlioğlu şeirə gətirib. Əgər xatırlayırsınızsa, adamlar bəzən bir-birinin yaşını bayramlarla hesablayırdılar və deyirdilər ki, mən filankəsdən iki bayram böyüyəm. Təbii ki, söhbət burda iki ildən gedirdi. Elə Çingiz Əlioğlu da o xalq ruhundan qaynaqlanan fikiri bu cür ifadə edib:*

*Yerdə qalan nədir ki...*
*Beş-üç bayram, beş-üç toy.*
*Bir də... beş-üç dərd-qəmi*
*Sən bunların üstə say.*

*Bax, həqiqət budur və biz o beş-üçlərlə, bayramlarla, toylarla, dərdlə, qəmlə ömrü üyüdürük və bizə nə qalır. Çax-çaxın səsi, yoxsa yaşanmış normal bir ömür?! Bu sual hər gün, hər an o adamın qarşısını kəsir ki, həmin o adam ömrün gün batanına doğru üz tutub gedir. Özü də təəssüf edə-edə. Mən də həmin adamın toz qonmamış izi ilə addımlayarkən bu misraları pıçıldayıram:*

*Nəm daş kimi çopuram*
*Damla-damla qopuram...*
*Qopub yerə hopuram -*
*Sozalıram...bir...iki...*

*Xəyalım lələk salır*
*Gözündən ələk salır!*
*Ruhum da bələk salır -*
*Söz oluram...bir...iki...*

*Gördünüzmü, necə də sözə çevrilirəm, dilə-ağıza düşüb qınaq yeri oluram. Çünki nə ruhumun, nə ürəyimin səsinə zamanında səs verməmişəm. Gözüyumulu, dəliqanlı bir həyatın çaparı olmuşam. Nəticəsi də qazandığım həsrət, kədər, ağrılar və bir də bitməkdə olan limit. Təbii ki, ömür limiti. İndi anladığım bu gerçəkliyə Çingiz Əlioğlu misralarında mən 1983-cü ildə rastlamışdım. Çox təəssüf ki, yaşadığım tarixi zaman, baş verən hadisələr onu unutdurmuşdu mənə. Bu gün isə yenidən həmin şeiri oxuyub, həmin misraların fikir yükünü çözəndə, nə qədər böyük itkiyə məruz qaldığını anlayıram. Bu da gecikmiş anlamaqdır. Çingiz Əlioğlu isə onda da, indi də yazıb və deyir:*

*Yerdə qalan nədir ki...*
*Beş-üç görüş, ayrılıq.*
*Sonra...uzun bir yuxu...*
*Bir də gizli...bir ümid -*
*Bəlkə...bir də ayrıldıq...*

*Hə, bax elə o bəlkənin, yəni Çingiz Əlioğlununun işarə etdiyi azacıq ümid bəlkəsinin ətəyini əldən buraxmayım, yapışım ondan. Yolumu, izimi təzələmək üçün, böyük ümidə qovuşmaq üçün. Sənin kipriyini kölgəsində arzularımı çiçəkləndirmək üçün. Sənin yanında olmaq, səndə tamlanmaq üçün. Çox da ki, yolum əvvəldə dediyim kimi, ömür dağından aşıb. Amma hələ hər şey bitməyib, qurtarmayıb. Bunu təkcə mən demirəm, bunu böyük qardaşım, ustadım Çingiz Əlioğlu da deyir. O vurğulayıb, mən də ondan öz səviyyəmdə nəticə çıxarmışam və şeirini belə tamamlamışam:*

*Yolum haqqa-gorgaha...*
*Nə bax, nə də sor daha!*
*Külüm deyil, qor, daha -*
*Toz oluram...bir...iki...*

*Bəli, mən saya-saya, saymaq öyrənənlərdən fərqli olaraq Çingiz Əlioğlu şeirinin diktəsində hələ ümidin bitmədiyinə əminlik qazandım. Necə deyərlər, ustadım bu dəfə də əlini mənə uzatdı. Allah ona ömür versin. Sağ olun, Çingiz Əlioğlu, yaxşı ki, varsınız!*

# Erməni dostunun azərbaycanlı yazıçıya hər il yazdığı mesaj: "Axırda..."

(əvvəli ötən sayımızda)

### "Mən öz sözümə baxan adamam"

**- Seyran müəllim, mən bir dəfə oxudum ki, siz roman yazmazdan əvvəl yazı masanızı öpürsüz, tumarlayırsız...**

- Ona yaltaqlanıram da...

**- Yəni bu yanaşmanın uğur gətirəcəyinə sizdə mistik inam var?**

- Hə, bir növ özümü inandırmışam, özü də inandırmaqda çox zəhmət çəkməmişəm, mən özüm öz sözümə baxan adamam. "Sitizen" saatım vardı, bir də "Təxti Cəmşid" təsviri olan qızıl üzük. Saatı çıxarırdım, üzüyü də qoyurdum üstünə. Bir ay təxminən hər şeydən imtina edirdim. Natiq Səfərovla, Ramiz Rövşənlə, heç kəslə görüşmək olmaz, heç kəslə.

Əsas birinci cümləni tapmaqdı. Mənim iki hissəli "Qaçhaqaç" romanım təxminən min səhifədi. Öz həyatımdan - məndən keçən və mənim keçdiyim adamlardan yazmışam. Birinci cümləni mən aparmalıyam, yerdə qalan bütün sözlər məni aparmalıdı. Çünki sən sözü uzaqbaşı bir cümlə məsafəsinə qədər apara bilərsən, amma söz səni min cümlə məsafəsinə də apara bilər.

**- Romandan yenidən şeirə keçid etmək istəyirəm, çünki siz dediyiniz kimi, bunlar bütöv mənada, "Seyran Səxavət yaradıcılığı" kimi qəbul edilməlidir. Sizin "İlk məhəbbət, son məhəbbət" şeiriniz on ən yaxşı sevgi şeirindən biri seçilib. Deyirsiz ki, "İnsan bir dəfə doğulduğundan, elə bir dəfə də sevə bilərmiş". Siz bu şeiri yazanda doğrudan buna inanırdız?**

- Bəli. Bu şeir yazılıb 22 yaşın içində. Mən yazanda ki, insanlar bir dəfə doğulduğundan elə bir dəfə də sevə bilərmiş, buna yüz faiz inanırdım. O obyekt də məlumdur, indi həyatdadır. Şeir kənd cavanının şəhər qızına olan sevgisiylə bağlı yazılmışdı. Ata-ananın ərköyün bircə qızı...

Otuz yaşdan sonra mən anladım ki, özümə şər atmışam. İnsanlar bir dəfə doğulduğundan elə min dəfə də sevə bilərmiş. Həyat davam edir. Sevgi də adam kimidi. Adamlar doğulur, yaşayır, ölür. Sevgi də elədi. Amma iki seriyalı sevgilər də var, filmlər kimi. Sevgi var bir seriyadı, qurtardı, öldü getdi. Yeddisi, qırxı çıxmamış da unudulub gedir.

Elə sevgi var ki, hörmətə çevrilir. Onu da təşkil etmək mümkün deyil, gərək öz-özünə baş versin. Sevgi hörmətə çevriləndə qala bilir, nümunə ola bilir, başqalarının qibtə obyektinə və məkanına çevrilə bilir.

**- Belə çıxır şeirdə həqiqətdən çox yalan var.**

- Bir türk mahnısının sözlərini eşitmişdim, çox xoşuma gəlmişdi: "Öylə bir yalan de ki, inanmayım yalandı". Füzuli baba nə deyir? "Aldanma ki, şair sözü əlbəttə yalandı".

**- Bu misralardakı hisslərin ölməzliyinə elə inanmaq istəyir ki, insan.**

***"Sıxma ürəyimi, ürək cəhənnəm,***
***Axı sən ordasan, sən sıxılarsan".***

- Bayaqkı şeirin sonudu. Məhəbbət Kazımov mahnı da yazıb, məşhur mahnıdı. Bu şeiri o vaxt qızlar "Xatirə" dəftərinə yazırdılar. Sonra bizim arvadın da "Xatirə" dəftərindən çıxdı. Çox populyar şeir idi, adamlar bir-birinə göndərirdilər.

O şeirin hesabına mən təxminən 1200 manat pul qazanmışam. "Qaçhaqaç" romanında yazmışam bunu.

22 yaşında şərqşünaslıq fakültəsinin 3-cü kursunda oxuyurdum. Bizim bir məşhur şairimiz zəng etdi ki, radiodan səni axtarırlar. Şaxtalı bir qış günü idi. Getdim. Dedi, sənin şeirlərin xoşuma gəldi, gəl 10 dəqiqəlik "Poeziya dəqiqələri"ndə şeirlərini oxu. O vaxt o verilişə Məmməd Rahim, Bəxtiyar Vahabzadə kimi məşhur şairlər çıxırdı.

Mənim o verilişə çıxmağım qeyri-mümkün bir şey idi. Amma çıxdım. Qonorarı da çox yüksək idi, 10 dəqiqəyə 1200 manat aldım mən. Pulu alandan sonra dərslərimi yarımçıq qoyub getdim Moskvaya. Dərs zad yaddan çıxdı.

Otuz beş-qırx il sonra həmin şairlə Moskvada liftdə "naxalni" görüşümüz oldu. Dedi, indi sən maşallah addı-sanlı adamsan, bəs nə əcəb o vaxt soruşmadın ki, ay filankəs müəllim, bu nə hörmət idi, sən mənə elədin? "Poeziya dəqiqələri"ndə tələbə oğlanın çıxış etməyi mümkünsüz bir şey idi.

Dedim, yəqin şeirlərim xoşuna gəlib. Dedi, həm də ona görə. Mən bir xanımı sevirdim, necə oldusa, kobudluğum tutdu, onu incitdim, o da məndən üz döndərdi. Məktublarıma cavab vermir, zənglərimə cavab vermir. Axırda "Azərbaycan" jurnalında sənin bu şeirini, "İlk məhəbbət, son məhəbbət" şeirini kəsdim, ümidsiz göndərdim onun ünvanına.

8 gündən sonra, zəng gəldi. İşdə bir telefonum vardı, ancaq evdən zəng edirdilər ona. Bir də gördüm telefon zəng çaldı. Elə bildim arvad yenə deyəcək filan şey al, filan şey al. Amma o xanımın səsi gəldi, adımı da çox nəvazişlə çəkdi... Bax, ona görə səni çağırdım, sən o xanımı mənə qaytardın o şeirinlə.

### "Ortaya nəsə qoy, biz də baxıb öyrənək"

**- Bu gün Azərbaycan ədəbiyyatının ən böyük problemi nədir?**

- Ədəbiyyatın bircə problemi var, heç o da ədəbiyyatın problemi deyil, oxucuların problemidir. İndi kitab oxuyan azdı. Ədəbiyyat onsuz da yaranır. Bu gün oxunmayacaq, sabah oxunacaq. Ədəbiyyata gündəlik tələbat malı kimi baxmaq lazım deyil. Ədəbiyyat şüurun, hissin ən yuxarı zirvəsində məskunlaşmış bir şeydi. Ədəbiyyat Allah kimi bir şeydi. Ədəbiyyata təşkilat kimi baxmaq lazım deyil. Ədəbiyyat onsuz da öz işini görür. Başını aşağı salıb adam balası kimi öz işinlə məşğul olanda həyatın da, sənətin də orda gedir, hörməti də orda qazanırsan.

Təxminən 25 il qabaq bəzi cavanlar ortaya çıxmışdılar, mənimlə də görüş keçirdilər.

Gördüm bunların arasında istedadlı cavanlar da var. Amma əxlaq deyilən bir şey var də.

Əxlaq deyəndə Azərbaycan xalqı ancaq yorğan-döşək söhbətini gətirir gözünün qabağına. Ancaq əxlaq çox geniş məfhumdur, Kainatdan sonra Əxlaq gəlir mənim aləmimdə.

Gördüm bunların o məsələdə bir az əlləri aşağıdı. Axırda mənə sual verdilər ki, bu görüşdən bizim haqqımızda hansı fikirlərlə ayrılırsız? Dedim, sizə qulaq asdım, içinizdə istedadlı cavanlar var. Amma bir şey hiss elədim, çalışın özünüzü ondan qoruyun. Hamınız başınızın razmerindən böyük danışırsız.

Həmin cavanlar heç kimi bəyənmədilər, gündəmə gəlmək üçün Üzeyir bəydən, Cəlil Məmmədquluzadədən tutmuş Səməd Vurğun, Rəsul Rza, Bəxtiyar Vahabzadəyə qədər hamını tökdülər çölə. Ən çox tənqid olunan da Anar oldu. Hikkələri bəraətlərindən dəfələrlə böyükdü. Demirsən ki, ədəbiyyat belə olmalıdı? Ortaya qoy, biz də baxıb "öyrənək də". Deyənlərin yaşı 50- i keçib, hələ ortada heç nə yoxdur.

Bəziləri ağızları köpüklənə-köpüklənə deyir ki, Şuşanı qaytardılar, bəs niyə əsərlər yazılmır? Bu, ədəbiyyat deyil.



Qabaqlar SSRİ vaxtı sosializm yarışı vardı, ona bənzəyən bir şeydi. Ədəbiyyatın öz tempi, öz hövsələsi var. Öz qəbahəti və öz bəraəti var. Sən kimsən ədəbiyyata sifariş verəsən?

İkinci Qarabağ müharibəsindən əvvəl bizi - bir neçə yazıçını bir proqrama dəvət etmişdilər. Aparıcı bizi ortaya qoyub sinif rəhbəri kimi danlayırdı. "Niyə müharibədən yazmırsız?" və bu kimi şeylər.

Dedim, mən bütün ərkim keçən dostlarıma - Musa Yaquba, Ramiz Rövşənə, Sabir Rüstəmxanlıya, Vaqif Bəhmənliyə Qarabağ haqqında yazmağı qadağan eləmişəm. Çünki Qarabağ məsələsi artıq ədəbiyyat mövzusu deyil, müharibə mövzusudu, döyüş mövzusudu.

Qarabağ haqqında ən mükəmməl və ən vacib əsəri Ali Baş Komandan Azərbaycan əsgəri ilə bir yerdə yazmalıdı. Şükürlər olsun ki, yazıldı. Poemada, povestdə, romanda alınan Qarabağ mənə lazım deyil. Mənim də az-çox fantaziyam var, bir obraz yaradaram, Rembo kimi qıra-qıra düz gedər İrəvana qədər.

Mənə Qarabağ lazımdır, gedib İsa bulağında ovcumu doldurub naturada su içim, torpaqla üz-gözümü yuyum. Şükürlər olsun ki, o əsər yazıldı. Son iki yüz ilin ən vacib əsəri!

**- Yəqin ki, Qarabağla bağlı mənəvi yükünüz çox böyük idi...**

- Bilirsən, adama ən çox ağır gələn nə idi? Sənin əlinə baxan bir millət başqasının hesabına gəlib sənin torpaqlarını alır, sənə diqtə edir. Çox ağır məsələdi. Bu, hətta torpağın işğal olunmasından da min dəfə ağır bir şeydi.

Mənim bir erməni dostum vardı: Levon Adyan. Ağdərədən idi. Yaxın dost olmuşduq, Azərbaycan ədəbiyyatçıları onun xətrini çox istəyirdi. Bu hadisələrdən sonra köçüb getdi Peterburqa. İldə bir dəfə mənə mesaj yazırdı: "Bezslov". ("Sözsüz"). O iki kəlmə mənə bir il bəs edirdi. Başı aşağı, dili gödək nə qədər yaşamaq olardı?

Qarabağ azad olunandan sonra ona bircə dəfə yazdım. Yazdım ki, "bez slov"...

**- Bəs siz yazandan sonra cavab gəlmədi?**

- Yox, cavabı məndən əvvəl Azərbaycan ordusu vermişdi.

**- Kin-küdurətə baxın! Bu illər ərzində hər il Qarabağı aldıqlarına eyham vurmaq!.. Qələbədən üç il keçib, bəlkə siz də onun etdiyi kimi, hər il bu sözü yazıb göndərməliydiz.**

- Yox, elə bircə dəfə göndərdim. Mən ayrı kişiyəm axı. Mən azərbaycanlıyam, o isə ermənidi.

**- Yurd yerinə getdinizmi?**

- Kəndimiz azad olunandan üç gün sonra getdim. Amma yaxşı qurtardım...

**- Ərazi minalanmışdı?**

- Yox, başqa məsələdi. Məni qeyri-qanuni bir polkovnik dostum aparmışdı. Bizim kəndimiz gözəl bir gölün kənarında yerləşirdi. Ordan Şuşaya 40 km yol var. Molla Nəsrəddin yolu - yəni qısa yol. Dağ çayı boyunca gedirsən, meşəlik, cırcıramalar da burdan oraya kimi oxuyurlar səninçün. İndi kənddən əsər-ələmət yoxdu, göldən bildim ki, bizim kənddi... Dostuma dedim ki, məni tez çıxarın burdan. Orda çox qalmaq çətin olardı...

**- Xankəndi də düşməndən təmizləndi. Təbii ki, hamımız buna sevindik. Qarışıq duyğular yaşayanlar da vardı. Məsələn, bəzi yazı adamları dinc ermənilərin köçünə baxıb sevinə bilmədiklərini bildirdilər. Sizin içinizdəki sevinc hissini qısnayan bir hiss varmı, məsələn, mərhəmət kimi?**

- Mən bir dəfə bir görüntüyə baxdım. Orda Zori Balayan bir qadına müsahibə verirdi. Bu danışır, erməni anası olan qadın da hayıl-mayıl olub ona qulaq asırdı. Zori Balayan deyirdi ki, türk balasını pəncərəyə mıxlayırdıq. O bağırırdı, səsi qulağımıza gəlirdi. Bu səs bizə ləzzət edirdi. Amma birdən bizə elə gəldi ki, onun ağzını yummaq lazımdı, anasını da tutmuşduq, onun döşlərini kəsib, uşağın ağzına basdıq ki, səsi kəsilsin...

Mən dünyanın ən alçaq canlısına mərhəmət göstərə bilərəm, amma bunlara rəhm edə bilmərəm.

### "Yusif Səmədoğlu ilə oturub hottadardıq"

**- Seyran müəllim, dediyiniz kimi, siz İranda şahın dövründə iki il tərcüməçi işləmisiz. Necə xatırlayırsız o illəri?**

- Şah azərbaycanlıların bütün hüquq və bərabərliklərini əlindən almışdı, ermənilərin isə neçə məktəbi, qəzeti, kilsəsi - hər şeyi vardı. Amma indikilərə baxanda şaha min şükür.

Şahın dövründə tərəqqi vardı. Həm İran dünyanın ən maraqlı məkanlarından biridi. Ora mənimçün türk məmləkəti kimi bir şeydi. Neçə yüz il orda türklər şahlıq ediblər. Sonuncu şah Rza Pəhləvi idi, onun da xanımı azərbaycanlıydı.

**- Fərəh xanımla görüşdünüzmü heç?**

- Yox, şahın qayınanası ilə görüşmüşəm. Ququşla görüşmüşəm. Şahın bacısı vardı, Əşrəf Pərləvi, idman işlərinə baxırdı, onunla görüşmüşəm. Mənim "Daş evlər" romanımın bir xətti elə İranla bağlıdır.

**- "Qaçhaqaç" romanı həyatınızdan keçən qələm dostlarınıza həsr olunub. Bəs indi hansı şair və yazıçılarla üzbəüz oturub söhbət etmək istərdiz? Yaşadığı dovrdən və məkandan asılı olmayaraq...**

- Məsələn, Ziqfrid Lenslə (almandı) oturub bir pivə içərdim. Gürcü Nodar Dumbadze ilə söhbət etmək istərdim. Onunla görüşmüşəm də. Möhtəsəm insan və çox istedadlı yazıçı idi. On ildən bir onu başdan ayağa oxuyuram.

Azərbaycana gəldikdə, Yusif Səmədoğlu ilə oturub, onun özü demişkən, hottadardıq. Sonra qarabağlı yazıçı var, əjdaha, "Qatarda" tamaşasını yazıb, İşi Məlikzadə, bax, onunla uzaq səfərə gedərdim. Amma mənim işim bununla qurtarmır axı. Tutaq ki, mənim on yazıçı dostum olubsa, min qeyri yazıçı dostum da olub.

**- Bəli, deyilənə görə, dostlarınız arasında hətta qırçılar da olub. Müxtəlif peşə sahibləri ilə dostluq etmək obraz tapmaq istəyindən irəli gəlib?**

- Obraz axtarmaq istəyi nəinki məndə, yazıçıların heç birində olmur. Bu sadəcə onun həyatıdır. İstəsə belə onu özü təşkil edə bilməz. Bunda sadəcə belə alınıb. Mənim həyatımda o qədər maraqlı adamlar olub ki. Adil Hacıyev, Zeynal Zeynalov - dünyanın ən maraqlı adamlarından idilər...

**- Seyran müəllim, sözə sevgi adətən genetik olur. Övladlarınızdan sözə, qələmə meyilli olan varmı?**

- Yox, yoxdur. Bəlkə ona görə ki, onlar da bayaq tənqid etdiyim gənclər kimi pis dövrə - keçid dövrünə düşdülər. O vaxt bir qəzet vardı, "Oxu məni". Orda bir rubrika vardı, məşhur adamların uşaqlarından müsahibə alırdılar. Bir xanım mənə zəng vurub uşaqlardan müsahibə almaq istədiyini bildirdi, dedim, gəlin.

Əvvəl Orxana üz tutdum. Dedi, bir o qalıb ki, mənim şəklim qəzetdə çıxsın? Toğrula dedim, o da razı olmadı. Qızım Ləman 8-ci sinifdə oxuyurdu, dedi, mən danışaram. Yaxşı da müsahibə vermişdi.

Hətta müxbir Ləmana sual vermişdi ki, qardaşlarınla necə yola gedirsən? Demişdi, "itlə pişik kimi. Amma bir-birimizi çox istəyirik".

Müxbir gedəndə Orxana dedim ki, ötür xanımı. Gordüm xanım deyir ki, Orxan, yaxşı, müsahibə vermirsən, heç olmasa de görüm Seyran Səxavətin əsərlərini oxumusan? Bu da dedi ki, mən heç Məhəmməd Füzulini oxumuram, Seyran Səxavəti oxuyacam?

*(Gülüşmə).*

**- Sozü adətən gül qoxusu, yarpaq qoxusu ilə müqayisə edirlər. Siz isə belə bir ifadə işlətmisiniz: sözün üfunət qoxusu. Söz nə vaxt üfunət qoxusu verir?**

- Bu suala qısa cavab verəcəyəm. Sözün yükü yalan olanda it iyi verir... Türkiyə türkcəsindən dilimizə keçən bir deyim var, məsələn, deyirlər, "filankəs sözünü tutmadı". Söz quş zaddı onu tutum? Bəs Azərbaycan dilində necə deyirlər:

"Filankəs sözünün üstündə durmadı". Çünki sözünün üstündə durmaq hər kişinin işi deyil.

Söz bütün böyüklüyülə, nəhəngliyilə həm də sürüşkən şeydi, çoxları onun üstündə dura bilmir, yıxılır...

**Teleqraf.com**

# "Deyərsiz, Şuşasız ölmədim mən də..."

**Mədəniyyətimizin zəngin bilicisi, sözlu-nəğməli Zülfüqar Əliyevin vəfatından 40 gün ötür.**

Düz yarım əsrə yaxın ömrünü mədəniyyətimizin inkişafına həsr etmiş Zülfüqar Əliyev bu ilin sentyabrın 13-də 73 yaşında gözlərini bu dünyaya əbədi yumdu.

Bəli, indi o, ruhlar dünyasının sakinidir, torpaq əmanətidir. Onun işıqlı xatirələri və xeyirxah əməlləri yenidən bizimlədi.

İndi bizi görür, ondan danışıb, yazdığımızı hiss edir. Ulularin fikrincə desək, bizim dünya ömrünü xalqının xoşbəxt sabahı, rifahı üçün şam tək əridən bu cür ziyalıların nuruyla işıqlanır. Bəs kim idi, Zülfüqar Əliyev, niyə sevirdi ictimaiyyət onu?. Bir cavabı var: onu tanıdan, onu sevdirən özü qədər sevdiyi mədəniyyət sahəsindəki uğurlu fəaliyyəti, fədakar əməyi idi.

Zülfüqar Nadir oğlu Əliyev 1950 ci il mart ayının 24 -də Biləsuvar rayonunun Təzəkənd kəndində dünyaya göz açıb. Böyük külfət sahibi olan Nadir kişinin 11 övladından üçünçüsü idi, Zülfüqar. Bu ailədə tərbiyə alan Zülfüqar Əliyevin sonradan cəmiyyətdə layiqli mövqe tutmasında, sayılıb-seçilən ziyalı kimi yetişməsində, xalqımızın adət-ənənələrinin, mədəniyyətinin zəngin bilicisi, sözlü-nəğməli sənətkarı kimi formalaşmasında Nadir atanın böyük əməyi olmuşdur.

19 yaşlı gəncin mədəniyyət-incəsənət sahəsinə qəlbən vurğunluğu, onun gələcək həyatı ilə bağlı qurduğu xəyallar dünyasının romantikası düşüncələrini büs-bütün bürümüşdü. Elə bu sevgi onu 1969 cu ildə Bakı Mədəni Maarif Texnikomunda təhsil aldığı müddətdə ilk iş fəaliyyətinə Biləsuvar (keçmiş Puşkin )rayon Mədəniyyət evində kitabxanaçı vəzifəsinə gətirmişdir. Böyük arzuları onu hərbi xidmətdən sonra yenidən Azərbaycan Dövlət İncəsənət İnstitutunun tələbəsi edir. "Mədəni maarif işçisi. Özfəaliyyət teatr kollektivi rəhbəri"ixtisasına yiyələnir.

Həmin illərdə o, Azərbaycan mədəniyyətinin-incəsənətinin tanınmış nəhəng simaları, kino-teatr sahəsində möhürünü vurmuş xalq artistləri Rasim Balayev, Telman Adıgözəlov, Ramiz Novruz, Kubra Əliyeva, Gülşən Qurbanova kimi bənzərsiz sənətkarlarla yaxın təmas qurur, eyni səhnəni bölüşmək imkanı qazanır.

Ali təhsilini başa vurduqdan sonra mədəniyyət sahəsində püxtələşən 21 yaşlı gənc Zülfüqar Əliyev doğma rayonuna dönür. 1971- ci ildə Biləsuvar Rayon Mədəniyyət (Evi) Mərkəzinin direktoru təyin edilir. Gənc, enerjili, istedadlı və bacarıqlı sənət adamı ilk gündən burda onlarla gənci ətrafına toplaya bilir, onları bu sahədə təhsil almağa həvəsləndirirdi. İstəyinə nail ola bilir. Gənclərin incəsənət sahəsinə marağının artması nəticəsində rayonda dövlət tərəfindən möhtəşəm Mədəniyyət Mərkəzinin tikilməsinə qərar verildi. Bundan sonra Mərkəzdə daha möhtəşəm və təm-təraqlı tədbirlər geniş vüsət almağa başlayır.

Paytaxtdan gələn Xalq artistlərinin ,xanəndələrin müxtəlif dram teatrlarının vaxtaşırı çıxışlarının sayı günü- gündən artdı.



Ümumilikdə rayon Mədəniyyətinin inkişafında layiqli töhfələr vermiş, ömrünü mədəniyyətə, incəsənətə həsr etmiş Zülfüqar müəllim, öz təşəbbüsü ilə 80-ci illərdə də bir-birinin ardınca çoxlu uğurlara imza atıb.

1986 cı ildə "Şəhriyar" və "Muğan" estrada ansanbılını, 1987 ci ildə ilk folklor rəqs qrupunu yaratmaqla bir çox televiziya proqramlarında və dövlət tədbirlərində çıxış edirlər. Mədəniyyətin canlanması rayonda keçirilən bayram tədbirlərinə, el şənliklərinə sanki yeni ruh verir.

Əslində Zülfüqar müəllim çalışdığı illər ərzində heç bir təmənna ummadan ərsəyə gətirdiyi layihələrdən özü də zövq almışdır. Onun üçün "çətindir", "mümkün deyil" ifadəsi olmayıb. Bu cür büllur ömür sahibi İşlədiyi dövrlərdə daim istedadlı gənclərin inkişafına dəstək vermişdir.

26 il rayon Mədəniyyət Mərkəzinə rəhbərlik etdikdən sonra Rayon Dövlət Rəsm Qalereyasının rəhbəri kimi fəaliyyətini davam etdirmişdir.

Fədakar mədəniyyət işçisi Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda canlarından keçən şəhid oğullarımızın əbədi yaddaşlara həkk olunması üçün, eləcə də Qarabağ həqiqətlərini əks etdirən onlarla yerli və beynəlxalq rəsm əsərlərinin sərgi təşkilatçısı olub. Rayonunun 1-ci və 2-ci Qarabağ müharibəsi şəhidləri haqqında kitabın ərsəyə gəlməsində yaxından iştirak etmişdir. Bu vətənpərvərlik, xalqına, millətinə olan sonsuz sevgi Zülfüqar müəllimdə təsadüfi deyil, evdən başlayırdı. AZƏR, ŞƏHRİYAR, ASİMAN adlı üç oğul övladına qoyduğu sevgi dolu adlar, onun yaşadığı məmləkətimizə, doğma yurdu Biləsuvarın tarixi- kökünə olan dərin məhəbbətinin səsi idi. Vətəninə sadiq böyüyən bu övladlar da indi ali təhsilli müəllim, mühəndis kimi yetişərək xalqın xidmətindədirlər.

Zülfüqar müəllimin kiçik qardaşı Sədrəddin Əliyev qardaşı ilə bağlı xatirələrini bizimlə bölüşür. Deyir ki, 3 il öncə Qarabağımız-Şuşa şəhəri yağılardan azad olarkən Zülfüqar müəllim göz yaşlarını sel kimi axıtdı. "Mədəniyyət beşiyi idi, Şuşa Azərbaycanın. Baxan gözümüz, danışan dilimiz idi, bu bənzərsiz şəhər.

Çox şükürlər olsun, Allaha. Şəhidlərimizin qanı,canı ilə azad etdi ordumuz. Var olsun, cənab Ali Baş Komandanımız! 70 yaşımda bunu gördüm, qəlbimdə başqa istəyim qalmadı, qurbanlığı aparıb Şuşada kəsib ehsan edəcəm. Deyərsiz, Şuşasız ölmədim mən də! " dedi, Zülfüqar qardaşım. Onun niyyət etdiyi qurbanlıq arzusunu özüm tezliklə Şuşada reallaşdıracam.

Bəli, 73 il ömür sürən Veteran mədəniyyət işçisi, incəsət ustası, məclislərin sazlı -sözlü nəğməkar şairi Zülfüqar Əliyev yaşadığı bu şərəfli ömrün düz 44 ilini sərasər yorulmadan yaradıcılıqla məşqul oldu.

Dövrünün bir çox mükafatlarına layiq görüldü. 4 övlad, 8 nəvə sahibi olan Zülfüqar müəllim, onu tanıyanların yaddaşında qayğıkeş insan, bacarıqlı mədəniyyət işçisi, gözəl ailə başçısı, mədəni bir insan kimi qalmışdır.

Son nəfəsində belə Allaha əmanət etdiyi övladları bu gün onun adını uca tutmaqdan ötrü əllərindən gələni əsirgəmir. Bu ocaqda isə onun sağlığında adını verdiyi oğul nəvəsi balaca Zülfüqar böyüyür.

**Ruhun şad, yerin Behişt olsun, Zülfüqar müəllim.**

**Samir Qurbanov,**
**Biləsuvar**

Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 41 (2365) 27 oktyabr 2023-cü il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# LAÇIN - İSTİ OCAQ

**Heç kimin ağlına gəlməzdi ki, qısa zaman kəsiyindən sonra Laçında çox böyük abadlıq, tikinti və inşaat işləri görüləcək. 2020-ci il 10 noyabr Bəyannaməsindən sonra ermənilər razılığa gəldilər ki, Laçını tezliklə tərk edəcəklər. Əlbəttə, müəyyən zaman kəsiyindən sonra üç ölkənin dövlət başçılarının imzaladığı bu Bəyannamə icra olunmağa başladı. Laçının kəndləri və əksər yaşayış məntəqələri ermənilər tərəfindən boşaldıldı. Və bircə Laçın şəhəri qaldı, o da Bəyannamədə göstərilmişdi ki, 5 kilometr məsafədə sülhməramlı qüvvələr yolda hərəkət edən ermənilərin təhlükəsizliyini təmin edəcək.**

Təbii ki, qısa zaman kəsiyində Laçın şəhərinə qayıtmaq üçün dövlət başçısı İlham Əliyevin göstərişi ilə Laçın şəhərinə keçməmək şərtilə alternativ asfalt yol çəkildi. Bu ən möhtəşəm bir layihənin icrası idi. Yol istifadəyə verilməklə demək olar ki, Laçın şəhəri də sülhməramlıların nəzarətindən götürüldü və orda məskunlaşmış ermənilər şəhərdən çıxarıldı.

Əlbəttə, belə bir füsünkar, gözəl təbiətə malik olan şəhəri diqqətsiz qoymaq olmazdı. Məhz yenə ölkə başçısı cənab İlham Əliyevin tapşırığı əsasında Laçın şəhərində çox böyük abadlıq və quruculuq işlərinə start verildi.

Düzdür, Laçın şəhəri Ağdam, Füzuli, Zəngilan, Cəbrayıl və Qubadlı kimi dağıdılmamış, əksər yaşayış binaları salamat qalmışdı. Bu da onunla bağlı idi ki, ermənilərin xarici ölkələrdən gətirdikləri əhalisi orda məskunlaşmışdı. Onlara da söz verirdilər ki, qorxub eləməyin, burda sizə hər cür şərait yaradacaq və işlə təmin edəcəyik.

Bu ermənilərin "dayılarının" Laçında məskunlaşmış insanlara olan vədləri idi. Amma bir müddətdən sonra onlar gördülər ki, separatçılar və Ermənistanda vəzifə başında əyləşmiş şəxslər onları aldadıblar və pis vəziyyətə qoyublar. Ona görə də Laçını tərk edərkən bir çox ermənilər qəzəblənərək bəzi evləri yandırdılar və hətta tualetin unitazlarını belə söküb apardılar.





Aydındır ki, bizim ermənilərin heç bir avadanlığına, əşyasına ehtiyacımız yox idi. Çünki Azərbaycan iqtisadi və hərbi cəhətdən elə bir qüdrətli dövlətdir ki, xaricdən heç bir yardım almadan işğaldan azad olunmuş yaşayış məntəqələrini yenidən tikmək və qurmaq gücünə malikdir. Bunu biz həm Füzulidə, həm Ağdamda, həm Cəbrayılda, həm Zəngilanda, həm Qubadlıda , həm də Kəlbəcərdə gördük.

Laçında isə demək olar ki, elə bir tikinti işləri görülür ki, bu möhtəşəm bir tarixdir. O tarixi görmək və yaşamaq laçınlılar kimi, bizim üçün də çox şərəfli və gözəl bir andır. Laçının hansı küçəsinə, hansı məhləsinə, hansı yerinə qədəm qoyursan orda böyük tikinti, abadlıq işlərinin şahidi olursan.

Laçının mərkəzində demək olar ki, əksər yaşayış binaları yenidən tikilərək tam istifadəyə yararlı hala gətirilib. Üstəlik də ermənilərin dağıtdığı yarımçıq binalar da əsaslı təmir olunub. Sosial obyektlər, xəstəxanalar, məktəblər, uşaq bağçaları demək olar ki, hamısı yüksək səviyyədə və keyfiyyətlə tikilərək istifadəyə verilib. Şəhərin mərkəzinə asfalt yol çəkilib. İşıq, qaz və su xətti demək olar ki, tam istismara hazırdır. Hazırdır deyirik ona görə ki, yəni mənzilinə köçmək istəyən, daha doğrusu köçürülən istənilən laçınlı sakin otağa girən kimi işığını yandıra biləcək, suyu gələcək və ocağını təbii qazla isidəcək. Laçına köçmüş bir neçə sakinlə söhbət edirik. Onların sevincinin həddi-hüdudu yoxdur. Ən azından ona görə ki, 30 ildən sonra doğma şəhərlərinə qayıdıblar. Laçına qayıdanlardan biri də 75 yaşlı Nəsir Cabbar oğlu Kazımovdur. Nəsir kişinin çöhrəsindən sevinc yağır. Deyir ki, oğul, elə bilirdim öləcəm, Laçını görməyəcəm. Amma Allah-Təala mənə ölməmişdən əvvəl Laçını görməyi qismət elədi. Bir də niyə ölürəm ey?

Belə havanı udan, suyu içən, torpağın üstündə gəzən insan heç ölərmi? Allaha and olsun ki, Laçına gələn günü səhərə qədər sevincimizdən yata bilmədik. Oğlanlarım, gəlinlərim hamısı bu gözəl, yaraşıqlı otaqda toplaşdı. Axşam da çox dadlı bir Laçın aşı bişirdik. O aşı qaçqınlıq dövründə də bişirirdik ey, amma belə ləzzətli deyildi. Çünki nə yeyirdiksə elə bil balıq sümüyü kimi boğazımızda qalırdı. İndi bizə burda dördotaqlı mənzil veriblər. Allah prezidentimiz İlham Əliyevin canını sağ eləsin və ordumuzu qorusun. Bax, onların hesabına biz bu isti ocaqda oturmuşuq. İnanın, evə girəndə elə bil dünyanı mənə verdilər. Heç inanmızdım ki, bizim üçün belə yaraşıqlı, gözəl mənzillər tikilib. Tək bizim yaşadığımız mənzil yox, yeni tikilmiş mənzillər belə yaraşıqlı və gözəldir.

Nəsir kişi deyir ki, burda biz bekar dayanmırıq. İki oğlum tikintidə işləyir, həyat yoldaşım da xəstəxanada tibb bacısıdır. Bir nəvəmi də işlə təmin ediblər. Əsas məsələ odur ki, şəhərdə əvvəllər adam az idi , indi küçəyə çıxırsan, bazar-dükana gedirsən görürsən, maşallah, nə qədər köhnə qonşular, qohumlar var. Laçından Kifayət xanım da bu yurdun gözəlliyindən, əsrarəngliyindən söhbət açır. Deyir ki, qardaş, gəlib Laçını gördüm elə bil dünyanı mənə verdilər. Allaha and olsun bəlkə də Laçın dünyanın ən gözəl yerlərindən biridi. Havası təmiz olduğu kimi , insanları da təmiz, sadə və səmimidir. Kifayət xanım düz deyir, kiminlə söhbət etdiksə hamı bizi evinə qonaq dəvət elədi, süfrə açmaq istədiklərini bildirdi. Kifayət xanımın qızı isə Laçını cənnətə bənzədir. Söhbət əsnasında deyir ki, vallah, adam burdan heç yerə getmək istəmir. Sevincimdən səhərə qədər yatmamışam, nə telefona baxıram, nə də televizora. O qədər sevindim ki, Laçının hər daşını, hər torpağını öpdüm. Düşünürəm ki, nə yaxşı göydə Allah, yerdə Cənab Prezident İlham Əliyev bizi bu yurda qaytardı!

**Laçının hər daşında, hər çiçəyində, hər qayasında, hər gülündə şəhidlərimizin izi, ləpiri, nəfəsi , sevgisi hiss olunur. Çünki o boylanan qaya da, o ucalan dağ da, o güllər-çiçəklər də elə şəhidlərin özüdür. Hər addımbaşı onların nəfəsi, həniri, ürək döyüntüsü hiss olunur. Bunu tək biz demirik, bunu həm də Laçında yaşayan və şəhidlərin ruhuna həmişə dua oxuyan minlərlə insan deyir. O insanlar ki yurda döndülər, ocaq qaladılar və öz torpaqlarına ürəkdən bağlandılar. Allah onları həmişə bu yurdda, bu obada, bu ocaqda əbədi saxlasın!..**

**Faiq QİSMƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

**Məmməd Araz - 90**

# Zülmətin qaranlığını işıqlandıran şair

***Azərbaycan deyiləndə***
***ayağa dur ki,***
***Ana yurdun ürəyinə toxuna bilər...***

Şəxsən mən ana, Vətən haqqında yazılan şeirləri oxuya bilmirəm. Çünki bu iki varlıq məndən ötrü toxunulmaz, müqəddəsdir. Hər ikisi sitayiş yerimdir mənim. Ancaq elə düşünürəm ki, bu şeiri oxumamaq və dərindən düşünməmək ən azı günahdır. Belə dərin məzmunlu şeiri ancaq Vətəni, doğma Azərbaycanımızı dünyalar qədər sevən, əsl milli, xəlqi, iliyinə, sümüyünə qədər azərbaycanlı, millət təəssübkeşi olan Məmməd Araz kimi ölməz şair yaza bilərdi. Vətənpərvirlik, millilik heç də ucadan deyilən və gəlişi gözəl olan sözlər deyil. Bu cür istək gərək qanında, canında, ruhunda ola. Və səninlə birgə doğula, dünyaya gələ:

***Ayaq saxla, dövrənə bax ötəri belə***
***Min illərdir Araz belə, Həkəri belə.***
***Axşamların, səhərlərin təkəri belə,***
***Dünya sənin,***
***dünya mənim,***
***dünya heç kimin...***

Burada dərin fəlsəfi məzmun savadından asılı olmayaraq istənilən oxucuya tanış və yaxındır.

Çünki Məmməd Araz deyimi təkrarsızdır. Bu deyim, üsul ancaq ona məxsusdur. Və bir də, bu cür ancaq M.Araz deyə bilər. Dünyanın puç, əfsanə, fani olduğunu o,özünəməxsus istedad və sadəliklə deyə bilib.

Adından məlum olduğu kimi dünya hamınındır. Hamının əlindən tutan, hamının belini yıxan və hamının əlindən çıxmaq qorxusu olan dünya. Hamıya məlum və naməlum dünya.

Məmməd Araz şeirləri, poeziyası o qədər təbii, milli, xəlqi, poetikdir ki, o "Azərbaycan-dünyam mənim", "Dünya sənin, dünya mənim..." şeirlərindən başqa heç bir şey yazmasa belə öz şair adını çoxillik tarixi olan Azərbaycan poeziyasına əbədi yazmış olardı.

Dünya hamını aldadır. Bu onun borcu, vəzifəsidir. Və dünya öz aldadıcı vəzifəsini bizi, insanları hər addımbaşı aldada-aldada, əyrini düz yerinə bizə sırıya-sırıya bizə kələk gəlir. Bizi düyünə salır öz yalançı, şirin diliylə. Və biz aldanmışlar bu düyün kələfini ömrümüz boyu aça, düyündən çıxa, qaça bilmirik. Sonumuz da, aqibətimiz də kələf, kələk dünyasının yalançı, şirin röyalarında acı həqiqətlə baş-başa gəlir. İçinə qurd düşən, içindən çürüyən dünya öz halında, harayındadır. Biz isə onun təmiz görünən, hələ saf-çürük edilməyən bəhrəsiyik. Odur ki, xarici, zahiri görünüşü ilə bizi aldadan dünyanı Məmməd Araz cəmi iki misra ilə bizə tanıdır:

***Uzaqdan baxırsan: ağappaq, təmiz,***
***Yaxına gəlirsən: qurd düşüb qara...***

Sonradan "şair" olanlar çoxdur. Belələri zamanın, şəraitin tələbinə uyğunlaşaraq biqələmun kimi gündə bir don geyir, min rəng alır. Məmməd Araz isə mayadan, binadan şair idi. O, sözün əsl mənasında Tanrı vergisi ilə şair doğulmuşdu. Bax zamanın, dünyanın ağrı-acısını, əzabını belə şairlər çəkir, öz çiyinlərində daşıyır, ürəklərinə salırlar. Və bu şairliyin içində şairliklə, dahiliklə bərabər, elə o boyda inam, vicdan olur ki, şair dünya bazarında vicdanın, haqqın, ədalətin mövcudluğuna inandıra bilir. Əsl şair gecənin zülmət qaranlığında işıq axtarır, həqiqətləri deyir:

***Aldanmaq da aldanılmaq deyilmi?!***
***Zəhər satmaq-zəhər almaq deyilmi?!***
***Yaxşı quyu tərs badalaq deyilmi?!***
***Elə birdir: yıxılıb get, yıxıb get.***

Şeirsiz, sənətsiz yaşaya bilməyən, ömrün qeyrətli yolçusu olan Məmməd Araz "Dilimdən söz əmdi körpə qələmim", - deyir. Əsl sənətin adamı içəridən yandırdığını və sənət adamının əzabla, sıxıla-sıxıla yaşadığına işarə edir:

***Ağır bir sənətə könül bağladım,***
***Bəxtimə də dərdin ağırı düşdü.***

Bəli, həyat belədir, şair qardaş! O Tanrı sevgisi, ilham deyilən sonsuz istedat sənə verilir ki, alovlu qəlbinlə rahatlıq tapmayasan. Yanasan, yandırasan. Şairsənsə dözməli, dözümlü olmalı, yanğını sözlə ifadə etməlisən. Çünki dünyada yeganə düz, həqiqi söz şair sözüdür, Məmməd Araz sözüdür:

***Düz sözdü dünyada hər sözdən baha,***
***Ocaq halaldırsa, mən yanasıyam...***

Şeirin, şeir sənətinin içdən gəlidyini, şairin elə yaza-yaza, əlində qələm ölməsini Məmməd Araz yalnız ona məxsus olan ağrılı təbiiliklə belə ifadə edir:

***Ölə-ölə yazmıram,***
***Yaza-yaza ölürəm!***

Bu ölüm deyil, şair! Şairin şeir yazması, əlində qələm düşüncələrə dalması ən parlaq, mənalı ömürdür. Əsl həyatdır bu məqam. Yaşayır, şeir yazan zaman həyatdan mənəvi zövq alırsan. Çünki boş, ötəri hiss, duyğudan deyil,



dünyanın ancaq zərgər gözlü, sərraf şairi yaşadığı həyatdan, dünyadan yazırsan. Yaş ötəndə yada düşür günahlar deyən Məmməd Araz çox səmimi bir etirafla oxucunun qarşısına çıxır:

***Boğazına sarınan ilanı tumarladın,***
***Qazancın bu oldu ki, mülayim oldu adın.***
***Haqq yolu göstərdiyin haqqını qamarladı,***
***Haqqın yox, Məmməd Araz,***
***Haqqın yox yaşamağa!***

Sevginin daimi, əbədi olmadığını şair gözəl bilir. Bu müvəqqətiliyin içində müvəqqəti yalan da var. Ancaq bu ötəriliyə, yalana aldanan təkcə şair deyil. Bəşərin başqa övladları da var. Bu gün doğulan insan sabah da olsa sevgiyə, müvəqqətiliyə aldanacaq. Bu aldanış yandıra-yandıra bəşəriləşir. Axı dünyanın qanunları belədir. Əbədi aldanış sanki küllənmiş bir ocaqdır. Yaxşı ki, bu ocaq hərdən yanır, alovlanır:

***Sevgi yolu... Dərəsi bir, düzü bir,***
***Tutdun onu - astarı bir, üzü bir.***
***Büdrəməsən, biri yüzdür, yüzü bir,***
***Nə sayalı, saylı yollar var imiş!***

Sevginin müqəddəsliyinə, saflığına inanan şair bu ülvi hissin bəzilərində ötəri, keçici olmasına heyfsilənir, yanır, yaxılır:

***Birinci sevgini iyləyib atdın,***
***Dər görək, bu çiçək necə çiçəkdi?***
***Elə ki, məhəbbət bazarı açdın,***
***Bütün məhəbbətlər köhnələcəkdir.***

Məmməd Araz bədii sözün böyük ustası idi. Bilərəkdən unutduğumuz, gözdən salıb qəsdən köhnəltdiyimiz və bədii, poeziya sözü deyil deyə ögey münasibət bəsləyərək yada salmadığımız sözü çox böyük ustalıqla urvata mindirib, şeirə gətirərək öz poeziya dilini yaratmışdır.

İndi belə sözlərlə zəngin olan M.Arazı oxuyanda mənəvi zövq alır, dilimizin Məmməd Araz şeirlərində zənginliyinə sevinirsən.

"Gündoğandan-günbatana məzilim", - deyir Məmməd Araz. Çünki Günəşin getdiyi, keçdiyi ömür elə şair ömrüdür. Öz şair, şeiriyyat dünyası var sənətkarın. Ancaq istedad, ilham şairliyin özülü, bünövrəsidir. Bu özülün üstündə ləyaqətli, öz dəst-xətti olan poeziya evini tikmık, istedadı cilalayıb dilə gətirmək üçün şair olmalısan. Çünki istedad ilk görünüşündə hələ rəndələnməyib. Onu yonub şair qəlibinə salmaq isə hər şairə nəsib olmur. Söz sərrafı, odlu-alovlu, içi şeiriryyat dolu, səsi, nəfəsi də şeir olan ustad Məmməd Araz məhz ona məxsus olan ustalıq və istedadla öz sənət məktəbini yaratdı. Şeir axınının içində bu məktəb çox möhkəm özül üstdədir.

Və bu məktəbin hər şeir kitabını oxuyanda qanadlanır, nəğməyə dönmüş şeirdən mənəvi qida alır, oxuduqca oxuyursan:

***Bizim dağlar hər sözü də almaz vecinə,***
***Söz daşına yazılmasa, sözsüz keçinər.***
***Bu dağların, bu daşların yaddaşı möhkəm,***
***Səbri ağır, cəbri ağır, qəzəbi ötkəm,***
***Kimi səslər bu el-oba, kimi oxuyar?!***
***Yaxına get sual verib özündən soruş!***
***Onu sevib, onu deyib, onu duyanlar***
***Onun qaya yaddaşına həkk olunurmuş...***

...Qaya möhkəm, sərt olsa da qayadan tez-tez yazan şair yaddaşımızı qayalaşmağa, daş olmağa, yadlaşmağa qoymur. "Oxuyan Təbriz" şeirinə diqqət yetirək:

***Gərək dil susanda əllər danışa,***
***Əllər bağlananda dillər danışa.***
***Elə danışalar - ellər danışa...***
***Dəli gülüşlərim ağlar başımda,***
***Təbriz oxuyurdu dağlar başında...***

və yaxud "Şəhriyar gəlmədi" şeirində:

***...Yataram bir qarış torpaqxanada.***
***Bir zaman demişdim Səttarxana da:***
***Düşmənin hər vədi gülə bürünmüş,***
***İşvəli, qəmzəli mələyə dönmüş,***
***Dili dürr damızan,***
***Dişi öd yığan***
***Bir əfi ilandır, bir əfi ilan!***

"Qonşu çəpəri" şeirində:

***Mən Təbrizli, Naxçıvanlı,***
***mən Gəncəliyəm,***
***Çox görmüşəm hasar üstdə ölənləri də.***
***Mən torpağı bölünməyə öyrəncəliyəm,***
***Heç qazanan görməmişəm bölənləri də.***

Məmməd Araz poeziyası dərin, dibi görünməyən bir dəryadır. Bura baş vuranda islanmırsan. Alovlanır, yanırsan:

***Ürəyimin od donunu soyub getdin,***
***İndən belə od bölüşmək deyil asan.***
***Bir ocağı yana-yana qoyub getdin,***
***Bir ocağı sönə-sönə aparırsan...***

Məmməd Araz zamanın, dövranın nələr törətdiyini, nələrə qadir olduğunu gözəl bilir, başa düşür. Odur ki, zamandan, taledən aman diləməyi lüzumsuz sayır. Həyatın başdan-ayağa mübarizə olduğunu anlayan şair mübarizəyə hazır olmağı məsləhət görür. Taleyim bu cür yazılıb deyə sakit, arxayın oturmamağa çağırır:

***Taleyin hökmünü gözləmək azdı,***
***Taleyin hökmünü özün imzala...***

**Məmməd Araz poeziyasından çox danışmaq olar. Bu poeziyanın dərin ənginliyinə baş vurub, ürək yandırmaq oxucu borcudur. Belə özünəməxsus, dərin, hamıya doğma olan, olduqca milli, azəri bir poeziya irsi qoyub getmişdir Məmməd Araz. Bizim, indiki nəslin isə vəzifəsi bu şeirləri oxuyub qavramaq, düşünmək borcudur. Odur ki, Məmməd Arazı oxuyun, öyrənin. Bu tutumlu, dəyərli irsi oxusaq mərhum şairimizin ruhu şad olar.**

**Adil Misirli**

# ÜZÜLDÜYÜM XƏBƏR

**Ötən həftənin qəzetlərini vərəqləyirdim. "Ədəbiyyat" qəzetinin son səhifəsindəki başsağlığı diqqətimi çəkdi, gözlərimə inanmadım. Yazıçılar Birliyi şair Əbülfəz Ülvinin Tanrıya qovuşduğunu vurğulamışdı. Bu başsağlığı məni Naxçıvana çəkib apardı. Getdim Əbülfəzli günlərə**

Onu 70-ci illərin sonundan tanımağa başlamışdım. Təbii ki, öncə şeirlərindən tanıdım, hekayələrindən duydum onun iç dünyasını. Sonra həyat bizi qarşılaşdırdı. Ruhuma o qədər doğma gəldi ki, elə bildim yüz ilin dostuyuq. Və beləcə onun hər Bakıya gəlişi mütləq, təbii ki, imkan daxilində bizim də görüşümüzə çevrilirdi. "Ədalət" qəzetində mənim iş otağımda dərdləşirdik. Sonra özünəməxsus şəkildə vurğulayırdı ki, bəlkə bir çay süfrəsi arxasında oturaq, dostlardan da kimi istəyirsən dəvət edək. Bunu onu görə vurğulayırdı ki, özü alkoqoldan uzaqadam idi. Mənə badə yoldaşı seçmək şansı verirdi. Bu onun təkcə süfrəyə, kəsilən çörəyə diqqəti deyildi. Bu həm də dəvət etdiyi adamın özünü məclisdə istədiyi kimi görməsinə yaratdığı şərait idi



Belə hallar çox oldu həyatımızda. Amma Naxçıvandakı görüşlərimiz Bakıdakı görüşləri həmişə kölgədə qoyurdu. Əbülfəz Naxçıvanda həm ziyalı, həm şair, həm də ev sahibi kimi o qədər canıyananlıq göstərirdi ki, bəzən içimdə sıxılırdım. Onun göstərdiyi diqqət məni düşüməyə, qarşılığını tapmağa məcbur edirdi. Bunu hiss edən Əbülfəz hər dəfə deyirdi ki, qardaş, sən qonaqsan, özün də qaçqınsan, mənim də qrup doğmamsan. Deməli, sənə diqqət daha çox olmalıdır.

Bəli, Əbülfəz Ülvi Naxçıvanda olarkən bütün vaxtını dostuna həsr edirdi. maşını sürməkdən, Naxçıvanı gəzib tanıtmaqdan zövq alırdı. Onunla sonuncu görüşüm mənim Naxçıvanda olarkən getdiyim ünvan Şərurda gölün kənarında yaddaşıma köçdü. Biz orda Asim Yadigar, İbrahim Yusifoğlu, Əbülfəz və digər yaxınlarla birlikdə gözəl bir məclis qurduq, xoş anlar yaşadıq. Bununla belə geri qayıdarkən o, vurğuladı ki, bu məclisi bir az da böyütmək, bir az da uzatmaq lazım idi. Çünki belə anlar ələ düşmür

Əbülfəzin bir diqqətini heç vaxt unutmayacam. Fəridə Rəhimli ilə Naxçıvana gedirdik. Şəhid İlkin Seyidovla bağlı materiallar toplamalı, onun ailə üzvləri ilə görüşməli idik. Bakıdan yola düşməzdən öncə zəng etdim. Bircə kəlmə dedi:

- Aeroportda gözləyəcəm, sağ-salamat gəlin.

**Təyyarədən düşəndə onu hava limanında gördüm. Bizi birbaşa şəhid məzarının ziyarətinə apardı. Sonra səhər yeməyinə götürdü, sonra da görəcəyimiz bütün işlərin iştirakçısı oldu. Yaxşı ki, xatirə şəkilləri çəkdirdim onunla. İndi bu üzüntülü anda o şəkillərlə söhbət edirəm, o anları xatırlayıb sənin cismən köçünə inanmaq istəmirəm. Ruhun şad, məkanın cənnət olsun, Əbülfəz Ülvi.**

***P.S.*** *Mən şair Əbülfəz Ülvi ilə bağlı xatirələrimin yalnız bir anını kağıza köçürtdüm. Amma ürəyimdə onunla etdiyim söhbətlərin mövzusu da, məzmunu da bir-birini əvəzləyir, bitib tükənmirdi. Ona görə ki, Tanrı dərgahında olan dostum, unudulmaz Əbülfəz Ülvinin özünəməxsus insani çalarları var idi. Necə deyərlər, o, hər bir məqamda öz səsi, öz ləhcəsi və fikirləri ilə adamı özünə çəkə bilirdi.*

**Əbülfət Mədətoğlu**

# Xalq şairi Məmməd Arazın 90 illik yubileyi keçirildi

**25 oktyabr 2023-cü il tarixində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Xaqani Şirvani adına Aran Regional filialında Azərbaycan Respublikasının xalq şairi Məmməd Arazın 90 illik yubileyi münasibətilə tədbir keçirilmişdir.**

Tədbiri giriş sözü ilə açan muzeyin Aran Regional filialının müdiri, filologiya üzrə fəlsəfə doktoru Yaqut Bahadurqızı görkəmli şairin ən böyük vətəndaş, ədəbiyyatımızın sütunu, nəhəngi Məmməd Arazın həyatından, yaradıcılığından, şəxsiyyətindən bəhs edərək qeyd etdi ki, Vətən sevdalı Məmməd Arazın yaradıcılığı zəngin və səmimi olduğu üçün hər kəsin dilinə yatır, ürəyinə yol tapır. Məmməd Araz kağıza həkk etdiyi hər misrasında vətən sevgisini, dərin həyat fəlsəfəsini milyonlarla oxucuya ötürən böyük şair olub. Ömrünün enişli, yoxuşlu illərində sınmayan, əyilməyən şairi fiziki cəhətdən sındırsalar da, ruhunu, məsləkini sındıra, əyə bilmədilər. Sovetlərin ən qatı, ən sərt zamanında Vətən məfkurəsi, cənublu, şimallı Azərbaycan arzusu ilə yaşayan və bunu açıq-aşkar yaradıcılığında qorxmadan əks etdirən şair Məmməd İbrahim Arazı özünə təxəllüs götürərək: "Azərbaycan deyiləndə ayağa dur ki, ana yurdun ürəyinə toxuna bilər" - dedi. Hər misrası, hər bəndi kiçikdən böyüyə hər kəsin sevimlisinə çevrilən Məmməd Araz xalqın şairi olmağı, milli ruhu daşımağı mü-





kəmməl şəkildə bacardı. Tədbirdə Kürdəmir şəhər 4 saylı məktəbin dil-ədəbiyyat müəllimi Aytən Umudova öz çıxışında bildirmişdir ki, hər insan özü ilə dünyaya bir ad gətirir. Bu adı ocağa, şöhrət bayrağına çevirənlər də olur, nifrət, lənət hədəfinə döndərənlər də. Əgər biz Məmməd Araz şeirindən danışırıqsa, sözünün, qələminin nəfəsi ilə, ürəyinin səsi ilə hayqıran, xalqın şah damarına toxunan, insanların ürək təpərinə çevrilən, ümidə, təsəlliyə, göz yaşına çevrilən o sehirli misralar gəlir ağılımıza. Tədbirdə eyni zamanda yazıçı-publisist Əlisəfa Azayev, Mərkəzi Aran Regional Mədəniyyət idarəsinin Kürdəmir rayon üzrə nümayəndəsi Vaqif Alıyev, kitabxanaçı, şəhid anası Müşkünaz Əliyeva, Kürdəmir rayon İcra başçısının müavini Vəsilə Əsgərli, Məmməd Araz pərəstişkarı, Kürdəmir rayon Mollakənd kənd tam orta məktəbin direktoru Akif İbrahimov çıxış edərək Məmməd Araz şəxsiyyətindən, zamanla hesablaşmayan Məmməd Araz şeirinin milli poetik təfəkkürümüzün ən uğurlu ifadəsi olmasından, Vətən sevgisini misraları ilə millətin qəlbində, şüurunda göyərtmək qüdrətindən bəhs etdilər.

Məktəblilər şairin dillər əzbəri olan şeirlərindən nümunələr söylədilər.

Tədbirdə eyni zamanda görkəmli şairin həyat və yaradıcılığının müxtəlif məqamlarını əks etdirən videoçarxlar nümayiş etdirilmiş, sözlərinə bəstələnmiş musiqi nümunələri səsləndirilmişdir.

**Tədbirin sonunda Məmməd Arazın şeirlərini daha gözəl söyləyən şagirdlər N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynovun imzaladığı Fəxri Fərmanla mükafatlandırıldılar.**

## "İsa peyğəmbər BMT-nin pəncərəsini döyür"



**Rəsm 1962-ci ildə ABŞ rəssamı Harry Anderson tərəfindən çəkilib.**

Bu foto sosial şəbəkələrdə trend olub.

## İstəyirəm ki, "Adam necə kasıb olur?" mövzusunda görüş keçirim

**Acun Ilıcalının Bakıya gəlişi və onunla görüş üçün biletlərin qiyməti kasıb siqmentin müzakirə mövzusudur. Varlılar isə şad-xürrəm həyatlarına davam edirlər.**

Onlar arxivlərinə Acunla görüşdən xatirə şəkilləri əlavə ediblər. Əziz kasıblar, ola bilsin ki, problemlərdən burnunuzun ucunu görə bilmirsiniz. Başa düşürəm.

Məsələn, belə baxanda sizin üçün kitaba verilən 10 manat da artıq xərcdir,

İstəyirəm ki, "Adam necə kasıb olur?" mövzusunda görüş keçirim. Biletlər də 10-90 manat arası. Siz də gəlib dinləyib bir də o səhvləri etməyəsiniz ki, varlı ola biləsiniz.

## Nəsimi Paşayev: Acuna şalvar-ayaqqabı geyindirdik



**"Ömür boyu şortik-şəpitdə gəzən adama ofisimizdə şalvar-ayaqqabı geyindirdik".**

Adalet.az xəbər verir ki, bu sözləri "Hünər" group-un marketinq departamentinin direktoru Nəsimi Paşayev sosial şəbəkə hesabında yazıb. "Onsuz da öyrəşmisiniz hər şeyə mız qoymağa. Yox ə, Acun gəlib sizə hazır pulun yerini göstərəcəkdi. Adam sizə necə məşhurlaşdığını və dolayısıyla necə varlandığını gülməli şəkildə anlatdı. İndi mən də sizə bir uğurumuzu göstərim. Ömür boyu şortik-şəpitdə gəzən adama ofisimizdə şalvar-ayaqqabı geyindirdik.

İndi mən də sizə bir uğurumuzu göstərim. Ömür boyu şortik-şəpitdə gəzən adama ofisimizdə şalvar-ayaqqabı geyindirdik. Siz bunu da uğurdan saymazsınız".

**Emin**

# Qadınlara qarşı zorakılıq: dünyanı sarsıdan qorxunc bəla



*Zakir Bayramlı,*
*Şair-publisist, AYB və AJB-nin üzvü, təhsil işçisi*

**Dünyada qadınlara qarşı zorakılığın miqyası azalmaq əvəzinə ildən-ilə daha da genişlənir. Beynəlxalq aləmdə xarakterindən və növündən asılı olmayaraq bütün zorakılıq halları, o cümlədən qadınlara, qızlara və uşaqlara qarşı zorakılıq və məişət zorakılığı haqq-ədalətə və qanuna zidd olduğuna görə cinayət hadisəsi hesab olunur.**

Bütün zorakılıq halları, o cümlədən quldurluq, terrorçuluq, oğurluq, adam oğurluğu, qəsdən adam öldürmə, koorupsiya, dələduzluq, dəniz quldurluğu, qanunsuz varlanma, cinsi istismar, faina və floraya ciddi zərər vurma, rüşvətxorluq, qanunsuz avtomobil və digər nəqliyyat vasitəsinin qaçırılması və ələ keçirməsi, qanunsuz azadlıqdan məhrum etmə, qanunsuz miqrasiyanın təşkil edilməsi, soyğunçuluq, basqın, insan alveri, münaqişə zamanı silahla adam öldürmə və b. hamısı cinayət əməli hesab olunur.

Qadınlara qarşı zorakılıq və məişət zorakılığı halları isə ən daha çox bəzi yenicə qurulmuş, hələ kifayət qədər evlilik təcrübəsi olmayan ailələrlə sıx bağlıdır. Bu hal əsasən bir-birini sevmədən nikaha girən, ərköyün tərbiyə almış,zəif dünyagörüşlü, bir-birinə güzəştə getməyi bacarmayan, hər gün yeni-yeni sərgüzəştləri ilə təzə qurulan ailənin bünövrəsini tam bərkiməyə qoymayan, hümanizm və xeyirxahlıq prinsiplərindən çox-çox uzaq, pis vərdiş və adətlər çeşməsindən qidalanan gənc ailələrdə baş verir.

Zərif, kişilərə nisbətən zəif cins hesab edilən qadına qarşı zorakılıq halı həmişə ümumi zorakılığın ən biabrçı halı sayılıb. Uzun illərdir ki, zərif cinsə qarşı yönəldilmiş həmin zorakılıq əməlləri bədxassəli xərçəng şişi xəstəliyi kimi dünyanın bütün ölkələrinə yayılıb. Vəziyyətdən çıxış yolunu isə hələlik heç bir ölkə tapa bilməyib. Və bu hal öz dəhşəti ilə hər gün bəzi ailələrin başınının üstündə kabus kimi dolaşaraq neçə-neçə canlar alır, həmin ailələrə müxtəlif fiziki, mənəvi və iqtisadi cəhətdən külli miqdarda zərər vurur. Nəticədə belə zorakılıq halları cəmiyyətin mənəvi zənginliyini sarsıdmaqla yanaşı, dövlətin büdcəsinə də ciddi zərər vurur.Bu bəla ailə adlı yurd-yuvanı dağıtmaqla və məhv etməklə dünya marşrutu üzrə öz yoluna hələ də davam etməkdədir.

Sevimli peyğəmbərimiz həzrəti Məhəmməd əleyhissalam kişilərə nisbətən zəif və gücsüz olan qadınları, uşaqları, qocaları , xəstələri və s. nəzərdə tutaraq belə bir hədis söyləmişdir: " Allah-taala o adamı himayəsinə alıb cənnətə daxil edir ki, onda bu üç keyfiyyət olsun: Zəif adamla mehribançılıq, valideynlərə qarşı şəfqət göstərmək, tabeliyində olanlarla yaxşı davranmaq". Həzrəti imam Əli (ə) isə kişilərin qadınlarla yaxşı münasibət yaratmaq yolunu belə şərh edirdi: "Qadınlarla savaşmayın. Çünki qalib gəlsəniz, məğlub da olsanız sizin üçün ayıb olacaqdır".

Azərbaycanda törədilən hər 4 cinayətdən biri qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə bağlıdır. 2001-2005-ci illərdə respublikamızda 246 nəfər zərif cinsin nümayəndəsi qətlə yetirilmişdir. Həmin müddətdə qadın ölümünə səbəb olan 100, qadınların döyülməisi barədə 8833 cinayət faktı qeydə alınmışdır. 2291 qadın isə zorakılıq nəticəsində müxtəlif dərəcəli bədən xəsarəti alıb. 2008-ci ildə 6352 nəfər qadın zorakılığa məruz qalıb.

Zorakılığın qurbanı olan həmin qadınların 3408 nəfəri məişət zorakılığına aiddir. Azərbaycan cinayət məcəlləsində köləlik, cinsi zorakılıq, özünü öldürmə həddinə çatdırma, qəsdən sağlamlığa ağır və ya yüngül zərər vurma, əzab vermə, oldürülmə və ya işgəncə verməklə hədələmə, zorlama, seksual xarakterli hərəkətə məcbur etmə maddələri üzrə məsuliyyət dərəcəsi müəyyən edilmişdir.

Cinayət törətmək qadınlara xas olan hərəkət deyil. Bəs, necə olur ki, qadınların iştirakı ilə cinayət hadisəsi baş verir. Araşdırmalar və təhlillər göstərir ki, məsələnin kökündə çoxdan yığılıb qalmış müxtəlif ailə problemləri durur. Qadının adam öldürməsi və ya ərinə ağır və yüngül dərəcəli bədən xəsarət yetirməsi yalnız özünümüdafiə xarakteri daşıyır. Çünki ailədə problem vaxtında həllini tapmazsa ya psixoloji travma, ya boşanma, ya sui-qəsd (intihar) ya da cinayət hadisəsinin baş verməsi halı labüd olacaqdır.

Qadınlara qarşı zorakılıq və məişət zorakılığı barədə Avropa Şurası Konvensiyasında qadınlara qarşı tətbiq edilən psixoloji, davamlı təqib, fiziki, zorlama daxil olmaqla cinsi zorakılıq, məcburi nikah, qadın sünnəti, məcburi abort və məcburi sterillizasiya, cinsi qısnama və s. hallar hamısı cinayət əməli kimi qeyd edilmişdir.

Hal-hazırda dünyada qadın və qızlara qarşı müxtəlif formada zorakılıq halları yenə gündən-günə artmaqdadır.

Təkcə 2022-ci ilin 9 ayında Azərbaycanda məişət zorakılığı ilə bağlı 1100-dən artıq cinayət hadisəsi qeydə alınmışdır. Həmin hadisələr nəticəsində 893 qadın müxtəlif dərəcəli xəsarət alıb, 55 nəfər qadın isə həyatını itirib. Daxil olan yekun məlumatlarına əsasən həmin ildə müxtəlif zorakılıq üsulları ilə qadınlar öldürülmüşdür. Qətllərin 34-ü həyat yoldaşı, 6-sı qardaşı, 3-ü oğlu,4-ü atası, 3-ü keçmiş həyat yoldaşı, 5-i sevgilisi, 1-i nişanlısı, 11-i isə qeyri-müəyyən şəxslər tərəfindən törədildiyi müəyyən edilmişdir. 2022-ci ildə respublika üzrə cinayət hadisələrinin 1789 faktı, yəni 6.9%-i qadınlara qarşı zorakılıq hadisələrinin payına düşür.

Bu ul dünya ölkələri Qadın Zorakılığına Qarşı Mübarizə Gününü 24-cü dəfə qeyd edəcəkdir. 1999-cu ilin 25 noyabrında BMT Baş Assambleyası 25 noyabrı Qadın Zorakılığına Qarşı Mübarizə Günü elan etmişdir. Qadın Zorakılığına Qarşı Mübarizə Gününün məhz 25 noyabrda qeyd edilməsinin özəl səbəbi var.

Bu 1961-ci ildə Dominikan Respublikasınnda baş verən bir hadisə-siyasi faciə ilə bağlıdır. Həmin ildə Dominikan Respublikasının prezidenti Rafael Truxilonun sərəncamı ilə siyasi fəal qadınlardan olan 3 tibb bacısı vəhşicəsinə öldürülmüşdür. Qadınların həmin zorakılığa qarşı mübarizə simvolu kimi isə ağ lent nümayış olunur.

Həmin beynəlxalq günün- Qadın Zorakılığına Qarşı Mübarizə Gününün qeyd edilməsi ilə bağlı BMT-nin baş katibi bütün ölkələrə müraciət edib.

Dünya ictimaiyyətinin həmin probleмə hərtərəfli diqqətini cəlb etmək və qadınlara dəstək məqsədilə hər il noyabrın 25-də dünyanın bütün hökumətlərinə, eləcə də beynəlxalq təşkilatlara və QHT-lərə həmin tədbiri keçirməyi təklif etmişdir.

**Dünyada qadın hüquqlarının qorunması , qadınlara qarşı zorakılığın və məişət zorakılığının aradan qaldırılması məqsədilə gender bərabərliyi problemi hələ də tam həllini tapa bilməyib. Bu sahədə işlər çox ləng gedir. BMT səlahiyyətlisi isə etiraf edib ki, bu sahə üzrə problemin həlli indiki templə belə davam edərsə dünyada gender bərabərliyinə yalnız 300 ilə tam nail olmaq olar.**

## İflic adam süni zəka implantı ilə danışdı

**Elm adamları tərəfindən süni intellektlə inkişaf etdirilən beyin implantı iflic olan və danışa bilməyən xəstəyə yerləşdirilib. İmplant sayəsində xəstə yenidən ucadan danışmağa başlayıb.**

Adalet.az xəbər verir ki, Ann Conson 18 il əvvəl insult keçirib və danışma qabiliyyətini itirib. Amma indi beyin implantı və alimlər tərəfindən hazırlanmış süni intellekt sayəsində rəqəmsal avatar vasitəsilə yenidən danışa bilir.

Keçən həftə "Nature" jurnalında dərc olunan araşdırmada tədqiqatçılar Annın beyninin səthinə bir sıra elektrodlar yerləşdirərək, onun beyin fəaliyyətini kompüterlərə ötürüblər. Süni intellekt alqoritmləri bu beyin siqnallarını sözlərə çevirib. Ekrandakı rəqəmsal avatar gecikmədən Ennin düşündüyü sözləri danışıb və üz ifadələri ilə duyğularını ifadə edib.

Bu araşdırma beyin implantlarının istifadəsi ilə real vaxt ünsiyyətinin necə mümkün ola biləcəyini göstərir. Ann hazırda cihazdan istifadə edərək ekranda sözlər yazaraq ünsiyyət qurur, lakin bu üsul olduqca yavaşdır.

Yeni interfeys sayəsində o, dəqiqədə daha çox söz istehsal edə bilir ki, bu da onu təbii nitq sürətinə yaxınlaşdırır. Cihaz Ennin nitq niyyətini 75 faiz dəqiqliklə tanıya bilir.

**Bu sistem 253 elektrodlu beyin implantına əsaslanır. Beyindəki bu elektrodlar iflic olmuş Annın düşündüyü sözləri siqnala çevirir. Süni intellekt bu siqnalları səslərə çevirir və sözlər yaradır. Bundan əlavə, rəqəmsal avatar Ennin düşüncələri əsasında hərəkət edən üz ifadələri vasitəsilə emosiyaları ifadə edir.**

**Vasif Əlihüseyn**

## Məşhur xanəndənin 70 illik yubileyi qeyd olunub



**Dünən Azərbaycan Dövlət Akademik Flarmoniyasında məşhur xanəndə Səxavət Məmmədovun 70 illik yubiley tədbiri keçirilib.**

Tədbiri aparıcı Leyla Əliyeva açıq elan edib. O, yubliyarın həyat və yaradıcılığından söz açıb. Sonra isə Səxavət Məmmədovun həyat və yaradıcılığndan bəhs edən videoslide tədbir iştirakçılarına təqdim olunub. Tədbirdə ilk ifanı əməkdar artist Zakir Əliyev səsləndirib. O, sənətkarın repertuarından bəstəkar mahnısı ifa edib.

Xalq artisti Nəzakət Teymurova da mərhum xanəndənin sevilən mahnılarından birini ifa edib. Avazı ilə tədbir iştirakçılarını heyrətləndirən xalq artisti Zabit Nəbizadə də digər sənət dostları kimi yubliyarın gecəsinə toplananlar sırasında idi. Xalq artisti Teyyub Aslanov "Ay bəri bax" mahnısı ilə tədbirdə çıxış edib.

Gənc muğam ifaçısı Səbinə Ərəbli Səxavət Məmmədovun ifasında sevilən "Ay çiçək" mahnısını oxuyub.

Əməkdar artistlər Cabir Abdullayev "Sev məni", Almaz Orucova isə "Qarabağ" mahnısı ilə tamaşaçıların zövqünü oxşayıb.

Tədbiri mərhum xanəndənin qardaşları əməkdar artist Firuz Səxavət və Əlyar Məmmədov yekunlaşdırıb.

Yubiley tədbirində çıxış edən xanəndələri Səxavət Məmmədovun yaratdığı "Qarabağ" instrumental ansamblı müşayət edib.

Ansamblıda Səxavət Məmmədovun adını daşıyan qardaşı oğlu Səxavət də tarda ifa edib. Xanəndələr tədbirdə yalnız mərhum xanəndənin repertuarından mahnılar ifa edilər.

Yubiley gecəsində xanəndənin sənət dostları, tanınmış elm xadimləri, tanınmış həkimlər, media nümayəndələri və ailə üzvləri iştirak edib.

## Müğənni: "həyat yoldaşımın telefonu yoxdur"



**Müğənni Elşad Qarayev maraqlı açıqlaması ilə diqqət çəkib. Adalet.az xəbər verir ki, sənətçi şou proqramların birində ona verilən sualları cavablandırıb:**

"Xanım məndən daha çox sevir. O mənə dözürsə, deməк o, daha çox sevir. Onu efirə bağlamaq istəyirsiniz. Amma, onun telefonu yoxdur. O , telefon işlətmir".

## Zümrüd Bədəlova: "... kiminsə proqramını əlindən alacam"

**Aparıcı Zümrüd Bədəlova "Gül kimi şou"nun qonağı olub. Adalet.az xəbər verir ki, o, uzun illər sonra yenidən efirə qayıtmağından söz açıb:**

"Məni gülər üzlə yola salanları qayıdanda yerində görmədim. Yenidən efirə qayıdanda hamını çox soyuqqanlı, laqeyid gördüm. Sanki mən gəlib kiminsə proqramını əlindən alacam. Hətta şirkətin kooridorunda məni görəndə təəccüblə soruşurdular ki, aa hansı proqramı aparacaqsan? Deyirdim ki, qorxmayın, verilişinizi əlinizdən almaram. Ancaq bu qədər həmkarlarımın içərisində yalnız Afaq Gəncəli mənə ürəkdən "ay sən xoş gəlmisən" dedi. Proqramın aparıcısı Cavid Gül isə həmkarı Bədəlovaya "Sən Afaqın yaxşı vaxtına düşmüsən. Afaq çox adamın yolun kəsib", deyib.

## Zaur Baxşəliyev: "Mən Mehribana 10 uşaq doğmuş ana kimi baxıram"



**Aparıcı Zaur Baxşəliyev əməkdar artist Mehriban Xanlarovanın sosial vəziyyətindən danışb.**

Adalet.az xəbər verir ki, aparıcı aktrisanın yaşadığı çətinlikləri övladına sahib çıxmayanlara misal çəkib:

" Mənim də qohumlarımın içərisində kasıb yaşayan, imkanı olmayan o qədər insan var ki. Axı bizim də öz ailəmiz var. Adam öz anasına, bacı- qardaşına, ailəsinə güclə yetir. Mən nə dediyimi anlayıram və bilirəm ki, niyə deyirəm. Amma, bu gün Mehribanın bir otaqlı evində nitq qüsurlu anası, iki xəstə qardaşı və dörd nəvəsi onunla birlikdə yaşayırlar. Təsəvvür edin ki, bir otaqlı evdə 8 nəfər adam yaşayır. Mehriban istəsəydi, onlara baxmaya bilərdi, öz həyatını yaşaya bilərdi. Amma etmədi. Doğmalarına sahib çıxdı. Mən Mehribana 10 uşaq doğmuş ana kimi baxıram. Çünki özündən başqa on nəfərə baxır bu qadın."

Aparıcının bu çıxışı tamaşaçıları və ekspertləri kövrəldib.

## Hacı Nuran jurnalisti "qara siyahı"ya saldı

**Xeyriyyəçi Hacı Nuran Hüseynov jurnalist Pərviz Hüseyni instagram hesabında "qara siyahı"ya atıb**

Adalet.az xəbər verir ki, bu barədə jurnalist instagram hesabında məlumat verib. Belə ki, Hacı Nuranın türkiyəli iş adamı Acun İlicalı ilə çəkdirdiyi fotonu paylaşaraq rəy yazıb. Bu rəy Hacını qəzəbləndirib. O, P.Hüseyni izləməsindən çıxarıb, daha sonra "qara siyahı" ya atıb: Pərviz Hüseyn instagram hesabının story bölümündə "Hacı Nurandan blok yeyən mən" sözlərini paylaşıb.

**Əntiqə**

## Psixoloq: "Qızlara birinci kitab almaq lazımdır, cehiz yox!"



**Dövrümüzün əsas problemlərindən biri də erkən nikah problemidir. Cəmiyyət olaraq erkən nikahın fəsadlarını görürük. Lakin bir çox insanlar erkən nikahın baş tutmasına asanlıqla razılıq verirlər. Bununla bağlı hansı tədbirlər görülməlidir? Çıxış yolun nədir? Ümumiyyətlə, çıxış yolu varmı? Bu kimi suallara cavab tapmağa cəhd etdik.**

Mövzu ilə bağlı psixoloq Fərqanə Mehmanqızı Adalet.az-a açıqlama verib. Ekspertin sözlərinə görə, bu hallara daha çox əyalətlərdə, kəndlərdə rast gəlinir: "Bir çox insanlar, xüsusən də analar qızlarını tez ərə vermək istəyirlər. Onlar düşünürlər ki, qızları ərə getməklə xoşbəxt olacaq. Ancaq 16-17 yaşlı qız xoşbəxtliyini peşəsində, təhsilində tapmalıdır. Əlbəttə, ailə qurmaq da önəmlidir. Ancaq ilk növbədə təhsil alıb, müstəqil insan kimi yetişmək daha vacibdir. Təhsil almış, müstəqil düşüncəyə malik olan qızlar gələcəkdə həm yaxşı həyat yoldaşı, həm də yaxşı ana ola bilirlər. Bu, həm də onların öz hüquqlarını bilməsi üçün çox əhəmiyyətlidir. Analar qızlarına birinci almalıdır,cehiz yox. Bu mütləqdir. Erkən nikahlar, ayrılıqla, xəyanətlə və hətta intiharla da nəticələnir." O bildirib ki, erkən nikahlarda zaks olmadığı üçün boşanma zamanı aliment verilməsi və mülk bölgüsü problemi də ortaya çıxır: "Bilirsiniz ki, 18 yaşına çatmayan vətəndaşlar nikaha daxil ola bilməz. Ərə gedən 16 yaşlı qızın əlbəttə nikahı olmayacaq. Boşanma zamanı öz haqqını qanuni şəkildə tələb edə bilməməsi problemi də nəzərə alınmalıdır. İndi hər kəs deyir ki, qızımı ərə vermirəm ki,boşansın. Ərə verirəm ki, xoşbəxt olsun. Ancaq sabah nələr baş verəcəyindən heç kəs sığortalanmayıb. Bu faktdır ki, boşanmaların sayı hər il daha da çoxalır. Statistik nəticələrə görə, dağılan ailələrin çoxu erkən nikahlı ailələrdir. Valideynlər övladlarına bu haqsızlığı etməməlidirlər. Övladlarımız bizim gələcəyimizdir. Onları zülmə qatlaşan,əzab çəkən evdar qadın kimi yox, ali təhsilli, savadlı, cəmiyyətə yararlı bir qadın kimi yetişdirməliyik."

**Əntiqə Kərimzadə**

## Azərbaycan millisinin FİFA reytinqində mövqeyi dəyişdi

**FİFA milli komandaların növbəti reytinq cədvəlini açıqlayıb.**

Qol.az qurumun saytına istinadən xəbər verir ki, Azərbaycan millisi son reytinqlə müqayisədə 1 pillə irəliləyib. Canni De Byazinin baş məşqçisi olduğu komanda 1147 xalla 120-ci pillədə qərarlaşıb. Azərbaycan millisi bu ay Avro-2024-ün seçmə mərhələsində Estoniyaya 2:0 hesabı ilə qalib gəlib, Avstriyaya 0:1 hesabı ilə uduzub. İlk 3-lükdə dəyişiklik olmayıb. Son dünya çempionu Argentina siyahıda 1-ci pillədə (1851 xal) qərarlaşıb. Fransa 2-ci (1840), Braziliya 3-cü (1837) pillədə yer alıb.

**Binəqədi Qəsəbə Bələdiyyəsi tərəfindən Vəliyev Əbülfət Mürsəl oğlunun adına verilmiş torpaq sənədi itdiyi üçün etibarsız sayılır.**

***

**Binəqədi Qəsəbə Bələdiyyəsi tərəfindən Səmədova Minara Əvəz qızının adına verilmiş torpaq sənədi itdiyi üçün etibarsız sayılır.**

Aqil Abbas polis polkovniki
**TELMAN QASIMOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Nəbi Muxtarov ailə üzvləri ilə birlikdə polis polkovniki
**TELMAN QASIMOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Aslan Mehdiyev ailə üzvləri ilə birlikdə polis polkovniki
**TELMAN QASIMOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Faiq Qismətoğlu və Əbülfət Mədətoğlu ailə üzvləri ilə birlikdə polis polkovniki
**TELMAN QASIMOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Fəridə Rəhimli və Əbülfət Mədətoğlu şair
**ƏBÜLFƏZ ÜLVİNİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS
Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 152
Çapa imzalanmışdır: 26.10.2023